# Xalq qəzeti

Xalqın qəzeti!

№ 203 (30319) 20 sentyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Günün xəbəri

Ermənistan silahlı qüvvələrinin qalıqlarının ərazilərimizdən çıxarılması və ölkəmizin konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan bölgədə lokal xarakterli antiterror əməliyyatlarına başlayıb. Görülən tədbirlərin hədəfi regionda sülh və təhlükəsizliyə əsas təhdid mənbəyi olan qanunsuz hərbi birləşmələr və xunta rejimidir.

# Qarabağ Azərbaycandır – antiterror tədbirləri və ilahi ədalətin təntənəsi

*Ərazilərimizdə erməni separatizminin kökü kəsilməlidir!*



**Qarabağda lokal antiterror tədbirlərinə başladıq. Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən müqəddəs Qarabağ hədəfi müəyyənləşdirmiş, həm düşünülmüş xarici siyasət kursu ilə bu hədəfə doğru getmiş, həm də xalqı, xüsusən də gənc nəsli torpaqlarımızın işğaldan azad olunmasına inandırmaq yönümlü daxili ideoloji xətt seçmişdi. Qətiyyətlə söyləyə bilərik ki, 44 günlük müharibədə dərin inamla məqsədyönlü siyasətin birgə zəfəri, böyük təntənə anı yaşanmışdı.**

Ölkəmiz dövlətimizin başçısının rəhbərliyi ilə İkinci Qarabağ müharibəsindən sonra 44 günlük müharibədəki Zəfərimizi doğuran siyasi-diplomatik və hərbi kursu uğurla davam etdirmiş, dünən start verilmiş antiterror tədbirləri üçün baza formalaşdırmışdı. Prezident İlham Əliyev çıxışlarında, dəfələrlə bu tədbirlərin bir növ anonsunu vermiş və tam əminliklə bildirmişdi ki, Azərbaycan torpaqlarında separatizm üçün meydan olmayacaq.

Bəli, Qarabağdakı anti-terror tədbirləri Azərbaycan dövlətinin və xalqının maraqlarına tam uyğundur, legitimdir. Bu tədbirləri gözləmək olardımı? Bəli! Çünki 2020-ci ildən başlayaraq, Ermənistan Azərbaycanın xəbərdarlıqlarından nəticə çıxarmadı. Qarabağda qeyri-qanuni hərbi birləşmələr, hərbi texnika, qurğu, silah və sursat saxladı. Üstəlik, müxtəlif yollarla əraziyə əlavə hərbi vasitələr cəlb etdi, şəxsi heyətin rotasiyasını həyata keçirdi, ərazilərimizi minaladı və sair yolverilməz hərəkətlər reallaşdırdı ki, bunların hamısı ölkəmizin konstitusyon quruluşuna ziddir, dövlət suverenliyimizə təhdiddir.

*(ardı 4-cü səhifədə)*

# Qarabağda əməliyyatlar beynəlxalq hüquqa tam uyğundur

**Sentyabrın 18-də saat 07:00-da Beynəlxalq Qırmızı Xaç Komitəsinin iki yük maşınından birinin Ağdam–Xankəndi, digərinin isə Laçın–Xankəndi yolu ilə eyni vaxtda keçməsi Azərbaycana qarşı “blokada” ittihamlarının heç bir əsasının olmadığını nümayiş etdirdi. Eyni zamanda, yüklərin çatdırılması Ermənistanın, o cümlədən onun yaratdığı və dəstəklədiyi qondarma rejimin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hədəf alan hərbi və siyasi təxribatlarının artması hallarından təcrid olunmayıb.**



Elə dünən işğaldan azad edilən ərazilərdə ermənilərin törətdiyi mina terroru nəticəsində 6 vətəndaşımız həlak olub. Onlardan ikisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin, dördü isə polis əməkdaşıdır. Polis əməkdaşları Avtomobil Yolları Dövlət Agentliyi işçilərinin öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edirmişlər. Bundan əlavə, sentyabrın 19-u saat 11:45-də Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətindəki mövqeləri Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub. Nəticədə ordumuzun iki hərbi qulluqçusu yaralanıb.

*(ardı 3-cü səhifədə)*

# Haylar Azərbaycanın səbir kasasını minalarla daşırdılar

**Otuz il davam edən işğal dövründə ərazilərimizə mina basdırmaqları az imiş kimi, İkinci Qarabağ müharibəsi başa çatandan, məğlub olduqlarını şərəfsizcəsinə təsdiq etdikdən sonra da hər gün Qarabağa mina daşıdılar, yolları, körpüləri, hətta qəbiristanlıqları da bu gizli silahla doldurdular. Məhz həmin səbəbdən Azərbaycan rəhbərliyi bu ilin aprel ayında Laçın sərhəd keçid məntəqəsini yaratdı.**

Bu fakt təkcə ölkəmizin ərazi bütövlüyünün tam bərpası baxımından əhəmiyyətli deyildi, həm də o vaxtdan sonra Ermənistandan Azərbaycana gətirilən yüklər sərhədçilər və gömrükçülər tərəfindən mütləq yoxlanılır ki, bu da ərazilərimizə mina daşınmasının qarşısını almaq məqsədi daşıyırdı.



*(ardı 3-cü səhifədə)*



# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlaması

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Ermənistanın Azərbaycan ərazisində yaratdığı və hələ də dəstəklədiyi qanunsuz rejimin “danışıqlara başlamaq çağırışı” ilə əlaqədar bildirir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası reinteqrasiya məsələlərini müzakirə etmək üçün bir neçə dəfə ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrini dialoqa dəvət edib, lakin onlar hər dəfə bundan imtina ediblər.**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə Yevlaxda görüşə hazır olduğunu bildirir. Lakin antiterror tədbirlərinin dayandırılması üçün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır.

Əks təqdirdə, antiterror tədbirləri sona qədər davam etdiriləcək.

***

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası reinteqrasiya məsələlərini müzakirə etmək üçün bir daha Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrini Yevlaxa görüşə dəvət edir.

# MN: Ermənistan ordusunun birləşmələri silahı yerə qoyub təslim olsa, antiterror tədbirləri dayandırılacaq



**Azərbaycan Respublikası Müdafiə Nazirliyi bir daha Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələrini silahı yerə qoymağa və təslim olmağa çağırır. Bu halda antiterror tədbirləri dayandırılacaq.**

Müdafiə Nazirliyindən XQ-yə bildirilib ki, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingenti ilə operativ təmasdayıq və onların öz vəzifələrini icra etmələri üçün tərəfimizdən hər cür şərait yaradılır.

# “Əsrin müqaviləsi” Azərbaycanın dövlət müstəqilliyinin xidmətində



**İqtisadi müstəqillik olmadan heç bir dövlət gələcək inkişafa, heç bir xalq firavan həyata qovuşa bilməz. Sovet dönəmində Azərbaycana rəhbərlik etmiş ümummilli lider Heydər Əliyev respublika iqtisadiyyatına, onun yeraltı və yerüstü sərvətlərinə yaxından bələd idi. Azərbaycanın iqtisadi müstəqilliyinin onun yeraltı və yerüstü sərvətlərindən asılı olduğunu yaxşı bilən Ulu öndər qısa müddətdə bitkin bir inkişaf konsepsiyası işləyib hazırladı. Həmin konsepsiyanın əsasını isə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft-qaz ehtiyatlarının işlənməsi təşkil edirdi.**

Gənc dövlətin məhdud maliyyə imkanları, eləcə də dənizin dərinliklərində işləyə biləcək qabaqcıl texnika və texnologiyaların olmaması isə buna imkan vermirdi. Hər cür çətin situasiyalarda çevik qərarlar qəbul etməyi bacaran ümummilli lider Heydər Əliyev dünyanın transmilli neft şirkətlərini Azərbaycana dəvət etməyi qərara aldı. Düzdür, əvvəlki iqtidarın dövründə buna cəhdlər edilsə də, respublikamızda hökm sürən qeyri-siyasi sabitlik və əlverişsiz şərtlər xarici şirkətlərlə danışıqların nəticəsiz qalmasına səbəb olmuşdu. Dünya şöhrətli siyasətçi Heydər Əliyev isə bunu məharətlə bacardı.

*(ardı 8-ci səhifədə)*

# Müdafiə Nazirliyi: Qarabağda əməliyyatların xronikası



**Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılması ilə əlaqədar Müdafiə Nazirliyində brifinq keçirilib.**

Brifinqdə Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Anar Eyvazov media nümayəndələrinə vəziyyət barədə məlumat verib. Bildirilib ki, son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə mütəmadi atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olub.

Eyni zamanda, döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər tərəfimizdən aparılan müşahidələrlə təsbit edilib.

Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxmış və mülki şəxslər həlak olub. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak olmuş və yaralanıb. Bu kimi faktlar Ermənistanın Azərbaycana qarşı apardığı məqsədyönlü və planlı terror siyasətinin davamıdır.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi dəfələrlə bəyan edib ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli



Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir.

Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektlər yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır", - deyə A.Eyvazov diqqətə çatdırıb.

Müdafiə Nazirliyinin rəsmi vurğulayıb ki, mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır.



Qeyd edilib ki, keçirilən tədbirlər barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi məlumatlandırılıb.

***

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler arasında telefon danışığı olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumata görə, general-polkovnik Z.Həsənov Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri barədə həmkarını məlumatlandırıb. Cənab Y.Güler Türkiyənin hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu bildirib.

***

Mülki infrastrukturumuzu hədəfə alan Ermənistan silahlılarına məxsus top qurğusu məhv edilib

***

Ermənistan silahlılarına məxsus hərbi təyinatlı radiotexniki qovşaq zərərsizləşdirilib.

***

Xocavənd rayonu istiqamətində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus P-18 radiolokasiya stansiyası (RLS) bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

***

Yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırırıq. Bu barədə mobil SMS xidməti vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə məlumat göndərilib. Eyni zamanda, səsgücləndirici texniki vasitələrlə əhali xəbərdar edilir və məlumat vərəqələri paylanılır.

Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunacaq.

Qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaq.

Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb.

***

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün brifinq keçirilib. Brifinqdə çıxış edən Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri barədə xarici ölkələrin hərbi nümayəndələrinə ətraflı məlumat verib. Bildirilib ki, bölgədə başladılan lokal xarakterli antiterror tədbirlərinin məqsədi 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsidir.

Bölmələrimiz tərəfindən mülki əhali və mülki infrastruktur obyektlərinin hədəfə alınmadığı, yüksək dəqiqlikli silahların tətbiqi ilə yalnız legitim hərbi hədəflərin sıradan çıxarıldığı xüsusi vurğulanıb.

Sonda brifinqdə qeyd edilən faktlarla bağlı videomateriallar nümayiş olunub və nümayəndələri maraqlandıran suallar cavablandırılıb.

***

Xocalı rayonu və Qırmızı Bazar istiqamətində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri bölmələrimizin sərrast atəşi nəticəsində məhv edilib.

***

Ermənistan silahlılarına məxsus növbəti sığınacaq və döyüş texnikası məhv edilib.

***

Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır: "Ordumuzun arsenalında olan yüksək dəqiqlikli silahların tətbiqi ilə yalnız legitim hərbi hədəflər sıradan çıxarılır".

***

Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus növbəti uzunmüddətli atəş nöqtələri və hərbi təyinatlı obyektlər bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib.



# *Rəcəb Tayyib Ərdoğan*: Azərbaycanın ərazi bütövlüyünü qorumasını dəstəkləyirik

**"Bir millət, iki dövlət" şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünü qoruması üçün atdığı addımları dəstəkləyirik.**



Bu fikri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasındakı çıxışında deyib.

"Ermənistanın başda Zəngəzur dəhlizinin açılması olmaqla verdiyi sözləri yerinə yetirməsini gözləyirik. Artıq hamının qəbul etdiyi kimi, Qarabağ Azərbaycan torpağıdır. Bundan başqa bir statusun zorla qəbul etdirilməsi əsla qəbul olunmayacaq", - deyə Türkiyə Prezidenti bildirib.

***XQ***

# Siyasi partiyalar ordumuza uğur diləyir

**Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirlərinə ölkənin aparıcı siyasi partiyaları dəstək Bəyanatı qəbul ediblər.**

Yeni Azərbaycan, Vətəndaş Həmrəyliyi, "Ana Vətən", Bütöv Azərbaycan Xalq Cəbhəsi, Böyük Quruluş, Demokratik İslahatlar, Vəhdət, Azərbaycan Demokratik Maarifçilik, Milli Cəbhə, Haqq Ədalət, Azərbaycan Xalq, Azərbaycan Demokrat, Ədalət, Azərbaycan Ümid, Klassik Xalq Cəbhəsi, "Azərbaycan Milli İstiqlal", Müasir Müsavat, Milli Dirçəliş Hərəkatı, "Böyük Azərbaycan", Ağ, Azad Vətən, Gələcək Azərbaycan, Yeni Zaman partiyalarının imzaladığı sənəddə bildirilir:

– 44 günlük Vətən müharibəsində qəhrəman ordumuzun qazandığı şanlı Zəfərdən sonra Ermənistanın imzaladığı kapitulyasiya aktında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yönəlik təhdidlər qalmaqda davam etmişdir. Üçtərəfli Bəyanatın imzalanmasından keçən 3 il müddətində Azərbaycanın işğaldan azad edilən ərazilərdə həyata keçirdiyi bərpa və quruculuq işləri ölkəmizə həm böyük maliyyə hesabına, həm də ən dəhşətlisi - vətəndaşlarımızı itirmək bahasına başa gəlmişdir.

Son günlər Qarabağ bölgəsində hələ də qalmaqda davam edən erməni silahlı birləşmələrinin ordumuza və işğaldan azad edilən Şuşada, Zəngilanda, Laçında, Kəlbəcərdə yaşayan və fəaliyyət göstərən Azərbaycan vətəndaşlarına qarşı intensiv şəkildə həyata keçirdiyi təxribatlar günahsız vətəndaşlarımızın həyatına son qoymuşdur. Belə bir məqamda erməni silahlı birləşmələrinin Ordumuzla üzbəüz mövqelərinə əlavə qüvvələr və zirehli texnikalar cəlb etməsi isə onların məkrli niyyətinin daha böyük terror aktları törətmək olduğunu göstərməkdədir.

Bəyanatda daha sonra qeyd edilir ki, Azərbaycanın siyasi partiyaları üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi kimi zəruri məqsədlərlə Ordumuzun bölgədə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinə dəstəyini ifadə edir, qəhrəman Ordumuza Zəfər arzulayır:

– Azərbaycanın siyasi partiyaları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni silahlı birləşmələrinin təxribatlarının qarşısının alınması, işğaldan azad edilən torpaqlarımızda məskunlaşan minlərlə soydaşımızın təhlükəsizliyinin təmin olunması üçün həyata keçirdiyi siyasəti və verdiyi hərbi əmri dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı Vətən müharibəsində olduğu kimi, bu şərəfli işdə də həmrəyliyə, möhtərəm Prezidentimizi və Ali Baş Komandanımızı dəstəkləməyə çağırırıq.

***XQ***

# Azərbaycan Mətbuat Şurası medianı məsuliyyətli olmağa çağırır

**Mətbuat Şurasının Azərbaycanın lokal antiterror tədbirləri ilə bağlı ölkənin media qurumlarına və sosial şəbəkə istifadəçilərinə müraciətində mövzunun işıqlandırılmasına xüsusi həssaslıqla yanaşmaq çağırışı ifadə olunub.**



Sənəddə qeyd edilir ki, Qarabağda Azərbaycanın Konstitusiya quruluşunun bərpası məqsədilə başlanılmış lokal antiterror tədbirləri ölkə mediasının diqqət mərkəzindədir: "Jurnalistlərimiz bununla əlaqədar əsasən rəsmi məlumatların yayılmasına üstünlük verirlər. Lakin müxtəlif sosial şəbəkə profillərində anti-terror tədbirləri ilə bağlılığı iddia edilən görüntülər yayılmaqda, subyektiv fikirlər səslənməkdədir.

Belə hallar əvvəllər, xüsusən 44 günlük Vətən müharibəsi zamanı da müşahidə edilib. Eyni zamanda, qeyri-rəsmi məzmun daşıyan, bəzən məqsədli şəkildə dövriyyəyə buraxılmış görüntülərin ayrı-ayrı media orqanlarında xəbər kimi təqdimatı, süni ajiotaj yaratmaq meyilləri nəzərə çarpıb".

Müraciətin sonunda Azərbaycan Mətbuat Şurası ölkəmizin media subyektlərini, cəmiyyətə informasiya vermək öhdəliyini öz üzərinə götürmüş ayrı-ayrı şəxsləri, müstəqil jurnalistləri mövcud şəraitin həssaslığını nəzərə almağa çağırır: "İndiki halda jurnalistika prinsiplərinə ən böyük sadiqlik qeyd edilən video-görüntüləri, eləcə də rəsmi təsdiqini tapmamış bilgiləri yaymamaq və paylaşmamaqdır. Nəzərə alınmalıdır ki, belə halların cəmiyyətdə çaşqınlıq yaratmaq ehtimalı böyükdür".

***XQ***

# Türkiyə XİN-in Azərbaycanın antiterror tədbirləri ilə bağlı bəyanatı




**Türkiyənin Xarici İşlər Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə bağlı bəyanat yayıb.**

Bəyanatda Azərbaycanın Qarabağ bölgəsində qanunsuz erməni silahlı birləşmələri tərəfindən Azərbaycan Ordusunun hərbi qulluqçularına və təhlükəsizlik qüvvələrinin əməkdaşlarına qarşı uzun müddətdir davam edən silahlı hücumları və təxribatları ilə əlaqədar Azərbaycan Ordusunun sentyabrın 19-da yalnız hərbi hədəflərə qarşı antiterror tədbirləri başlatdığı bildirilib.

"İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən üç il ərzində hazırkı vəziyyətlə əlaqədar daim ifadə etdiyi legitim və haqlı narahatlıqların aradan qaldırılmaması nəticəsində Azərbaycan suveren ərazilərində zəruri tədbirlər görmək məcburiyyətində qalıb.

Azərbaycan ilə Ermənistan arasında bu günə qədər həssaslıqla həyata keçirilən əhatəli müzakirə prosesinin nəticəyönümlü olması istiqamətində davamlılığının təmin edilməsinin bölgədə sülhün, təhlükəsizliyin, rifahın və davamlı sabitliyin təsis olunması üçün yeganə yol olduğuna inanırıq", - deyə bəyanatda bildirilib.

***XQ***

# Haylar Azərbaycanın səbir kasasını minalarla daşırdılar

## Düşmən ərazilərimizdə bir milyondan artıq mina basdırıb

**(əvvəli 1-ci səhifədə)**

Biz beynəlxalq aləmə dəfələrlə bəyan etmişik ki, erməni terrorçularının, təxribatçılarının, xəyanətkar siyasətçilərinin çirkin planları nəticəsində 1991-ci ildən bəri 3393 azərbaycanlı mina partlamasının qurbanına çevrilmişdir. Onların 357-si uşaq, 38 nəfəri isə qadın idi. İkinci Qarabağ müharibəsindən sonra isə Azərbaycan ərazilərində 314 mina partlamış, 300-dən çox insan zərər çəkmişdir. Dövlət başçımız bu barədə dəfələrlə müxtəlif tribunalardan danışmışdır.

Erməni vəhşilərinin bu əməlləri son günlər daha böyük fəsadlar törədir. Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti Xocavənddə polis əməkdaşlarının qəzada həlak olması və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnən terror hadisəsi ilə bağlı birgə yaydığı məlumatda bildirilir ki, Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının olduğu "Kamaz" markalı nəqliyyat vasitəsi Əhmədbəyli – Füzuli – Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnən terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən saat 04:30 radələrində Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlayıb. Törədilmiş terror aktı nəticəsində DİN-in dörd əməkdaşı həlak olub.

Yəni Ermənistan tərəfinin törətdiyi bu vəhşiliklər Azərbaycanın səbir kasasını nəinki doldurdu, hətta, daşırdı. Nəticədə Müdafiə Nazirliyi xəbər yaydı ki, son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olub.

Bildirilir ki, ermənilərin döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər bizim apardığımız müşahidələrlə təsbit edilib.

Bundan başqa, Müdafiə Nazirliyimiz dəfələrlə bayan edib ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. Həmin təhlükələrin aradan qaldırılması isə Azərbaycanın Konstitusiya hüququdur.

Odur ki, üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Qeyd edək ki, əgər Ermənistan tərəfi sülhə doğru bircə addım atsaydı, onda bu əməliyyatların başlanmasına qətiyyən ehtiyac qalmayacaqdı. Yəni, bu hərbi eskalasiyanın yaranmasına görə bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür. Erməni xalqı məhz şərəfsiz və ləyaqətsiz erməni siyasətçilərinin girovuna çevrilib. Həmin siyasətçilər isə dünyanın müxtəlif qütblərindəki anti-türk və anti-Azərbaycan qüvvələrin əlində alət rolunu oynayırlar.

Azərbaycan Prezidenti İlham Əliyev bu il iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində dünyanın aparıcı beyin mərkəzlərinin təmsilçilərinin suallarını cavablandırarkən demişdi ki, minalar müharibə bitəndən sonra üç yüzdən artıq insanın həyatına son qoyub və ya onları ağır şəkildə yaralayıbdır. Bu qədər minanın partlaması azad olunmuş ərazilərdə baş vermişdir. Bu isə müharibə cinayətidir, minaları basdırmaq müharibə cinayətidir. Amma həmin minaların xəritəsini təqdim etməməsi Ermənistanın bizə qarşı olan terrorunun davamıdır.





Azərbaycan Prezidenti xatırladır ki, biz Ermənistan tərəfində həmin xəritələrin olduğunu bilirik. Çünki minaları basdıranların əlində xəritə olur, onlar özləri həmin minaya düşə bilərlər. Əvvəl Ermənistan baş naziri şəxsən rəsmi şəkildə Azərbaycan tərəfə deyirdi ki, onlarda belə xəritələr yoxdur. Nəhayət, boyunlarına aldılar ki, belə bir xəritələr var. "Bəs, nəyə görə bizə yalan deyirdilər? Çünki istəyirdilər ki, azərbaycanlılar ölməkdə davam etsinlər, şikəst olsunlar. Onlar daha sonra bizə mina xəritələrini təqdim etdilər. Amma həmin xəritələrin dəqiqliyi heç 25 faiz deyildi".

Xatırladaq ki, Azərbaycanın dövlət minatəmizləmə agentliyi – ANAMA, Müdafiə Nazirliyinin müvafiq bölmələri və Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri ilə birlikdə gecə-gündüz çalışırlar ki, əraziləri minadan təmizləsinlər. Ancaq hesablamaya görə, ərazilərimizdə bir milyondan artıq mina basdırılıb. Ermənilərin bizə verdiyi xəritə təqribən 400 min minanı əhatə edir. Yəni, onlar etiraf etdilər ki, 400 mindən artıq mina basdırıblar. Bu, olduqca böyük təhlükədir.

Ermənistan rəhbərliyinin bu həyasızlığı və qeyri-insani rəftarı Azərbaycanın Qarabağda antiterror əməliyyatına başlamasını qaçılmaz etdi. İnşallah, bu əməliyyatlar uğurla başa çatacaq və Cənubi Qafqaza sülh gətirilməsinə zəmin yaranacaq.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Qarabağda əməliyyatlar beynəlxalq hüquqa tam uyğundur

## Hətta bəzi ermənilər də bu tədbirlərdə Azərbaycanın haqlı olduğunu bəyan edirlər

**(əvvəli 1-ci səhifədə)**

Bu hadisə özünü qondarma "dqr"in "müdafiə ordusu" adlandıran, əslində isə Ermənistan silahlı qüvvələrinin birləşmələri olan ünsürlərə qarşı tədbirlərin görülməsinin zərurət olduğunu bir daha sübuta yetirdi. Belə də oldu. Azərbaycan Müdafiə Nazirliyi dünən məlumat yayaraq bildirib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq, Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir.

Qeyd olunub ki, üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhalinin, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır.

***

Hərbi əməliyyatlar başlanan andan etibarən separatçı-xunta rejiminin tör-töküntüsünün isterika içərisində haray-həşiri də başlayıb. İlk olaraq Ruben Vardanyan dilə gəlib. Məqsədli şəkildə Qarabağa göndərilən R.Vardanyan Xankəndinin "kütləvi atəşə tutulması" barədə məlumat verib. O, teleqram kanalında yazıb: "Bizim yaxınlığımızda kütləvi atəş başlayıb".

Ardınca isə Vardanyan həyasızcasına bildirib ki, Ermənistan rəhbərliyi "Artsax"ı tanımalı və onun "vətəndaşlarının" (?) müdafiəsinə qoşulmalıdır. "Aprelu Yerkir" partiyasının həmsədri Mesrop Arakelyan da oxşar fikir səsləndirib.

Ancaq daha böyük yalanı Ermənistanın müdafiə nazirliyi uydurub. Təcavüzkar ölkənin müdafiə qurumu Qarabağda ordusunun olmadığını açıqlayıb.

Separatçıların "başçıları" isə Xankəndidə yerləşən xəstəxanalardan birində gizləniblər. Bu barədə sosial şəbəkədəki erməni mənbələr məlumat yayıb. Onlar bununla Azərbaycan Ordusunun zərbələrindən gizlənməyə çalışırlar, çünki yaxşı bilirlər ki, Azərbaycan Ordusu mülki obyektləri hədəf almır.

Eyni zamanda, qeyd olunur ki, separatçıların "qərargahı"nın fəaliyyəti gizli saxlanılır, çünki taleyin ümidinə buraxdıqları yerli əhalinin bunu başa düşməsindən qorxurlar.

Ermənistan mediası isə ölkənin müdafiə naziri Suren Papikyanın mediadan gizləndiyini yazıb. Qeyd olunub ki, müdafiə nazirliyi telefon zənglərinə cavab vermir.

Sentyabrın 17-də İrəvan Ağsaqqallar Şurasına keçirilən seçkidə "Ana Ermənistan" blokunun seçki siyahısında bir nömrəli namizədi olan Andranik Tevanyan isə bildirib ki, Ermənistan tərəfinin yaralıları var. O qeyd edib ki, Azərbaycan Ordusu yalnız "müdafiə ordusunun" mövqelərinə zərbələr endirir.

Erməni bloger İşxan Verdyan isə Teleqram kanalında yazıb: "Qarabağda mülki şəxslərin ölüm halları davam edir. Azərbaycanlıların ölümü. Bu gün (sentyabrın 19-da) mülki mütəxəssislərin olduğu avtomobil tank əleyhinə minaya düşüb, iki nəfər həlak olub. Lakin əvvəlki hallardan fərqli olaraq, yəni müharibədə basdırılmış minaların partlamasından fərqli olaraq, bu dəfə partlayan minalar həmin əraziyə yeni yerləşdirilib. Azərbaycanın gündəlik istifadə etdiyi yola basdırılıb, yəni bu dəfə təxribat olub və bu düşündürücüdür. Azərbaycan hərbi cinayətkar hesab etdiyi hər kəs üçün əsl siçan tələsi qurdu. Hətta bütün erməni cəmiyyəti "Qarabağda hərbi cinayətkar yoxdur" deyib qışqırsa da, onlar oradadırlar və onlar cinayətkar olduqlarını çox yaxşı başa düşürlər".

İşxan Verdyan qeyd edib ki, sadə insanlardan fərqli olaraq, Qarabağdakı hərbi cinayətkarlar nələr törətdiklərini bilir və onları nəyin gözlədiyini anlayırlar: "Vaqif Xaçatryanın nümunəsində generallar, eləcə də digər quldurlar çıxışı yalnız Azərbaycan həbsxanasına açılan "qutuda" olduqlarını başa düşdülər. Onlar özlərini ovlanmış heyvan statusunda görürlər və belə heyvanlar təhlükəli olurlar. Bu quldurların qarşısında bir sadə tapşırıq var – özlərini xilas etmək. Onlar dayanmayacaqlar, itirəcəkləri heç nə yoxdur. Onlar terror törətməkdə davam edəcəklər. Bu quldurlar ancaq özlərini xilas etmək haqqında düşünürlər və onlar vəziyyətin öz axarı ilə getməsinə, sonlarının gəlməsinə imkan verməyəcəklər. Onlar özləri üçün məqbul nəticə əldə edənə qədər partladıb öldürəcəklər. Bunun onları xilas edəcəyi fakt deyil, amma cəhd etməkdən başqa yol da görmürlər".

Erməni bloger qeyd edib ki, əslində, işğal altında olan Qarabağda həmişə hər şeyi generallar həll edirdi və bu gün də onlar vəziyyəti öz əllərində saxlayırlar: "Onlar istənilən dinc cəhdi sabotaj edəcək və heç kimin sakitləşməsinə imkan verməyəcəklər. Və terrora davam edəcəklər".

İşxan Verdyan sonrakı paylaşımında isə bildirib ki, Azərbaycan iki dəfə danışmağa dəvət edib, amma qəbul olunmayıb: "Humanitar yardım təklif etdi, onu da qəbul etmədilər. Ən yaxşı şərtlərlə inteqrasiya təklif etdi, lakin yenə də qəbul etmədilər. Onlar bombaları qəbul edəcəklər. Daşnaklar ancaq bombanın dilini başa düşürlər. Bəli, əslində, ancaq bomba dilində də danışırlar".

Politoloq Beniamin Matevosyan isə Teleqram kanalında yazıb ki, müharibəyə çevrilə biləcək hazırkı eskalasiya əvvəldən axıra qədər baş nazir Nikol Paşinyanın vicdanındadır: "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nikol Paşinyanla telefon söhbətindən sonra "3+1" (Türkiyə, Ermənistan, Azərbaycan və Rusiya) danışıqlar formatının yaradılmasını təklif etdi. Bunun mahiyyəti 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın tamamilə ləğvi demək deyildi. "Mülki müqavilə" partiyasının İrəvan Ağsaqqallar Şurasına seçkilərdə uğursuzluğundan sonra Bakıya aydın oldu ki, Paşinyanın vaxtı daralır. Aydın oldu ki, İrəvan təkcə "3+1" danışıqlar formatına qarşı deyil, həm də vəziyyət gərginləşəndə Qarabağa kömək etməyəcək. Bu baxımdan müharibəyə çevrilə biləcək hazırkı eskalasiya tamamilə Paşinyanın vicdanındadır. O, hər bir erməninin ölümünə və xəsarət almasına, itkin düşməsinə görə cavabdehdir".

Göründüyü kimi, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Qarabağ iqtisadi rayonunda başlanan lokal xarakterli antiterror tədbirlərinə ermənilərin özlərinin də münasibəti birmənalı deyil. Daha doğrusu normal, rasional düşüncə qabiliyyəti olan ermənilər baş verənlərə görə özlərinin "başbilənlərini" ittiham edirlər. Bu isə ölkəmizin apardığı əməliyyatların haqlı, beynəlxalq humanitar hüquq normalarına uyğun olduğunun daha bir isbatıdır.

***Səxavət HƏMİD***
***XQ***



**Ekspert rəyi**



**Orxan AMAŞOV,**
**siyasi şərhçi**

– Hər bir dövlət özünün ərazi bütövlüyü çərçivəsində Konstitusiyasını, qanunlarını tətbiq etmək hüququna malikdir. Bu hüquq bütün suveren dövlətlər kimi Azərbaycana da şamil edilir. Əgər hansısa dövlətin ərazisində qeyri-leqal rejim, xunta, yaxud ona bənzər vahid varsa, onlar həmin dövlətin mərkəzi orqanı tərəfindən terrorçu qismində tanınırlar. Bu, bütün dünyada qəbul olunmuş praktikadır.

Vəziyyətdən asılı olaraq müxtəlif addımlar atıla bilər. Adətən, bu cür vahidlərə münasibətdə oturuşmuş mövqe var. Onlar özünü buraxmalı, silahı yerə qoymalıdırlar. Bundan sonra onlarla reinteqrasiya istiqamətində danışıqlar aparıla bilər. Buna ingilis dilində "disbandment, disarmament and reintegration" deyilir. Göründüyü kimi, birinci amil onların özlərini buraxmaları, yəni ləğvi, ikinci silahlarını təhvil verməleridir. Üçüncüsü isə törətdikləri əməllərin ağırlıq dərəcəsindən asılı olaraq onlara amnistiya tətbiq edilə bilər. Bu, ümumi qəbul olunmuş standartdır.

Lakin biz müşahidə etdik ki, Qarabağdakı separatçı xunta rejimi nəinki reinteqrasiya xətti yürütmək istəmir, əksinə özünün qeyri-leqal mövcudluğunu davam etdirməyə çalışır. Azərbaycan onlara uzun müddət şərait yaratdı. Martın 1-də Qarabağ ermənilərinin nümayəndələri ilə görüş oldu. Ancaq separatçı xunta dialoqun davamına imkan vermədi. Məsələnin mahiyyəti bundan ibarətdir.

Yuxarıda qeyd etdiyim üç prinsipi Azərbaycan yerdə legitim güc tətbiqi yolu ilə həyata keçirməlidir. Çünki artıq bütün digər imkanlar tükənib. Biz indi görürük ki, Qarabağ erməniləri ilə Bakı arasında dialoqun mümkünlüyü yenidən gündəmə gəlib. Lakin bu dialoqun baş tutmasından qabaq separatçılar ağ bayraq qaldırmalı, təslim olmalı, silahlarını təhvil verməlidirlər. Bundan sonra əsaslı dialoq ola bilər. Dialoqun formatı bəllidir. Söhbət Prezidentin nümayəndəsi, Milli Məclisin deputatı Ramin Məmmədovun rəhbərlik etdiyi kontakt qrupu ilə Qarabağda yaşayan ermənilərin nümayəndələri arasında dialoqdan gedir. Bir daha bildirim ki, bu dialoqun effektivliyi üçün separatçı xunta özünü buraxmalı, yaxud məhv edilməlidir. Ümumi qayda budur.

Azərbaycanın bütün addımları özünün suveren ərazisindədir. Yalnız hərbi hədəflərə zərbə endirilir. Yerli erməni əhalinin təhlükəsizliyinin təmin edilməsi naminə bütün mümkün addımlar atılır. Bu barədə onlara səsgücləndirici cihazlar vasitəsilə məlumat verilib. Müxtəlif digər variantlardan da istifadə olunur. Onlar öz evlərindən kənara çıxmalı deyil, çıxmaq istəyənlər üçün isə humanitar dəhliz təklif olunub. Azərbaycanın atdığı addımlar hərbi qaydalara uyğundur. Bu addımlar çox dəqiqliklə həyata keçirilir.

**Ekspert rəyi**



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

– Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə silah-sursat daşıması barədə bizdə məlumatlar var idi. Bütün bunlar Azərbaycanın müşahidəsi altında olub. Hazırda onlar legitim hərbi hədəflərə çevrilib. Onların yerləşdikləri mövqelərin Azərbaycan Ordusunun qarşıya qoyduğu tapşırıqları yerinə yetirməyə mane olacağını düşünmürəm.

Hər bir hərbi əməliyyatın planı, hədəfi var və zamana bağlıdır. Biz, təbii ki, planı bilmirik. Ancaq Azərbaycan Ordusunun antiterror tədbirlərinə hər zaman hazır olduğunu və bütün nöqtələrin hədəflənməsini, ümumiyyətlə əməliyyat şəraitinin Azərbaycan Ordusunun bölmələrinin nəzarəti altında olmasını nəzərə alaraq, düşünürəm ki, planda nəzərdə tutulmuş hədəflər zamana uyğun olaraq yerinə yetiriləcək. Zənnimcə, Vətən müharibəsində olduğu kimi, bütün tapşırıqlar dəqiq yerinə yetiriləcək və nəticə əldə ediləcək.

Bu, döyüşdür. Burada iki tərəf var. Onlardan biri, yəni ölkəmiz haqlı tərəfdir, üçtərəfli Bəyanatın dördüncü bəndini yerinə yetirir, öz ərazisindəki təhlükə mənbəyini məhv edir. Ali Baş Komandan İlham Əliyevin də dediyi kimi, Qarabağdakı sakinlər xunta rejiminin girovuna çevrilmişdilər. Mənə elə gəlir ki, aparılan hərbi əməliyyatlarla biz onları da girovluqdan azad edəcəyik.

# Qarabağ Azərbaycandır – antiterror tədbirləri və ilahi ədalətin təntənəsi

## Ərazilərimizdə erməni separatizminin kökü kəsilməlidir!

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, lokal antiterror tədbirlərinin həyata keçirilməsində başlıca məqsəd hərbi təyinatlı obyektləri zərərsizləşdirməkdir. Bununla yanaşı, qeyd etməliyik ki, Qarabağdakı separatçı rejim bölgənin erməni əhalisini girov saxlayır, onları özünün siyasi avantürizminə alət etmək yolu tutmaqla, ölkəmizin reinteqrasiya çağırışlarına məhəl qoymurdu. Ermənistan hakimiyyəti isə yeritdiyi siyasətlə belə yolverilməz təmayüllərə dəstək göstərir, dünya ermənipərəstlərinin köməyilə həmin rejimi legitim statusa malik dövlət quruluşu qismində təqdim edirdi. Təbii ki, belə "fəaliyyətin" qarşısının alınması üçün qətiyyətli addımlara ehdiyac var idi və dünəndən başlayaraq həmin addımların atılmasına start verilib.

***

Ermənistan Azərbaycanın haqlı tələblərinə məhəl qoymayaraq, eyni zamanda, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın müddəalarını da pozub. Rəsmi İrəvan ötən müddətdəki fəaliyyəti ilə, eyni zamanda, göstərdi ki, ölkənin baş naziri Nikol Paşinyanın 6 oktyabr 2022-ci il tarixdə Praqada və 14 may 2023-cü il tarixdə Brüsseldə (Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşlərdə - red.) Qarabağ da daxil olmaqla, Azərbaycanın 86,6 min kvadratkilometr ərazidə suveren haqlarını tanımasına dair fikirləri boş söz yığınından başqa bir şey deyildi.

Bəli, rəsmi İrəvan davamlı olaraq Qarabağdakı separatçı rejimi müstəqil siyasi hakimiyyət kimi təqdim edir, habelə, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini Azərbaycanla sülh müqaviləsi müstəvisinə gətirir, bölgə ilə bağlı avantürist planları reallaşdırmaq əzmini göstərirdi. Qarabağda humanitar böhran şousu, bölgənin erməni əhalisinə qarşı etnik təmizləmə və soyqırımı iddiaları da Ermənistanın xarici siyasətinin başlıca istiqamətlərini təşkil edirdi. Əlbəttə, bütün bunlara qarşı dözümün də bir həddi olmalı idi...

***

Qarabağda lokal antiterror tədbirlərini şərtləndirən amillərə diqqət yetirərkən, bölgənin separatçı rejiminin yol verdiyi bir sıra hərəkətləri vurğulamağa ehtiyac var. Məlum olduğu kimi, rejim və onun əlaltıları ötən ilin sonunda Azərbaycanın dövlət qurumlarının və mütəxəssislərinin Qızılbulaq qızıl və Dəmirli mis yataqlarında monitorinq aparmalarına maneçilik törətmiş, onları əraziyə buraxmamışdılar. Bununla yanaşı, Ağdam-Xankəndi yolunun Azərbaycanın humanitar yardımı üçün qapadılması da vurğulanmalıdır. Ən başlıca məqamlardan biri isə haqqında söz açdığımız reinteqrasiya təşəbbüslərinin qarşısının alınmasıdır.

Onu da deyək ki, reinteqrasiyaya xoş niyyət idi. Azərbaycan öz ərazisindəki erməni sakinlərlə təmaslar yaratmaq, onları bölgənin yenidən qurulması prosesinə cəlb etmək istəyirdi. Bunun qarşısı nəinki alınırdı, üstəlik separatçı rejimdə təmsil olunan ayrı-ayrı şəxslər hərəkət və davranışları ilə qondarma "Dağlıq Qarabağ Respublikası"nı ayrıca dövlət kimi təqdim edirdilər. Bir müddət əvvəl separatçı rejimdə keçirilmiş "prezident seçkiləri" də bunun əyani təsdiqinə çevrildi. Bütün bu "fəaliyyətlərin" hər biri ölkəmizin suverenliyinə hörmətsizlik miqyası daşıdı. Nalayiq davranışın cavabı olmalı idi və olur da.

***

Ermənistan Laçın-Xankəndi yolunun başlanğıcında, şərti sərhəddə, Həkəri çayı üzərindəki körpüdə qurduğumuz nəzarət-buraxılış məntəqəsinin qanuniliyini şübhə altına almaq yolu tutmaqla da reallıqla barışmamış, bunu Qarabağın blokadaya alınması kimi təqdim etmiş, mövcud xüsusda Azərbaycana qarşı total antipatiya yaratmağa cəhd göstərmişdi. Bu baxımdan həmin əraziyə yaxın yerdə "tır şousu"nun düzənlənməsini də ayrıca qeyd etmək lazımdır. Ümumiyyətlə, Ermənistan rəsmiləri ötən müddətdə Qarabağ müstəvisində yalnız şou göstərməklə, bu şounun ayrı-ayrı detallarını beynəlxalq tribunalara daşımaqla məşğul olmuşdular. Belə bir mənfur məşğuliyyətin qarşısı alınmalı idi və alınır da.

***

Azərbaycan Qarabağda antiterror tədbirlərini çox ehtiyatla aparır.



H.Hacıyevin də bildirdiyi kimi, yalnız hərbi hədəflər nişan alınır. Bununla yanaşı, ölkəmizin Müdafiə Nazirliyi Qarabağdakı erməni sakinlərə hərbi obyektlərdən uzaq durmalarını, terrorçulara dəstək verməmələri üçün mobil SMS xidməti ilə, səsgücləndirici texniki vasitələrlə, vərəqələr yaymaqla xəbərdarlıq məlumatları göndərib. Bunlar bir daha onu göstərir ki, ölkəmiz haqlı yoldadır. Lakin Ermənistan yenə də bu haqqı tanımaq istəmir. Ölkənin Xarici İşlər Nazirliyi dünən yaydığı bəyanatda bildirib ki, guya Bakının məqsədi Qarabağda etnik təmizləmə aparmaqdır. Halbuki, belə bir niyyət yoxdur və ola da bilməz. Azərbaycan özünün olanı, haqqı çatanı özünə qaytarır!

***

Qarabağdakı separatçı rejimin keçmiş "dövlət naziri", indi ictimai hərəkat yaradaraq bölgədə destruktiv fəaliyyətini davam etdirən Ruben Vardanyan çərənləyib ki, hazırkı durumda Ermənistan Qarabağın müstəqilliyini tanımalıdır. Əlbəttə, o, belə bir addımın atılması ilə ölkəni hansı böyük bəlaya salmaq istədiyinin fərqində deyil. Bəlkə də bunu bilir. Bilir, ancaq nəzərə almır ki, Ermənistan belə bir gediş etsə, bu onun da hədəfə gəlməsi anlamını verəcəkdir. Hər halda baş nazir Nikol Paşinyanın administrasiyası mövcud məqamı hesablayır.

Ancaq, ümumən, erməni iqtidarı avantürizmindən qalmır. Paşinyan da bildirib ki, Azərbaycan Qarabağda etnik təmizləmə aparır. Nikol, eyni zamanda, onu da vurğulayıb ki, Bakının məqsədi Ermənistanı hərbi əməliyyatlara cəlb etməkdir. "Ermənistanı hərbi eskalasiyaya sürükləmək cəhdləri bizim üçün qəbuledilməzdir. Mən bu vəziyyətin emosional tərəfini başa düşürəm. Lakin biz heç bir şəxsin və ya qüvvələrin Ermənistan dövlətçiliyini təhlükəyə atmasına imkan verməməliyik", - deyən Nikol ölkəsinin hərbçilərinin Qarabağda olduğunu boynundan atıb. Paşinyan duruma görə dolayısıyla Qarabağdakı rus sülhməramlılarını da günahlandıran fikirlər səsləndirib. Çox güman, onun belə açıqlamalarının sayı artacaq.

***

Qarabağda antiterror tədbirləri başlayandan dünyanın müxtəlif dairələri, o cümlədən ermənipərəstlər bəyanatı bəyanat ardınca sıralamaqdadırlar. Artıq Fransadan, Avropa Birliyindən və digər təşkilatlardan olan "sülh qaranquşları" ortaya çıxıb çağırışlar səsləndirməklə məşğuldurlar. Onların bəziləri bir qədər də "irəli gedərək" ölkəmizi öz qanunu ərazilərində gördüyü tədbirləri pisləmək yolu tuturlar. Bununla bağlı bir sıra məqamları diqqətə çatdırmaq mümkündür. Ancaq onların üzərində dayanmağa ehtiyac duymuruq. Çünki həmin "sülh qaranquşları" 44 günlük müharibə başlayanda da aktiv idilər, ölkəmizi işğalçılıqda günahlandırırdılar. Əlbəttə, belə gedişlərin heç bir xeyri olmadı, ola da bilməzdi.

Bəli, Azərbaycan özünün beynəxalq hüquqla tanınmış ərazilərində – Qarabağ bölgəsində lokal antiterror tədbirləri gerçəkləşdirir və bu tədbirlər heç bir ölkəyə qarşı yönəlməyib. Əsas hədəf separatçılığın kökünü kəsməkdir və buna nail olunması mütləqdir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, heç bir qüvvə ölkəmizi tutduğu yoldan döndərə bilməz.

***

Sonda bir xarakterik məqamı da vurğulamağa ehtiyac duyuruq. Məlumdur ki, Ermənistanın müasir Qarabağ avantürasının kökü 1988-ci ilə gedib çıxır. Həmin ildən başlayaraq, miatsum deyilən mənfur, qəsbkar niyyətə hesablanmış hərəkat başlamışdı. Bu "hərəkat" torpaqlarımızın işğalı reallığını doğurmuş, bir milyondan çox soydaşımız öz doğma yurd-yuvasından didərgin düşmüş, vaqonlarda, çadır şəhərciklərində yaşamaq məcburiyyətində qalmışdı. Bəs, bu gün nələr baş verir? Qarabağda ermənilərin yaşamasını əldə əsas tutaraq bölgəyə sahiblənmək xətti seçmiş Ermənistan dövləti, onun rəhbərliyi, faktiki olaraq, həmin erməni əhalidən imtina etmiş durumdadır. Əgər 44 günlük müharibə ümumilikdə dünya erməniliyi üçün faciə idisə, bu gün həmin faciənin ikinci hissəsi yaşanmaqdadır.

Bəli, N.Paşinyanın Ermənistanın Qarabağdakı hərbi əməliyyatlara girməyəcəyinə dair açıqlaması əsl faciədir. Bu, bütövlükdə erməni xalqının və cəmiyyətinin faciəsidir. Gərək, vəziyyəti bu həddə çatdırmayaydılar. Gərək, zamanında miatsum kimi ambisiyaya baş vurmaya, başqalarının torpağına göz dikməyəydilər. Bu gün yaşananlar avantüristlərə dərs olmalıdır. Dərs!

Bu gün Qarabağda baş verənlər ilahi ədalətin təntənəsidir. Bir daha bildirək ki, ədalət Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində təcəlli tapıb. Bu siyasət Qarabağı Azərbaycan edən siyasətdir. Bu siyasət cənnətməkan Qarabağı, sözün əsl mənasında, Vətən edən siyasətdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Bu seçkidə kim uduzdu, kim uddu...

## İrəvan meriyasına seçkilər, Ermənistan və Qarabağ amili

**Ermənistanda İrəvan meriyasına seçkilər baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş sazişi" partiyasının qələbəsi ilə nəticələndi. Seçkiqabağı mühit nə qədər gərgin olsa da, əslində, Nikolun komandasının vacib marafondan qalib ayrılacağını düşünmək mümkün idi. Yazımızda həm bu gərginlik, həm hazırkı iqtidarını uğurunu şərtləndirən bəzi məqamlar, həm də ümumən Ermənistandakı seçkinin doğuracağı nəticələr barədə söz açacağıq.**



**Birinci məqam.** Nikol, ümumən, gərginliyə öyrəşib. Hakimiyyətdə olduğu səkkiz ilin cəmi iki ilini bunsuz ötürüb. Artıq çətin durumda manipulyasiya etməyi öyrənib. O, gərginliyini xaricə ötürməyi bacarır. Bütün dünyaya göstərmək istəyir ki, Cənubi Qafqazda "demokratiya qalası" kimi qələmə verilib ətrafında ajiotajın yaradıldığı Ermənistandakı hakimiyyəti yıxmaq istəyən qüvvələr var və həmin qüvvələrə qarşı əzmkar mübarizə aparır. Yəni, seçkiqabağı gərginlik Paşinyanın xeyrinə idi. Əslində yaxşı anlayırdı ki, opponentləri zəifdir. Ancaq onları güclü göstərirdi. Nəyə görə, buna ikinci məqama keçid alaraq aydınlıq gətirək.

**İkinci məqam.** Burada da gərginliyi xaricə ötürmək amili əsasdır. Unutmayaq ki, N.Paşinyan üçün də Qarabağ kartı vacibdir. Hər halda, hakimiyyətə gələr-gəlməz "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı verən o idi. Deməli, erməni avantürizminin əsiridir. Ancaq məsələyə bir qədər fərqli yanaşır. Avantürizmi Rusiyanın egidasından qoparıb Qərb xəttilə davam etdirir. Belə olmasaydı, çoxdan sülhə razılaşmışdı, Azərbaycanın şərtlərini qəbul etmişdi.

Əlbəttə, Paşinyan əvvəl-axır ölkəmizin mövqeyi ilə barışacaq. Amma bu, yalnız onun qərarı yox, həm də arxasında dayananların məğlubiyyəti olacaq. Hazırkı durumda Paşinyan onu öz oyunlarına alət edənlərlə yanaşı, bilavasitə kənar xarici aktorlara yönəlik addımlar atır. Göstərmək istəyir ki, Qarabağ məsələsi Ermənistan üçün mühüm əhəmiyyət daşıyır və mövcud amil onu hakimiyyətdən yıxmaq potensialındadır. Bütün administrativ resurslara rəğmən cüzi fərqlə qələbə ssenarisinin qurulması məhz bu səbəbdəndir. Nikol, əslində, çox incə şəkildə çağırış etdi: Cənubi Qafqazdakı Ermənistan adlı "demokratiya qalası" Qarabağa görə yıxıla bilər. Axı, onu hakimiyyətdən uzaqlaşdırmaq istəyənlər revanşist və şovinist kəsimin nümayəndələridir. Beləliklə, Paşinyan xarici aləmin bu məsələdə vahid mövqedən çıxış edəcəyinə ümid bəsləyir. Çox arzulayır ki, beynəlxalq ictimaiyyət Azərbaycana təzyiqi gücləndirsin və onu kompromisə məcbur etsin. Bununla öz arxasında dayananların da qlobal planları gerçəkləşdirmiş olacaq.

**Üçüncü məqam.** N.Paşinyanın həm də Rusiya ilə mübarizə apardığı məlumdur. Artıq bildirdik ki, Nikol Qarabağ müstəvisindəki erməni avantürizmini, belə demək mümkünsə, Kremlin inhisarından qoparmaq fikrindədir. Əslində, o, seçkiqabağı dövrdə təbliğat aparmadı. Bu işi, böyük ölçüdə, Rusiya əleyhinə bəyanatlar, əks fikirlər səsləndirməklə həyata keçirdi. Nikol və komandası Qarabağ uğursuzluğuna görə Moskvanı qınamaqdan da çəkinmədi. Deməli, daxili ictimai rəyin, seçici auditoriyasının anti-Rusiya ovqatının körüklənməsi, Rusiya ilə mübarizədə əzmkar qələbə dramatizmi ona lazım idi və bu səhnəni qurmağı bacardı.

**Dördüncü məqam.** Qarabağ avantürizminin davamını Qərb müstəvisinə daşıyan N.Paşinyanın məqsədi həm də Qarabağ kartının köməyi ilə Rusiyanı Cənubi Qafqazdan tamamilə sıxışdırıb çıxarmaqdır. Bunun üçün isə onun əlavə resurslara ehtiyacı var. İrəvan meriyasına seçkilərdəki dramatizm görüntüsü həm də həmin resursların Ermənistana axını üçün münbit zəmin yaradacaq. Nikol göstərmək istəyir ki, demokratiyanı ancaq sözlə saxlamırlar, gərək arxasında maliyyə də dayansın. Deməli, Ermənistana bundan sonra maliyyə axınının artacağını gözləmək mümkündür. Əlbəttə ki, silah-sursat axını da öz yerində.

**Beşinci məqam.** Bir çox analitiklər bildirirlər ki, İrəvan meriyasına seçkilərdən sonra N.Paşinyanın Qarabağ müstəvisindəki danışıqlarda kompromisli mövqe ortaya qoyması mümkündür. Əlbəttə, ilk baxışdan bunu düşünmək olar. Ancaq əksini söyləyənlər də var. Nəzərə alaq ki, seçkiyə qədər Azərbaycan–Ermənistan sərhədində, eləcə də qoşunların Qarabağdakı təmas xəttində son dərəcə ciddi gərginlik yaranmışdı. Ermənistan sərhədə qoşun birləşmələri yığmışdı. Ölkənin silahlı qüvvələrinin təxribatlarının sayı çoxalmışdı. Bu, nə üçün idi?

Məqsəd Azərbaycanı təxribata çəkməyə yönəlmişdi. Onu da nəzərə alaq ki, erməni siyasilər, xüsusən də xaricdəki ermənipərəst dairələr rusmeyilli Azərbaycanın Qərbyönümlü Ermənistana hücumu ritorikasını işə salmışdılar. Yəni, bildirmək istəyirdilər ki, Azərbaycanın intervensiyası Ermənistan hakimiyyətini devirməyə hesablanıb. Əlbəttə, Bakı belə məqamları nəzərə aldı və təmkinli davrandı. Bu davranış imkan verdi ki, siyasi qarışıqlıq mühiti Qarabağla bağlı əsl reallıqları arxa plana keçirməsin.

Ancaq seçkidən sonrakı dövr həmin reallıqlara soyuq baxışın ortaya qoyulmasını labüdləşdirəcək. Ermənistan üçün bu baxış Azərbaycanın tələblərinin yerinə yetirilməsi, yaxud boyun qaçırılması dilemmasının aktuallaşması deməkdir. Birinci halda İrəvan Bakı ilə imzalanacaq sülh müqaviləsində Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi, o cümlədən, mövcud istiqamətdə beynəlxalq təminatlar məsələsinin yer alması tələbindən imtina etməlidir. Əgər imtina baş verməyəcəksə, yeni hərbi toqquşma qaçılmaz olacaq.

**Altıncı məqam.** Bir daha Rusiya amili üzərinə gələk. Ermənistan müxalifətinin zəif olduğunu bildirdik. Həmin müxalifətin dayağı Rusiyadakı bəzi dairələrə bağlı şəxslərdir. Onların seçkidən əvvəlki mərhələdə Paşinyan iqtidarını devirmək planları barədə düşündükləri də aşkardır. Hətta Nikolun komandasına yaxın "Baqramyan 26" teleqram kanalı Mosvkanın Ermənistanda çevriliş hazırladığını da bildirmişdi. Onu da bildirmişdi ki, bu çevriliş "Vaqner"in dəstəyi ilə həyata keçiriləcək, şirkətin hərbçiləri İrəvandadırlar. Hətta sayları da açıqlanmışdı – 12 min nəfər.

Əlbəttə, kanalın doğru fikir tirajladığını söyləmək çətindir. Tam mümkündür ki, Paşinyan tərəfdarları təhlükəni, belə demək mümkünsə, beşiyindəcə boğmaq üçün belə bir dezinformasiyanı dövriyyəyə buraxsınlar. Hər bir halda, İrəvan meriyasına seçkilər növbəti dəfə göstərdi ki, Rusiyanın Ermənistan iqtidarına təsir rıçaqları işlək deyil. Yəni, Rusiya yönümlü erməni mediası Paşinyanın "facebook" elektoratı qarşısında acizdir.

Bəli, İrəvan meriyasına seçkilərin nəticələri ilə bir daha sübut olundu ki, Ermənistanın ictimai rəyi Rusiyadan üz döndərmək xəttinə sadiqdir. Bu, 2018-ci ildə Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə sübut olunmuşdusa, 2021-ci ilin növbədənkənar parlament seçkiləri zamanı müharibə məğlubu Nikola etimad göstərilməsi ilə yenidən təsdiqini tapmışdı. İrəvan meriyasına seçkilər sayca üçüncü sübutdur.

**Yeddinci məqam.** Azərbaycan sülh tərəfdarıdır və bütün siyasi platformalarda sülhü təbliğ edir. Ancaq ölkəmiz öz prinsiplərindən də geri dayanan deyil. Prinsip Qarabağa tam sahiblənməkdir. Ümumən Ermənistan 10 noyabr 2020-ci il tarixdə imza atdığı üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməlidir. İrəvan gerçək mənada anlamalıdır ki, həmin bəyanat, eyni zamanda, kapitulyasiya aktıdır. Nikol və komandası, ümumən, erməni ictimai rəyi bunu unudub.

Vurğuladığımız kimi, Ermənistan rəhbərliyi reallıqları qəbul etmir. Bu, azmış kimi, yeni reallıqlar formalaşdırmağa çalışır. Qarabağ kartının bölgədə maraqlı qüvvələr tərəfindən diri saxlanılması amilini nəzərə alsaq, deyə bilərik ki, İrəvan seçkidən sonra mövcud istiqamətdəki "fəaliyyətini" gücləndirəcək. Deməli, Paşinyan administrasiyasının Azərbaycanla müharibənin qaçılmazlığını anlamaması mümkün deyil. Heç şübhəsiz, müharibədəki məğlubiyyəti də düşünəcək.

Əlbəttə, tarana getmək hər bir halda risklidir. Elə Qarabağın Azərbaycan kimi rəsmən təsdiqinə çevriləcək sülh müqaviləsini imzalamaq da həmçinin. Paşinyan iki yoldan birini seçəcəksə, müharibəyə üstünlük verməsi daha məntiqi görünür. Çünki xəstə erməni ictimai rəyini, 44 günlük mübaribə məşəqqətini unutmuş revanşist-şovinist kəsimi inandırmaq mümkün deyil ki, savaş növbəti rüsvayçılıqdır. Bunu gözləri ilə görmələri şərtdir. Nikol isə yenidən müharibə məğlubuna çevrilsə də, onun hakimiyyətinin legitimliyini şübhələndirmək çətin olacaq. Digər tərəfdən, nəzərə alaq ki, Paşinyanı devirmək istəyən qüvvələr seçkiyə hazırlıq dövründə, necə deyərlər, bütün güllələrini xərclədilər. Çox güman, erməni iqtidarı onların ən son potensialını müharibədə tükədəcək. Deməli, mümkün cəbhə məğlubiyyəti fonunda Nikolun komandasına qarşı çıxanlar da sıradan çıxacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İtkin düşmüş vətəndaşlarımızın taleyi ilə bağlı bütün məlumatlar ictimaiyyətə çatdırılacaq

**Müsahibimiz Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, işçi qrupunun rəhbəri İsmayıl Axundovdur.**

***– İsmayıl müəllim, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında I Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxs kimi neçə nəfər qeydiyyata alınıb? Onların sonrakı taleyinin müəyyənləşdirilməsinə mane olan səbəblər nədən ibarətdir?***



– Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində I Qarabağ müharibəsində 3890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri yaşlı insanlardır. İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfər, o cümlədən 29 uşaq, 98 qadın və 112 nəfər yaşlı insanın əsir-girov götürülməsi və ya işğal edilmiş ərazilərdə qalmasına dair təkzibedilməz məlumatlar var. Ermənistan bu şəxslərin saxlanılması faktını beynəlxalq təşkilatlardan gizlədərək onların sonrakı taleyi barədə indiyədək məlumat vermir.

I Qarabağ müharibəsi dövründə itkin düşmüş həm azərbaycanlılar, həm də ermənilər vaxtilə Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə yoxa çıxmışlar. Sözsüz ki, həmin şəxslər barəsində məlumatlar Ermənistan tərəfindədir. Ancaq Ermənistan tərəfi bütün sahələrdə olduğu kimi, humanitar məsələ ilə bağlı da konstruktiv mövqe nümayiş etdirmir. Hər iki tərəfə aid itkin düşmüş şəxslərin meyit qalıqlarının tapılması qarşı tərəfin məsələyə konstruktiv münasibətindən çox asılıdır.

İtkin düşmüş şəxslərin sonrakı taleyinin müəyyənləşdirilməsinə mane olan digər səbəb isə işğaldan azad edilmiş ərazilərin mina və partlamamış hərbi sursatlarla çirkləndirilməsidir. Qeyd edim ki, ekspedisiya qrupu tərəfindən ötən il olduğu kimi cari ilin əvvəlindən etibarən işğaldan azad edilmiş ərazilərimizdə I Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımızın ehtimal edilən dəfn yerlərində axtarış, qazıntı və ekshumasiya işləri davam etdirilmişdir. Qazıntı işlərinin aparıldığı ərazilər əvvəlcədən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən mina və partlamamış sursatlardan təmizlənmişdir.

**– Cari ilin avqust ayında I Qarabağ müharibəsində itkin düşmüş 15 vətəndaşımızın taleyinə aydınlıq gətirildiyi ictimaiyyətə açıqlandı və onların şəxsiyyəti müəyyənləşdirilərək ailələrinə təhvil verildi. Bu sahədə işlər davam etdirilirmi, eyniləşdirmə ilə bağlı yeni məlumatlar olacaqmı?**

– Qeyd etdiyiniz kimi, cari avqust ayının 18-də Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə brifinq keçirildi. Brifinq zamanı Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, I Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması, işğaldan azad edilmiş ərazilərdə aparılmış qazıntılar, kütləvi məzarlıqların aşkar edilməsi, bu sahədə görülmüş işlər və ilkin nəticələr barədə ictimaiyyətə ətraflı məlumat verildi, jurnalistlərin və ictimaiyyət nümayəndələrinin bir sıra sualları cavablandırıldı.

Yuxarıda qeyd etdiyim kimi, işğaldan azad edilmiş ərazilərdə axtarış və qazıntı işləri davam etdirilir. Qazıntı və ekshumasiya, həmçinin aşkar olunmuş meyit qalıqlarının eyniləşdirilməsi işlərinin aparılması məqsədilə iki il əvvəl dövlət komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumlarının əməkdaşlarından ibarət mütəxəssis heyəti yaradılmışdır. Bu heyətin fəaliyyəti nəticəsində qısa müddətdə ilkin nəticələr əldə edildi və açıqlandı. Hazırda bu sahədə intensiv şəkildə iş davam etdirilir. Qətiyyətlə bildirirəm ki, itkin düşmüş vətəndaşlarımızın taleyi ilə bağlı bütün məlumatlar ictimaiyyətə çatdırılacaqdır.

***– İşğaldan azad edilmiş ərazilərimizdə indiyə qədər neçə kütləvi məzarlıq və neçə nəfərə aid meyit qalığı aşkarlanmışdır. Bu məzarlıqlar hansı rayonlardadır. Yeni kütləvi məzarlıqların aşkarlanması ehtimalı varmı?***

– Öncə diqqətə çatdırmaq istəyirəm ki, Vətən müharibəsində əldə edilmiş böyük zəfərdən sonra ölkə rəhbərliyinin tapşırığı ilə işğaldan azad edilmiş ərazilərdə məzar yerlərinin axtarışı və qazıntısı işinə başlanmışdır. İlk kütləvi məzarlıq 2021-ci ilin fevral ayında Şuşa rayonundakı, Daşaltı kəndində aşkar edilmişdir. Müəyyən edilmiş iki kütləvi məzarlıqdan 25 şəxsə aid tam anatomik və bir neçə şəxsə aid olan əlavə sümük qalıqları aşkarlanaraq götürülmüşdür. Qeyd edim ki, Daşaltı əməliyyatında 44 nəfər itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınmışdır.

Digər kütləvi məzarlıqlar isə Xocavənd rayonunun Edilli kəndində, Xocalı rayonunun Fərrux kəndində, Ağdam-Xəlfəli yolunun kənarında, Şuşa şəhərindəki həbsxananın həyətində aşkarlanmışdır. İndiyə kimi işğaldan azad edilmiş ərazilərdə 9 kütləvi məzarlıq üzə çıxmışdır.

Sözsüz ki, bundan sonra da kütləvi məzarlıqların aşkarlanması istisna edilmir. Dövlət komissiyasında toplanmış çoxsaylı məlumat və materiallar bunu deməyə tam əsas verir. Təbii ki, aşkar edilmiş hər bir məzar yeri barədə məlumatlar ictimaiyyətə açıqlanır.

***– İtkin düşmüş şəxslərin ailələrindən bioloji nümunələrin götürülməsi işi bundan sonra da davam etdiriləcəkmi, ümumiyyətlə bu sahədə vəziyyət nə yerdədir?***

– Artıq ictimaiyyətə məlumat verildiyi kimi, Dövlət Komissiyası I Qarabağ müharibəsində itkin düşmüş şəxslərin ailə üzvlərindən bioloji nümunələrin toplanması işinə 2014-cü ildən etibarən başlamışdır. Layihə çərçivəsində 3492 itkinin ailə üzvlərindən 10805 bioloji nümunə toplanmış və 2022-ci ilin dekabr ayında başa çatdırılmışdır. Bu, o deməkdir ki, işğaldan azad edilmiş ərazilərdə müəyyənləşdirilərək götürülmüş meyit qalıqlarının eyniləşdirilməsi üçün mütəxəssislərin sərəncamında kifayət qədər DNT materialı var. Onu da qeyd edim ki, Vətən müharibəsindən əvvəl bir sıra ailələr bioloji nümunələr verməkdən imtina edirdilər.

Vətən müharibəsində əldə edilmiş böyük Zəfərdən, xüsusilə də itkin düşmüş şəxslərin eyniləşdirilməsi ilə bağlı cari ilin avqust ayında ictimaiyyətə məlumat verildikdən və şəhidlərimizin dəfn mərasimləri böyük ehtiramla təşkil edildikdən sonra ailələrin məsələyə münasibəti dəyişilib. Son vaxtlar itkinlərin ailələri bioloji nümunələr vermək üçün çoxsaylı müraciətlər edirlər. Hətta vaxtilə itkin düşmüş şəxslərin yaxınları barədə dövlət komissiyasına və digər qurumlara müraciət etməmiş şəxslər indi yaxınlarının axtarılması üçün bizə üz tuturlar. Vətəndaşların bütün müraciətləri dövlət komissiyasının işçi qrupu tərəfindən araşdırılır.

Sözsüz ki, itkin düşənlərin ailələrindən bioloji nümunələrin toplanması işi bundan sonra da davam etdiriləcəkdir. İctimaiyyətin diqqətinə çatdırmaq istəyirəm ki, bu iş Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-Tibb Baş İdarəsində yaradılmış genetik laboratoriyada aparılır. Vətəndaşlar bu və ya digər məsələlərlə bağlı 81-61 qaynar xətti ilə dövlət komissiyasının işçi qrupuna müraciət edə bilərlər.

***– Postmüharibə dövründə dövlət komissiyasının qarşısında hansı vəzifələr dayanır?***

– Hazırda dövlət komissiyasının qarşısında duran əsas vəzifə itkin düşmüş şəxslərə aid ehtimal edilən məzarlıqlarda qazıntı və ekskumasiya işlərinin davam etdirilməsi və Vətən müharibəsindən sonra tapılmış I Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən meyit qalıqlarının eyniləşdirilərək ailələrə təhvil verilməsindən ibarətdir. Əlbəttə ki, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi də zəruri əhəmiyyət kəsb edir. Bundan başqa, itkin düşənlərin ailələri ilə müvafiq işlərin davam etdirilməsi də vacib vəzifələrdən biridir. Bu işlər təxirə salınmadan davam etdirilir.

***– Aşkar edilmiş meyit qalıqlarının eyniləşdirilməsi sahəsində respublikamızın imkanları hansı səviyyədədir?***

– Xüsusilə vurğulamaq lazımdır ki, dövlət komissiyasının sədri cənab Əli Nağıyev tərəfindən silahlı münaqişələr zamanı itkin düşmüş şəxslərə aid meyit qalıqlarının eyniləşdirilməsi məqsədilə respublikamızda ayrıca laboratoriyanın yaradılması üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət edilmişdir. Müraciət cənab Prezident tərəfindən yüksək qiymətləndirilərək Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-Tibb Baş İdarəsinin nəzdində xüsusi laboratoriyanın yaradılmasına dair göstəriş verilmişdir. Qısa müddətdə müasir laboratoriya yaradılmışdır. Qeyd etdiyimiz kimi, 10805 bioloji nümunənin hər birinin DNT profili yeni yaradılmış həmin laboratoriyada çıxarılmışdır. Bundan başqa, cari ilin avqust ayında ictimaiyyətə açıqlanmış 15 nəfərdən 3-nün şəxsiyyəti yeni laboratoriyada müəyyənləşdirilmişdir. Bu sahədə iş davam etdirilir və yuxarıda qeyd etdiyim kimi eyniləşdirmə ilə bağlı yeni məlumatlar ictimaiyyətə açıqlanacaqdır.

***XQ***

# BMT-də xarici diplomatlar Qarabağdakı durum barədə məlumatlandırılıb

**Dünən xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasında iştirakı çərçivəsində ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifələrini icra edən Yuri Kim ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən XQ-yə bildirilib ki, söhbət zamanı regiondakı son vəziyyət müzakirə olunub.**




Nazir Ceyhun Bayramov 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın öhdəliklərinə zidd olaraq erməni silahlı qüvvələrini ölkəmizin ərazisindən çıxarmamasının, davam edən hərbi-siyasi təxribatların bölgədə sülh və təhlükəsizliyə əsas təhdid olduğunu diqqətə çatdırıb. ABŞ daxil olmaqla, beynəlxalq tərəfdaşlar tərəfindən bu qüvvələrin çıxarılmasına çağırış edilməməsinin erməni tərəfinin son dövrlərdə təxribatları daha da artırmasına səbəb olduğu vurğulanıb.

Nazir sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda qondarma rejimin nümayəndələrinin bir sıra genişmiqyaslı hərbi təxribatlara və terror hücumlarına əl atdığını, nəticədə mülki şəxslərin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının həlak olduğunu, habelə Azərbaycan Ordusunun hərbi qulluqçularının yaralandığını, erməni silahlı qüvvələrinin təxribatları davam etdirmək məqsədilə döyüş mövqelərini gücləndirdiyini və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirdiyini bildirib.

Belə genişmiqyaslı təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin qalıqlarının ərazilərimizdən çıxarılması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlandığı diqqətə çatdırılıb, görülən tədbirlərin hədəfinin müstəsna olaraq regionda bölgədə sülh və təhlükəsizliyə əsas təhdid mənbəyi olan qanunsuz hərbi birləşmələr və hərbi infrastrukturlar olduğu, iddiaların əksinə mülki əhalinin hədəf alınmadığı, erməni sakinlərin təhlükəsizliyi üçün tərəfimizdən çağırışlar edildiyi bildirilib.

Ceyhun Bayramov Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı artan təxribatlarının, öhdəliklərə zidd olaraq bölgədə mövcudluğunun davam etdirməsinin regional sülh və sabitlik üçün ciddi təhlükə olduğu, bu səbəbdən erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılmasının, hərbi təxribatların və törədilmiş terror aktlarının qətiyyətlə pislənməsinin və onların qarşısının alınmasının zəruri olduğunu vurğulayıb.

Regionda, guya, "blokada" və "humanitar böhran" kimi iddialara gəldikdə isə nazir Ceyhun Bayramov bu iddiaların heç bir əsasının olmadığını, bilərəkdən "humanitar" xarakterli məsələ donu geyindirildiyini, əslində isə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlik bir siyasi manipulyasiya olduğunu deyib.

Görüşdə tərəflər bölgə ilə bağlı digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***

Xarici işlər naziri Ceyhun Bayramov BMT-də Şimali Makedoniya Respublikasının xarici işlər naziri və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri Buyar Osmani ilə görüşündə də həmkarına ölkəmizin Qarabağ bölgəsində apardığı lokal antiterror tədbirləri barədə məlumat verib.




Ceyhun Bayramov ölkəmizin keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması, habelə münaqişədən sonra bərpa, yenidənqurma və reinteqrasiya məsələləri, mühüm prioritet olan sülh müqaviləsinin imzalanması, bölgədə sabitliyin bərqərar edilməsi, erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində ardıcıl səylərini xatırladıb. O, ölkəmizin cəlb olunmuş beynəlxalq tərəfdaşlar vasitəsilə həyata keçirdiyi bütün səylərinə baxmayaraq, Ermənistan tərəfinin və qondarma rejimin son təxribatlarının normallaşma prosesinə xələl gətirdiyini, gərginliyin azaldılmasına yönəlmiş bütün təkliflərin rədd edildiyini, bu ölkənin sülh prosesində maraqlı olmadığını diqqətə çatdırıb.

Azərbaycan hərbiçilərinin və mülki şəxslərinin həlak olması ilə nəticələnən terror aktına və hərbi təxribatlara cavab olaraq qanunsuz erməni silahlı qüvvələrinə qarşı həyata keçirilən antiterror tədbirlərinin əsas məqsədinin bölgədə sülh və sabitliyin bərqərar olması, qanunsuz qüvvələrin tərksilah edilməsi və qondarma rejimin buraxılması olduğu diqqətə çatdırılıb. Azərbaycanın yalnız hərbi hədəfləri məhv etdiyi, mülki şəxsləri hədəf almadığı bildirilib.

Ceyhun Bayramov Ermənistanın qəsdən vəziyyəti "humanitar" xarakterli məsələ kimi təqdim etdiyini, qondarma humanitar böhran yaratmaq məqsədi daşıyan bu addımın əslində ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş bir siyasi manipulyasiya olduğunu, sıravi sakinlərin isə bu siyasi avantüranın girovu kimi saxlanıldığını vurğulayıb.

Nazir Ceyhun Bayramov Ermənistan Baş nazirinin 2 sentyabr tarixində qondarma rejimi təbrik etməsi daxil, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddiaların sülh prosesinə xələl gətirdiyini vurğulayıb.

Görüşdə, həmçinin iki ölkə arasında ikitərəfli və çoxtərəfli gündəlik üzrə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Mina qurbanları və QHT təmsilçilərinin BMT-yə müraciəti

**Mina qurbanları, onların ailə üzvləri və Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri BMT-yə birgə müraciət ünvanlayıblar. XQ xəbər verir ki, sənəd BMT-nin Baş katibi Antonio Quterreşə, BMT Baş Assambleyasının prezidenti Denis Frensisə, BMT-nin İnsan Hüquqları Şurasının prezidenti Vatslav Balekə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türkə ünvanlanıb.**

Müraciətdə bildirilib ki, 1991-ci ildən başlayaraq Ermənistan Azərbaycan ərazisində 1 milyondan çox mina basdırıb. İşğaldan azad edilmiş ərazilərdə təmizləmə işləri nəticəsində bu günədək 95 minə yaxın mina və digər partlayıcı qurğular aşkar edilərək zərərsizləşdirilib. Ancaq Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş, ən çox mina qurbanı olan ölkələr siyahısındadır. Bu günədək Ermənistanın Azərbaycan xalqına qarşı mina müharibəsi nəticəsində 3393 nəfər azərbaycanlı mina hadisəsinin qurbanı olub. Onların 357 nəfəri uşaq, 38 nəfəri qadınlardır.

2020-ci il 10 noyabr Bəyanatından ötən 3 ilə yaxın müddətdə Ermənistan mina terrorunu bir gün də olsun dayandırmayıb. Əvvəlcə, Ermənistan hakimiyyəti "mina xəritələri"nin olmasını dandı, daha sonra Azərbaycanın tələbi qarşısında guya bəzi "mina xəritələri"ni təqdim etdi, ancaq məlum oldu ki, onlar yalançı, "saxta xəritələr"dir, reallığı əks etdirmir. Qarabağ və Şərqi Zəngəzur ərazilərində 314 azərbaycanlı mina partlayışının qurbanı olub. Onlardan 61 nəfəri həlak olub, 253 nəfəri xəsarət alıb. Mina qurbanlarının 149 nəfəri mülki şəxs, 165 nəfəri hərbi qulluqçulardır.

Müraciətdə eyni zamanda bildirilib ki, Ermənistanın göstərişi ilə Qarabağdakı hərbi xunta rejimi, onun diversiya qrupları Azərbaycan ərazilərinə hələ də minalar basdırır. Son sutka ərzində artıq 6 nəfər bu mina terrorunun qurbanı olub. "Niyə BMT Ermənistanın bu terror fəaliyyətini dayandırmaq üçün hərəkətə keçmir?" Azərbaycan ərazisində nə vaxta qədər oyuncaq hərbi xunta rejimi, "boz zonalar" mövcud olacaq? Bu rejim ləğv olmalı, tərk-silah edilməlidir" kimi fikirlərin yer aldığı sənəddə minaların basdırılmasının köçkünlərin qayıdışını əngəlləmək, onları qorxutmaq, Qarabağda və Şərqi Zəngəzurda başlanılan böyük quruculuq işlərinə mane olmaq məqsədi daşıdığı vurğulanıb. BMT-dən, digər beynəlxalq təşkilatlardan, dünya dövlətlərindən Ermənistanın bu hərəkətlərinə qiymət verilməsi tələb olunub.

# Azərbaycan XİN-in antiterror tədbirləri ilə bağlı bəyanat və açıqlamaları



## Qanunsuz erməni silahlıları ərazimizdən çıxmalıdır

Azərbaycanın Xarici İşlər Nazirliyi Qarabağ bölgəsində qeyri-qanuni yerləşmiş erməni silahlı qüvvələrinin təxribatlarına qarşı cavab tədbirləri barədə bəyanat yayıb.

Sənəddə bildirilir ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlara və terror hücumlarına əl atıblar: “Erməni kəşfiyyat-diversiya qruplarının Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırdığı minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak olub və yaralanıblar. Bununla yanaşı, Ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub. Nəticədə, Azərbaycan Ordusunun 2 hərbi qulluqçusu yaralanıb”.

Qeyd edilir ki, erməni silahlı qüvvələrinin bu təxribatları davam etdirmək məqsədilə döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edilib: “Qarabağ iqtisadi rayonunda erməni silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb”.

Daha sonra bildirilir ki, görülən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. Bu tədbirlərin hədəfi müstəsna olaraq qanunsuz hərbi birləşmələr və hərbi infrastrukturdur. Heç bir halda Azərbaycan tərəfi mülki əhalini hədəf almır. Bu xüsusda, erməni mülki əhalinin hərbi hədəflərdən uzaq durması zəruridir.

Bəyanatın sonunda deyilir: “Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. Bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır”.

## Terror aktları gərginliyi son həddə çatdırdı

Azərbaycan Xarici İşlər Nazirliyi Xocavənddə mina terroru nəticəsində mülki şəxslərin və Daxili İşlər Nazirliyinin əməkdaşlarının həlak olmaları barədə yaydığı açıqlamada bildirib ki, bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsi üçün Ermənistanın və onun yaratdığı qondarma rejimin hərbi təxribatları və törətdiyi terror aktları qətiyyətlə pislənməli və onların qarşısı alınmalıdır.

Qeyd edilib ki, sentyabrın 19-da bir nəqliyyat vasitəsi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcud olan erməni silahlı qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Xocavənd rayonu ərazisində basdırılmış tank əleyhinə minaya düşərək partlayıb. Bu təxribat nəticəsində 2 mülki şəxs həlak olub: “Eyni gündə, qeyd edilən terrorun baş verdiyi əraziyə yola düşən Daxili İşlər Nazirliyinin 4 əməkdaşı Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minaya düşərək həlak olublar. Bununla, 2020-ci ildə 44 günlük Vətən müharibəsindən indiyə qədər ümumilikdə mina qurbanlarının sayı 314 nəfərə çatıb, onlardan 61 nəfər həlak olub”.

Açıqlamada daha sonra qeyd edilib ki, Xocavənd rayonu ərazisində baş verən mina partlayışı üçtərəfli Bəyanatın 4-cü bəndini kobudcasına pozaraq Azərbaycan ərazisindən erməni silahlı qüvvələrini hələ də çıxarmayan, hərbi fəaliyyəti və minaların yerləşdirməsini davam etdirən Ermənistanın və onun yaratdığı qondarma rejimin əsas məqsədinin bölgədə hərbi gərginliyi artırmaq, terrorçuluq olduğunu göstərir: ”Bununla yanaşı, bu təxribatların məqsədi postmünaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına maneçilik yaratmaqdır”.

## Cozef Borelin bəyanatına cavab

**Azərbaycan Xarici İşlər Nazirliyinin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borelin Azərbaycan Silahlı Qüvvələri tərəfindən aparılan antiterror tədbirləri ilə bağlı bəyanatına dair şərhində bildirilib:**

– Avropa İttifaqının hazırkı hərbi eskalasiyanın səbəblərini, eləcə də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərində həm mülki əhaliyə, həm də hərbçilərə qarşı həyata keçirdiyi qanunsuz fəaliyyətə son qoymaq üçün Azərbaycan tərəfindən atılan addımları qəsdən təhrif edən bəyanatı bizi təəssüfləndirdi. Hazırda Azərbaycanın həyata keçirdiyi hərbi antiterror tədbirləri Ermənistanın qanunsuz silahlı birləşmələri tərəfindən bir sıra irimiqyaslı hərbi təxribatlara və bir gündə erməni qüvvələrinin təxribatçı hərəkətləri nəticəsində baş verən mina partlayışında 2 dinc sakinin və 4 hərbçinin həlak olmasına səbəb olan terror aktlarına qarşı yönəlib. Həmçinin minaatan hücumları nəticəsində iki hərbçimiz yaralanıb.

**Daha sonra bildirilib ki, Üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq ərazilərimizi boşaltmayan Ermənistan silahlı qüvvələri tərəfindən törədilə biləcək mümkün irimiqyaslı təxribatların qarşısını almaq üçün Azərbaycan tərəfindən antiterror tədbirləri görülüb:**

– Azərbaycanın suveren ərazilərində beynəlxalq hüquqa zidd olan hər hansı hərbi mövcudluq regional sülhə və təhlükəsizliyə ciddi təhdiddir və Azərbaycanın bugünkü addımları bu qanunsuz qüvvələrin çıxarılmasına və qondarma rejimin buraxılmasına yönəlib. Azərbaycan dinc erməni sakinlərə hücum etmir və bu barədə istənilən iddia əsassız və qəbuledilməzdir. Azərbaycan bütün sakinlərini, o cümlədən erməniəsilli sakinləri qorumağa və bütün Azərbaycan ərazisində öz Konstitusiya quruluşunu bərpa etməyə tam sadiqdir.

## Fransanın bəyanatı işğalın qalıqlarına dəstəkdir

Azərbaycan Xarici İşlər Nazirliyinin Fransa XİN-in bəyanatına dair şərhində bildirilib: “Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin növbəti təxribatlarına cavab olaraq tərəfimizdən görülən tədbirlər barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin bəyanatını qətiyyətlə rədd edir və pisləyirik”.

Qeyd edilib ki, Azərbaycan ərazilərinin işğalı faktına və bu faktın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi ilə tanınmasına baxmayaraq, Fransanın 1997-2020-ci illərdə ATƏT-in Minsk qrupunda həmsədrliyi dövründə münaqişənin beynəlxalq hüquq əsasında ədalətli həllini tapmasından daha çox işğal nəticələrinin və bölgədəki status-kvonun saxlanmasına töhfə verdiyi yaxşı yadımızdadır.

Bu baxımdan hazırkı postmünaqişə vəziyyətində belə əvvəlki siyasətindən imtina etməyən Fransanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq görülən tədbirlər barədə bugünkü bəyanatını işğal dövrünün qalıqlarına göstərilən dəstək kimi qiymətləndiririk.

Şərhdə, həmçinin vurğulanıb ki, 44 günlük Vətən müharibəsi zamanı da anti-Azərbaycan mövqeyi və bəyanatları ilə seçilən Fransanın, münaqişədən sonrakı vəziyyətdə bölgədə sülh quruculuğu səylərindən kənarda dayanaraq, prosesə yalnız mənfi təsir göstərən açıqlamalar verməsi, separatizmi dəstəkləyən mövqe göstərməsi ilə özünü regiondan daha da təcrid etməsi yaxşı məlumdur. Fransanın bugünkü mövqeyi bu ölkənin müstəmləkə bölgələrində bu gün üzləşdiyi mövcud vəziyyətdən dərs almadığını və bu məsələdə əvvəlki davranış və siyasətini davam etdirdiyini göstərir.

Sonda qeyd edilirki, Fransa rəsmiləri, Milli Assambleyası və Senatı Azərbaycana qarşı bəyanatlar verilməsi və sənədlərin qəbulunda Ermənistandan daha fəal çıxış edirlər. Fransanın islamofob və anti-Azərbaycan siyasəti, onun daxili işlərimizə qəbuledilməz müdaxiləsi göstərir ki, Fransa regiondan nə qədər uzaq olsa, region üçün bir o qədər yaxşı olar.

***XQ***

# Ermənistanın hərbi təhdidlərinə cavab



**Sentyabrın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının açılışında iştirak məqsədilə Nyu-York şəhərinə işgüzar səfəri çərçivəsində İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani ilə görüşüb.**

Nazir İtaliyadan olan həmkarını regiondakı son vəziyyət və Azərbaycan tərəfindən başladılan lokal antiterror tədbirləri barədə məlumatlandırıb, bu tədbirləri şərtləndirən amilləri diqqətə çatdırıb. Ermənistan və onun tərəfindən Azərbaycanın suveren ərazilərində yaradılmış qanunsuz rejim tərəfindən son günlər ərzində hərbi təxribatların xüsusilə intensivləşdiyi, hərbi-quruculuq işlərinin geniş miqyas aldığı və döyüş mövqelərinin davamlı şəkildə gücləndirilməsinin müşahidə edildiyi, bütün bunların Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələri tərəfindən növbəti dəfə irimiqyaslı hərbi təxribata hazırlıq gördüyünə dəlalət etdiyi vurğulanıb.

Silahlı qüvvələr tərəfindən həyata keçirilən lokal antiterror əməliyyatının müstəsna olaraq legitim hərbi hədəflərə qarşı aparıldığı, Ermənistanın qanunsuz hərbi infrastrukturunu zərərsizləşdirmək məqsədi güddüyü qeyd edilib. Nazir diqqətə çatdırıb ki, bölgədə vəziyyətin sabitləşməsi üçün Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən tam çıxarılması, qanunsuz erməni silahlı birləşmələrinin tərk-silah edilməsi, qanunsuz rejimin bütün ünsürlərinin buraxılması labüddür.

Görüşdə qarşılıqlı maraq doğuran digər beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Terror aktları ilə bağlı cinayət işi açılıb

**Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətlərinin birgə məlumatında bildirilib:**

– Sentyabrın 19-da Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının olduğu “KamAZ” markalı nəqliyyat vasitəsi həmin gün Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən saat 04:30 radələrində Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlamış, törədilmiş terror aktı nəticəsində DİN-in əməkdaşları olan 1994-cü il 5 fevral təvəllüdlü Camalzadə Asim Knyaz oğlu, 1987-ci il 8 iyul təvəllüdlü Şirinov Ramil Arif oğlu, 1991-ci il 12 iyul təvəllüdlü Mahmudov Seymur Elsevər oğlu və 1998-ci il 21 iyul təvəllüdlü Zamanov Xəzər Azər oğlu hadisə yerində həlak olublar.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 214.2.1, 214.2.2, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən təkrar odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.10, 120.2.11, 120.2.12 (mütəşəkkil dəstə tərəfindən, ümumi təhlükəli üsulla, təkrar, zərər çəkmiş şəxsin xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar, milli ədavət və düşmənçilik niyyəti ilə iki və ya daha çox şəxsi terrorçuluqla əlaqədar öldürmə), 228.3 (mütəşəkkil dəstə tərəfindən təkrar qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə) və digər maddələri ilə cinayət işi başlanıb.

# DİN-in şəxsi heyəti gücləndirilmiş iş rejimində

**DİN-in mətbuat xidmətinin rəisi, polkovnik-leytenant Elşad Hacıyev XQ-yə məlumatında bildirdi ki, sentyabrın 19-da Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) dörd əməkdaşı terrora məruz qalıb. Bu da ölkəmizdə mövcud ictimai-siyasi sabitlik, konstitusiya quruluşunun bərpa edilməsi məsələsini zəruri edib.**

Gün ərzində lokal xarakterli antiterror tədbirlərinin davam etdiyi şəraitdə ölkənin bütün ərazisində DİN-in şəxsi heyəti gücləndirilmiş iş rejimində fəaliyyət göstərir: “Respublikada mümkün təxribat, təhdid, hər hansı hüquqazidd tədbirlərin qarşısının alınması ilə bağlı DİN-in şəxsi heyətinə göstərişlər verilib. Azərbaycan cəmiyyətinə antiterror tədbirləri çərçivəsində dezinformasiya xarakterli məlumatlardan çəkinmələrini tövsiyə edirik. Bu hallara qarşı cəmiyyətin hər bir üzvü diqqətli və məsuliyyətli olmalıdır”.



Qeyd edildi ki, Azərbaycanda bəzi sosial şəbəkə seqmentləri məhdudlaşdırılıb. Bu da ondan irəli gəlir ki, təhdidlər, dezinformasiyalar var idi. Qarşı tərəf təkcə Azərbaycana silahlı formada müqavimət göstərmir, həm də informasiya cəbhəsində ölkəmizlə müharibə əhval-ruhiyyəsinə köklənmiş şəkildə sosial şəbəkə seqmentlərini idarə edir. Azərbaycan cəmiyyətinə çağırışımız ondan ibarətdir ki, diqqətli və məsuliyyətli olsun, yalnız rəsmi dövlət qurumlarının verdiyi məlumatlara inansın, bunun əsasında paylaşım etsinlər.

Nazirlik sözçüsü sonda bildirdi ki, Azərbaycan Respublikasının ərazisində olan qeyri-qanuni erməni silahlı qüvvələrinin birləşmələrinə qarşı tədbirlər davam edir: “Buna paralel olaraq ictimai təhlükəsizlik tədbirləri birgə aparılır ki, Azərbaycan cəmiyyətində hər hansı xoşagəlməz hallar baş verməsin. Bütün cəmiyyəti birgə olmağa, qayda və tələblərə əməl etməyə çağırırıq”.

***XQ***

# Baş Prokurorluğun müraciət və açıqlaması

**“Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən terror əleyhinə aparılan əməliyyatlar zamanı terror aktları barəsində ictimaiyyətə məlumatlar əməliyyat qərargahının rəhbərinin və ya əməliyyat qərargahının ictimaiyyətlə əlaqələr üzrə məsul nümayəndəsinin müəyyən etdiyi formada və həcmdə verilir. Bu barədə Baş Prokurorluqdan XQ-yə verilən məlumatda bildirilir ki, aşağıdakı məlumatların yayılmasına yol verilmir:**




– terror əleyhinə əməliyyatların aparılması taktikası və texniki üsulları haqqında; terror əleyhinə aparılan əməliyyatlar zonasında və ya bu zonanın hüdudlarından kənarda olan insanların həyatına və sağlamlığına təhlükə yaradan və terror əleyhinə əməliyyatların aparılmasına əngəllik törədən məlumatlar haqqında; terrorçuluğa bəraət qazandıran və ya onların təbliğinə xidmət edən məlumatlar haqqında; terror əleyhinə aparılan əməliyyatlarda iştirak edən, habelə bu əməliyyatların aparılmasına kömək edən şəxslər haqqında.

Terror aktları, eləcə də terror əleyhinə əməliyyatlarla bağlı yayılması qadağan edilən məlumatın internet informasiya ehtiyatında yerləşdirilməsi inzibati xəta hesab edilir (İnzibati Xətalar Məcəlləsinin 388-1-ci maddəsi) və fiziki şəxslər 500 manatdan 1000 manatadək, vəzifəli şəxslər min manatdan 1500 manatadək məbləğdə inzibati cərimə edilir, yaxud 1 ayadək müddətə inzibati həbs tətbiq edilir, hüquqi şəxslər 1500 manatdan 2000 manatadək məbləğdə cərimə edilir.

***

Baş Prokurorluğun açıqlamasında isə bildirilir ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində cinayətkar birlik halında qanunsuz yaradılmış Ermənistan silahlı qüvvələrinin birləşmələri Şuşa şəhərini iriçaplı silahlardan, o cümlədən minaatanlardan atəşə tutmuşdur. Törədilən terror hücumu nəticəsində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil-kommunal və təmir xidməti mühəndisi, 1967-ci il təvəllüdlü Fərhadov Vidadi Aydın oğlu aldığı qəlpə yarası xəsarətindən həlak olub.

Baş Prokurorluq Cinayət Məcəlləsinin 120.2.11, 120.2.12 (terrorçuluqla əlaqədar, milli ədavət və düşmənçilik niyyətilə adam öldürmə) 214.2.1, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq) 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qrupların tərkibində müəssisələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə basqın etmə ağır nəticələrə səbəb olma) və digər maddələrlə cinayət işi başladaraq ibtidai istintaqın aparılmasını istintaq idarəsinə həvalə edib.

Hazırkı şəraitdə prokurorluq əməkdaşları tərəfindən mümkün olan istintaq hərəkətləri davam etdirilir.

***XQ***

# MN: Xankəndinin “Qrad”la atəşə tutulması yalandır

**Ermənistanın bəzi sosial media hesablarında guya Xankəndi şəhərinin Silahlı Qüvvələrimiz tərəfindən “Qrad” yaylım atəşli reaktiv sistemindən atəşə tutulması barədə yayılan məlumatlar tamamilə yalandır.**

Bu barədə XQ-yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. “Yayılan bu məlumatı qəti surətdə təkzib edirik”, - deyə məlumatda bildirilir

## MN: Yayılan məlumatı qəti surətdə təkzib edirik

Ermənistanın bəzi sosial media hesablarında guya Silahlı Qüvvələrimiz tərəfindən “Polonez” və “LORA” əməliyyat-taktiki raket sistemlərindən Xankəndi şəhərinə atəş açılması barədə yayılan məlumatlar həqiqəti əks etdirmir və dezinformasiya məqsədi daşıyır.

Bu barədə XQ-yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

“Yayılan bu məlumatı qəti surətdə təkzib edirik, - deyə məlumatda bildirilir.



# Müdriklik fəlsəfəsi

**Bizi Heydər Əliyev dövründən ayıran illər ərzində onun dərin zəkası, fenomenal yaddaşı, polad iradəsi, təcrübi dəyərlərə söykənən sözləri ən güclü silah kimi xatirələrdə geniş yer tutur. Heydər Əliyev hər kəsin bacarmadığı halda, xalqla elə danışırdı ki, hər bir vətəndaş deyilənləri şəxsən ona müraciət kimi qəbul edirdi. İncə psixoloq və diplomat həmsöhbətinin əhval-ruhiyyəsinin ən xırda nümunəvi anlarını belə tutmağı bacarırdı.**

Böyük siyasi təcrübəyə malik olan Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyi ənənələrinin inkişafında, xalqın milli mənlik şüurunun oyanmasında əvəzsiz rol oynamışdır. O, müxtəlif illərdə dövlət vəzifələrində çalışaraq, ölkənin iqtisadi və mədəni inkişafı məsələlərini ardıcıl olaraq təhlil etmişdir. Hələ ötən əsrin 70-ci illərində onun səyləri ilə Azərbaycanın həm iqtisadi, həm də ictimai-siyasi həyatında baş verən dəyişikliklər öz əksini tapmışdır. Heydər Əliyevin sayəsində Azərbaycan xalqının tarixi keçmişinə maraq artmış, milli özünüdərk yüksəlmiş, mənəvi dirçəliş başlamışdır. Azərbaycanlıların şüurunda milli ruh, milli qürur oyanmağa başlamış, azadlıq, müstəqillik hissləri canlanmışdır. Heydər Əliyevin dövründə, Azərbaycan hələ SSRİ-nin tərkibində olarkən azərbaycanlılar rəhbər vəzifələr almağa, respublikanın iqtisadi həyatında fəal iştirak etməyə başladılar, onların özlərinə inamları gücləndi. 1980-ci illərin əvvəllərində Heydər Əliyev Moskvada yüksək vəzifə tutanda da milli dövlətçilik maraqlarını, lakin daha yüksək səviyyədə müdafiəsini davam etdirmişdir.

1990-cı illərin əvvəllərində Sovet İttifaqının dağılmasından sonra Azərbaycan süqut və vətəndaş müharibəsi astanasında idi. Ermənistanın Azərbaycan xalqına qarşı təcavüzü geniş vüsət almışdı. İqtisadiyyatda, siyasətdə və digər sahələrdə böhran genişlənməkdə idi. Belə çətin bir zamanda o vaxt hakimiyyətdə olan rəhbərliyin təcrübəsizliyi və peşəkarlığının olmaması ucbatından ölkə çox çətin vəziyyətə düşmüşdü. Bu dövrdə Azərbaycanın qarşısında iki seçim vardı: ya müstəqil dövlət olacaq, ya da daxili çəkişmələr, separatçı qüvvələrin təxribatçı fəaliyyəti nəticəsində parçalanıb sıradan çıxacaq. Azərbaycan "olum və ya ölüm" seçimi qarşısında qalmışdı ...

Bundan əvvəl Azərbaycan Konstitusiyasına ölkə prezidenti vəzifəsində işləmək üçün yaş həddi ilə bağlı maddə daxil edilmişdi ki, bu da Heydər Əliyevin yaşının bilavasitə ahıl olmasını nəzərdə tuturdu. Lakin baş verən hadisələrə görə heç kim bu maddənin dəyişdirilməsinə şübhə etmirdi.

Azərbaycan xalqı ölkəni gözlənilən fəlakətdən xilas etmək üçün o vaxt Kreml hakimiyyətinin qısqanclıqla qarşıladığı ümummilli liderini Naxçıvandan dəvət etdi. Azərbaycanın dahi oğlu ölkənin taleyinin həll olunduğu çətin məqamda doğma xalqına sədaqətini nümayiş etdirdi. Azərbaycanlılar öz liderinin ətrafında cəmləşərək ölkəni keçmiş rəhbərliyinin girdiyi dərin problemlər girdabından çıxara bildilər. Əslində, 1988-ci ildən 1993-cü ilə qədər beş il ərzində altı rəhbərin dəyişdiyi ölkəni dağılmaqdan Heydər Əliyev xilas etdi.

Surət Hüseynovun əli ilə dövlət çevrilişinə cəhd edildi. Ona dəstək verən satqın dairələr öz qanunsuz əməlləri ilə Azərbaycan dövlətçiliyini ciddi təhlükə həddinə çatdırdılar. Heydər Əliyev özünəməxsus siyasi məharəti ilə dövləti də bu sınaqdan çıxardı.

Ulu öndər Azərbaycan xalqının dəvətini şərəflə qəbul edərək müdrikliklə iyunun 9-da Bakıya gəldi, ayın 15-də isə Azərbaycan Respublikası Milli Məclisinin sədri seçildi, eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də isə Heydər Əliyev ölkə prezidenti seçildi və özlərinə tarix yazan qlobal siyasi oyunçuların ssenarilərinin həyata keçirilməsində kiçik dövlətlərin mübahisəsiz rolu ilə bağlı postulatları təkzib etdi.

Respublika prezidenti kimi hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanda daxili siyasi sabitliyə nail olmaqla yanaşı, həm də ölkənin iqtisadi müstəqilliyinin əsasını qoydu. 1993-cü il oktyabrın 10-da andiçmə mərasimində dediyi sözlərlə qarşıda onu gözləyən ağır fəaliyyətin yol xəritəsini bəyan etdi: **"Azərbaycan xalqı öz tarixinin ən ağır, faciəli dövrünü yaşayır. Bu çətin zamanda mənə həvalə edilmiş məsuliyyətin dərəcəsini dərindən dərk edir və sizi əmin etmək istəyirəm ki, bütün fəaliyyətimlə, bütün həyatımla xalqın yüksək etimadını və ümidlərini doğrultmağa çalışacağam".**

Ümummilli lider çox qısa müddətdə Azərbaycanı inkişaf və tərəqqi yoluna çıxardı. İstehsalın bərpası, maliyyə vəziyyətinin yaxşılaşdırılması, investisiyaların cəlb edilməsi üçün antiböhran proqramları hazırlandı. Üstəlik, iqtisadiyyatı bərpa etdi, xalqın hakimiyyət hüququnu təmin etdi, hüquqi vətəndaş cəmiyyəti qurdu.

Heydər Əliyevin həyat və fəaliyyəti haqqında çoxları məlumatlıdır. Dünyanın istənilən yerində onun haqqında danışanda dərhal Azərbaycanı xatırlayırlar, Azərbaycandan danışanda isə mütləq Heydər Əliyev yada düşür. O, sadəcə öz dövrünün qəhrəmanı deyildi, həm də zəmanənin adamı oldu. Onun tarixi mahiyyətli və böyük tərbiyəvi əhəmiyyətə malik ibrətlərlə dolu ömür yolunun tədqiqi keçmişimizə qiymət verməklə yanaşı, gələcəyə gedən yolumuzu da müəyyənləşdirərək siyasət və diplomatiya müstəvisində Heydər Əliyevin yaşadığı kimi yaşamaq, Vətəni Heydər Əliyev kimi sevmək istiqamətlərinə yönəldildi.

Xalq Heydər Əliyevdən böyük və müdrik siyasətçi kimi danışır. Ondakı parlaq natiqlik istedadı aydın və möhkəm, addım-addım, qarşıya qoyulan məqsədə əməl etmək bacarığı ilə birləşirdi. Ən yüksək intellektual potensiala malik dövlət rəhbəri, həm də mükəmməl insani keyfiyyəti bir insan xarakterlərini təsdiqlədi. Onun prinsiplərə sadiqliyi və fədakarlığı, xeyirxahlığı və nəcibliyi hər addımda hiss olunurdu. O, həmişə əmin idi ki, "həyatda hər kəs şöhrət və ya alçaqlığı, şəxsi rifahı və ya ictimai mənafeyi, tamah və ya vicdanı seçir". Bu barədə ümummilli liderimizin mənalı, aydın, ziyalı, dəmir məntiqli, qətiyyətli ictimai çıxışları hamımızın yadındadır.

Məşhur bir məsəl var ki, insan həyatında üç şey etməlidir: ev tikmək, ağac əkmək, oğul böyütmək. Yalnız bundan sonra onun həyatını başa çatmış hesab etmək olar. Heydər Əliyev bu mənada şərəfli ömür yaşadı: müstəqil Azərbaycanı qurdu, onu cənnət timsallı bağ-bağata– gülüstana çevirdi, ölkənin tərəqqi və səadət yolunu davam etdirən layiqli davamçı yetişdirdi.

O həmişə Vətənə, xalqına hədsiz məhəbbət, onu xoşbəxt, əmin-amanlıq və mehriban yaşamaq, insanpərvərlik və ədalətli görmək arzusunu rəhbər tuturdu. Bu gün elə bir sahə yoxdur ki, Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar ona toxunmasın. O, çox böyük siyasi irs qoyub, öz siyasi kursunun layiqli davamçılarını yetişdirib. Bu gün Azərbaycan dövləti, xalqımız ulu öndərin göstərdiyi yolla Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır.

Ulu öndərin ruhunun ən dəyərli rəmzi vasitəsi kimi üçrəngli bayrağımız Ali Baş Komandanın və Azərbaycan xalqının yekdilliyi ilə 30 illik müddət ərzində suveren və ərazi bütövlüyümüzün tam təminatını, BMT Təhlükəsizlik Şurasının 30 illik 4 Qətnaməsini yerinə yetirərək, "Qarabağ Azərbaycandır" sözlərini təsdiqləyərək, işğaldan azad edilən bütün Qarabağımızda ucaldıldı.

## Azərbaycan – demokratik, dünyəvi və hüquqi dövlət

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli ideologiyada öz əksini tapmış dövlətçilik konsepsiyası işlənib hazırlandı. 1990-cı illərin əvvəllərində Azərbaycanın müstəqilliyini itirmək təhlükəsi aradan qaldırılaraq öz qüvvələrini gənc dövlətin müstəqilliyini əldən verməməyə yönəldildi. Bununla da Azərbaycanın inkişafında və müstəqil demokratik hüquqi dövlət kimi formalaşmasında yeni mərhələ başlandı.

Xüsusilə, ümummilli lider Ermənistan–Azərbaycan münaqişəsi kimi mühüm problemin həlli istiqamətində mühüm addımlar atdı. 1994-cü ilin sentyabrında isə Xəzər dənizinin zəngin neft-qaz strukturlarının istismarı üçün neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan tarixi sənəd imzalandı. Bu, Azərbaycanın iqtisadiyyat sahəsində daha da inkişafına töhfə verməklə yanaşı, onun müstəqilliyinin təmin edilməsi istiqamətində uğurlu tədbirlərin həyata keçirilməsinə də imkan yaratdı.

Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan xalqının qarşısında duran həyati vəzifələrdən biri də ölkənin gələcək inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi idi. Ölkənin gələcək inkişafının konseptual əsaslarını və fundamental prinsiplərini əks etdirən yeni qanun lazım idi. Lakin həmin dövrdə ölkədə siyasi sabitliyin və xalqın mənafeyini əks etdirən siyasi iradənin olmaması qarşıya qoyulan vəzifələrin həyata keçirilməsini mümkünsüz edirdi.

Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra lazımi ictimai-siyasi mühit formalaşdı ki, bu da dövlətin və cəmiyyətin həyatının bütün sahələrində geniş miqyaslı islahatlara start verməyə imkan verdi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil suveren dövlətin Əsas Qanunu – Azərbaycan Konstitusiyası qəbul edilərək müstəqil demokratik hüquqi cəmiyyətinin təminatına çevrildi.

Ümummilli liderin rəhbərliyi və gərgin əməyi sayəsində hazırlanmış Əsas Qanun çoxəsrlik Azərbaycan dövlətçilik ənənələrinə, milli və ümumbəşəri dəyərlərə əsaslanır. Yeni Konstitusiya demokratik və hüquqi dövlət quruculuğuna, Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının inkişafına güclü təkan verdi.

Konstitusiyanın qəbulu yeni ictimai quruluşun hüquqi tanınmasını təsdiq edən fakt olmaqla yanaşı, həm də Azərbaycan Respublikasının inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının göstəricisi idi.

Konstitusiyanın preambulasında Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrinin davamı kimi, keçmiş, indiki və gələcək nəsillər qarşısında məsuliyyətindən irəli gələn ali niyyətlər sadalanır. Əsas Qanun aşağıdakı prinsipləri ifadə edir:

– Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması;

– Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin qurulmasına nail olmaq, xalqların iradəsinin ifadəsi kimi qanunun aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğu;

– ədalətli iqtisadi və sosial nizama uyğun olaraq hamı üçün layiqli həyat səviyyəsinin təmin edilməsi, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh və təhlükəsizlik şəraitində yaşamaq və bu məqsədlər üçün qarşılıqlı fəaliyyətin həyata keçirilməsi.

Azərbaycan Konstitusiyası müasir sivil cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyən edən mütərəqqi ideya və dəyərləri geniş şəkildə əks etdirir. Bunlardan insan şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət hakimiyyəti orqanlarının demokratik şəkildə formalaşdırılması, insan hüquqlarının müdafiəsinin səmərəli mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmin təmin edilməsi, sosial ədalətə nail olunması, ictimai ədalətin təmin edilməsi, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin gücləndirilməsi, insan hüquqlarının müdafiəsi üçün səmərəli mexanizmlərin mövcudluğu, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa və digər prinsip və dəyərlərə uyğunlaşdırılması və s. xüsusi əhəmiyyət kəsb edir.

Konstitusiya Azərbaycan xalqını Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi elan edir, onun öz müqəddəratını azad və müstəqil şəkildə təyin etməsini və dövlət idarəçiliyi formasının yaradılmasını təmin edir. Konstitusiya Azərbaycan xalqının öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi–referendum yolu ilə və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında seçilmiş nümayəndələri vasitəsilə azad, gizli və şəxsi səsvermə yolu ilə həyata keçirməsini təmin edir.

Konstitusiya qanunun aliliyinin fundamental prinsiplərindən biri kimi dövlət hakimiyyətinin hakimiyyət bölgüsü prinsipi əsasında təşkilini təsbit etdi. Konstitusiyaya uyğun olaraq, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri öz səlahiyyətləri daxilində qarşılıqlı fəaliyyət göstərir və müstəqildirlər.

Ölkə Konstitusiyasında konstitusiya quruluşunun xüsusiyyətlərindən biri kimi iqtisadi fəaliyyət azadlığı, mülkiyyət növlərinin müxtəlifliyi və onların bərabər qorunmasının təminatı, əhalinin layiqli həyat şəraitinin təmin edilməsinə yönəlmiş rifah dövləti konsepsiyası geniş şəkildə öz əksini tapmışdır. Konstitusiya xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsini, onların sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalmaq vəzifəsini dövlətə həvalə edir. Əsas Qanunda qeyd olunduğu kimi, Azərbaycanda müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadiyyatın inkişafı xalqın rifahının yüksəldilməsinə xidmət edir, Azərbaycan dövləti bazar münasibətləri zəminində iqtisadiyyatın inkişafına şərait yaradır. Sosialyönümlü iqtisadiyyat, mədəniyyətin, təhsilin, səhiyyənin, elm və incəsənətin tərəqqisinə kömək edir, xalqımızın tarixi, maddi və mənəvi irsini qoruyur.

Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin, ölkə vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsinin Azərbaycan dövlətinin ali məqsədi kimi müəyyənləşib. Əsas Qanunda dövlətin qarşısında duran vəzifələr qoyulub. Həmçinin hər kəsin hüquq və azadlıqlarının müdafiəsinin təminatı müstəsna əhəmiyyət kəsb edir.

Ümummilli lider Heydər Əliyevin bilavasitə nəzarəti və gərgin əməyi sayəsində hazırlanmış və ümumxalq səsverməsi ilə qəbul olunmuş Konstitusiyanın hüquq fəlsəfəsinin, onun bütün norma və müddəalarının əsasını məhz demokratik, haqlı və qanuni prinsiplər – sosial dövlət, insan hüquq və azadlıqlarının təminatı təşkil edir. Ötən dövrdə Azərbaycanın hərtərəfli tərəqqisinin, ölkə həyatının müxtəlif sahələrində aparılan genişmiqyaslı islahatların mənbəyi də məhz 1995-ci il Konstitusiyası olmuşdur. Orada göstərilən ümumi prinsiplər və istiqamətlər ölkədə hüquqi, iqtisadi və digər islahatların həyata keçirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli müdafiəsi mexanizmlərinin yaradılması üçün möhkəm zəmin yaratmışdır.

**(ardı var)**

***Arif QULİYEV,***
***hüquq elmləri doktoru,***
***Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru, Ukrayna Ali Təhsil akademiyasının akademiki***

# "Heydər Əliyev Goranboyda" mövzusunda konfrans

**"2023 – Heydər Əliyev ili" ilə bağlı Goranboyda bir-birindən maraqlı, məzmunlu silsilə tədbirlərin keçirilməsi artıq ənənə şəklini alıb. Növbəti belə tədbir Heydər Əliyev Mərkəzində keçirilib.**

"13 sentyabr 2002-ci il – Heydər Əliyev Goranboyda" mövzusuna həsr olunan tədbir iştirakçıları əvvəlcə ümummilli liderin məkəzin qarşısındakı abidəsi önünə təzə tər çiçəklər düzüblər.

Mərkəzin Akt zalında rayon ictimaiyyəti nümayəndələrinin, şəhid ailələrinin, qazilərin, hüquq-mühafizə orqanları rəhbərlərinin, ağsaqqalların və ziyalıların iştirak etdiyi tədbirdə maraqlı çıxışlar oldu, Heydər Əliyevin əziz xatirəsi ilə bağlı xoş təəssüratlar söylənildi. Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev çıxış edərək Ulu öndərin parlaq, mənalı ömrünün bir məktəb olduğunu dedi. Rayon rəhbəri qeyd etdi ki, həyatımızın bütün sahələrində Heydər Əliyev, sözün əsl mənasında, bir nümunə, parlaq sima, bütün dünyanı özünə cəlb edən böyük şəxsiyyət kimi dayanır, dünyanın hər yerində dahi insanın irsi öyrənilir.

Ümummilli liderin 21 il qabaq sentyabr günlərində Goranboya tarixi səfəri isə indi də hər bir rayon sakininin xatirindədir və o səfərin yaratdığı xoş təəssürat heç vaxt unudulmayacaq. Vaxtilə erməni qəsbkarların qarğa-quzgun kimi toplaşdıqları və sonradan azad etdiyimiz əraziyə – Ağcakəndə gələrək sakinlərlə səmimi görüşməsi, dəyərli söhbətləri, məsləhətləri və Azərbaycanın işğal altında olan digər ərazilərinin də azad olunacağına böyük ümid bəslədiyini dilə gətirməsi hamının yaxşı yadındadır.



AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev çıxış edərək dedi ki, həmin günlər mənim də yaxşı yadımdadır. Ulu öndər Goranboya bir gün əvvəl Gəncəyə səfərindən sonra gəlmişdi. Gəncədə Olimpiya İdman Kompleksinin, bir sıra digər obyektlərin açılışında iştirak etmişdi, şəhər fəalları ilə görüşmüş, şəhərdə abadlıq-quruculuq işlərinin ləng aparılmasını ciddi tənqid etmişdi.

Akademik demişdir ki, təkcə bu il bölmə tərəfindən Ulu öndərə həsr olunmuş 8 tədbir keçiriblər, "Heydər Əliyev və Gəncə" kitabını nəfis şəkildə çap etdiriblər. Fuad Əliyev belə bir kitabın Goranboy rayonu üzrə də çapına hazırlıq getdiyini bildirmişdir. Çünki Ulu öndər hakimiyyətinin birinci dövründə də bir neçə dəfə Goranboyda olub və bu rayonun inkişafında xidmətləri əvəzsizdir.

Tədbirdə digər çıxış edənlər – rayon ziyalıları, xüsusilə dahi şəxsiyyətlə görüşmüş goranboylular, ümummilli liderimizin 1978, 1982 və 2002-ci illərdə rayona etdiyi tarixi və unudulmaz səfərlərdən xoş xatirələrini söylədilər.

# “Əsrin müqaviləsi” Azərbaycanın dövlət müstəqilliyinin xidmətində

## Bu beynəlxalq layihənin uğurla gerçəkləşməsi yeni neft strategiyasının təntənəsidir

(əvvəli 1-ci səhifədə)

Beləliklə, 1994-cü il sentyabrın 20-də Bakıda, Gülüstan sarayında “Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında” saziş imzalandı. Bütün dünyaya səs salan belə bir sazişin imzalanması ölkəmiz, xalqımız üçün böyük tarixi hadisə, yüksək nailiyyət idi. Çünki gənc Azərbaycan dövləti ilk dəfə idi ki, müstəqil siyasət yürütmək iqtidarında olmasını, özünün yeraltı sərvətlərinə sahib çıxmasını bütün dünyaya bəyan edə bilirdi.

Təsadüfi deyil ki, təntənəli imzalanma mərasimində çıxış edən ümummilli lider Heydər Əliyev demişdir: “Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk. Müqavilənin imzalanması Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni bir mərhələ açır”. Bu, Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını qoyan tarixi sazişə verilən yüksək dəyər idi.

Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan “Əsrin müqaviləsi” Xəzər regionunu beynəlxalq əməkdaşlıq məkanına çevirdi. Gənc Azərbaycan Respublikası az müddətdə qlobal enerji layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi tanındı, ölkəmizin beynəlxalq nüfuzu xeyli artdı. “Əsrin müqaviləsi”nin uğurla icra olunması Azərbaycanı iqtisadi tənəzzüldən sürətli inkişafı yoluna çıxardı. İlk növbədə, Azərbaycana güclü xarici investisiya axını başladı. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən müddətdə ölkəmizin neft-qaz sektoruna təqribən 89 milyard ABŞ dolları məbləğində xarici sərmayə qoyulub.

Yeri gəlmişkən, “Əsrin müqaviləsi” – nin uğurla reallaşdırılması üçün səhmdarlar tərəfindən yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Rəhbər Komitəsi “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun bir neçə mərhələdə işlənməsi barədə qərar qəbul etdi. “Əsrin müqaviləsi”nin ilkin neft layihəsi çərçivəsində dənizdə mövcud “Çıraq” platformasında və “Dədə Qorqud” üzən yarımdalma qurğusunda əsaslı yenidənqurma işləri aparıldı. Bundan əlavə, hazırda Ulu öndərin adını daşıyan Bakı Dərin Dəniz Özülləri Zavodu tamamilə yenidən quruldu, xam nefti qəbul edib ixrac sisteminə vurulması üçün Səngəçal terminalı inşa olundu, dənizdən bura sualtı boru kəməri çəkildi.

Nəhayət, 1997-ci il noyabrın 7-də “Çıraq” platformasından ilkin neftin hasilatına başlanıldı. Beş gün sonra, noyabrın 12-də ölkəmizin rəsmi dövlət və hökumət üzvlərinin, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin nümayəndələrinin, eləcə də xarici ölkələrdən gəlmiş qonaqların iştirakı ilə “Çıraq” platformasında təntənəli mərasim keçirildi. Tədbirdə bu möhtəşəm tarixin yaradıcısı Heydər Əliyevin şəxsən iştirak etməsi isə olduqca qürurverici idi.

Azərbaycanın yeni neft strategiyasının möhtəşəm uğurunun müjdəsini xalqımıza çatdıran Ümummilli lider mərasimdə çıxış edərək bu təntənənin, əldə edilən nailiyyətlərin Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasından sonra mümkün olduğunu söyləyərək demişdir: “1994-cü ilin sentyabr ayında biz ilk böyük neft müqaviləsini imzalayarkən dünyaya nümayiş etdirdik ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi öz təbii sərvətlərinin sahibi olaraq onlardan istifadə edilməsi haqqında qərarlar qəbul edir. Üç il keçəndən sonra biz bir daha təsdiq edirik ki, Azərbaycan müstəqil dövlətdir, Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və biz artıq bu müstəqilliyimizin gözəl bəhrələrini görürük”.



“Əsrin müqaviləsi”nin ilkin neft layihəsinin həyata keçirilməsi sahəsində qazanılmış zəngin təcrübə sonralar “Azəri” və “Dərinsulu Günəşli” yataqlarının da mərhələli şəkildə işlənməsinə imkan yaratdı. 2001-ci ilin avqust ayında “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun tammiqyaslı işlənməsinə başlanıldı. Bu mərhələ çərçivəsində “Azəri” yatağında və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsində unikal hasilat və texniki təchizat platformaları inşa olundu, neftin Səngəçal terminalına nəqli üçün yeni sualtı kəmərlər çəkildi. Xam nefti qəbul etmək üçün terminalın ərazisində əlavə genişləndirmə işləri aparıldı.

2005-ci ilin əvvəllərində “Azəri” yatağının mərkəzi hissəsində quraşdırılmış platformadan neft hasilatına başlanıldı. Bununla da, Azərbaycanda böyük neft hasilatının əsası qoyuldu. Sonrakı illərdə “Azəri” yatağnın şərq və qərb hissələrinin”, eləcə də “Dərinsulu Günəşli” yatağının istismara verilməsi ilə Azərbaycanda neft hasilatı kəskin şəkildə artaraq 2010-cu ildə rekord səviyyəyə – 51 milyon tona çatdırıldı. Sonralar Xəzərin Azərbaycan sektorunda quraşdırılmış unikal neft platformalarından hasilat ahəngdar şəkildə davam etdirildi. Məhz bunun nəticəsidir ki, ötən illər ərzində “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan 580 milyon tondan artıq neft çıxarılıb.

Ulu öndər Heydər Əliyevin işləyib hazırladığı mükəmməl neft strategiyası Azərbaycana özünün zəngin neft ehtiyatlarını dünya bazarlarına müstəqil şəkildə çıxarmaq imkanı yaratdı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan şaxələndirilmiş boru kəməri marşrutlarına sahib oldu. 1997-ci ilin sonlarından etibarən Azərbaycan nefti Bakı-Novorossiysk boru kəməri ilə Şimal istiqamətinə axmağa başladı. 1999-cu ilin aprel ayında isə xam neftin Qərb istiqamətinə daşımaq məqsədilə Bakı-Supsa boru kəməri istifadəyə verildi.

Bununla belə, Azərbaycanın artan neft həcmlərini dünya bazarına çıxarmaq üçün daha geniş imkanlara malik boru kəmərinə ehtiyac duyulurdu. Bu, Bakı-Tbilisi-Ceyhan marşrutu idi. Bütün siyasi təzyiqlərə baxmayaraq, bu ideya da gerçəkliyə çevrildi. Bu, həm də Azərbaycanın enerji dəhlizinə çevrilməsi istiqamətində atılan mühüm bir addım idi. “Üç dənizin əfsanəsi” adlandırılan nəhəng infrastruktur layihəsi, həm də etibarlı enerji və dostluq körpüsü kimi uzun illərdir ki, ölkələrin inkişafına, xalqların rifahına xidmət edir. İndi Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri həm beynəlxalq enerji təhlükəsizliyi sistemi baxımından, həm də neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən ölkələr, xüsusilə Mərkəzi Asiya dövlətləri üçün müstəsna əhəmiyyət kəsb edir. 2006-cı ilin iyun ayından indiyədək Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri ilə, təqribən, 552 milyon ton Azərbaycan nefti nəql olunub.

1999-cu ilin dekabr ayının son günlərində Azərbaycanın mənfəət nefti yüklənmiş ilk tanker Qara dənizdən dünya bazarına yola salındı. Bununla da, ölkəmiz tarixində ilk dəfə olaraq neftdən müstəqil şəkildə gəlir götürməyə başladı. Həmin gəlirlərdən səmərəli istifadə olunması, onun müəyyən hissəsinin gələcək nəsillərə çatmasını təmin etmək məqsədilə ümummilli lider Heydər Əliyevin 1999-cu il 29 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradıldı. Ötən müddətdə fond “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun və “Şahdəniz” qaz yatağı layihələrinin işlənməsindən və digər daxilolmalardan, təqribən, 180 milyard ABŞ dolları məbləğində gəlir əldə edib.

Yeri gəlmişkən, “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun dərin qatlarında olan neft və qaz ehtiyatları 30 ilə nəzərdə tutulmuş sazişin müddətinin daha 25 il uzadılmasına səbəb oldu. Azərbaycanın uzunmüddətli, bitkin neft strategiyasınıln müəllifi ulu öndər Heydər Əliyev isə bunun anonsunu çox-çox əvvəllər vermişdi. Belə ki, 1997-ci il noyabrın 12-də “Çıraq” platformasında ilkin neftin çıxarılmasına həsr olunmuş mərasimdə ümummilli lider demişdir: “Bizim imzaladığımız müqavilələrin hamısı təxminən 30 il müddətinə bağlanıbdır. Ancaq mən güman edirəm ki, bu müqavilələr 30 il yox, ondan da çox illər işləyəcəkdir. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının dünyanın böyük neft şirkətləri ilə imzaladığı müqavilələr XXI əsrdə həm Azərbaycan üçün, həm də Azərbaycanla müştərək iş görən şirkətlər, ölkələr üçün çox əhəmiyyətli sənədlərdir”.

Zaman ümummilli liderin bu uzaqgörən qənaətinin həqiqiliyini bir daha sübuta yetirdi. Məlum olduğu kimi, 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması mərasimi keçirildi. Beləliklə, “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənilməsində yeni dövr başladı. Sazişə əsasən “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənilməsi 2050-ci ilədək uzadıldı.

Artıq bu möhtəşəm layihənin reallaşdırılması istiqamətində heyranedici nəticələr əldə olunub. “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun daha dərin qatlarında yerləşən karbohidrogen ehtiyatlarının hasilatı üçün yeni, unikal bir qurğunun inşası başa çatdırılıb. “Azəri-Mərkəzi-Şərqi” adlandırılan nəhəng platformanın dayaq bloku və üst modulları dənizə yola salınıb. Gələn il isə həmin platformadan hasilata başlanacağı gözlənilir.

***

Xalqımızın işıqlı sabahı naminə davamlı inkişaf və tərəqqi konsepsiyasına, ölkəmizin iqtisadi müstəqilliyinin təməl daşına çevrilmiş “Əsrin müqaviləsi” bu gün 30-cu ilinə qədəm qoyur. Müstəqil Azərbaycanın memarı, ulu öndər Heydər Əliyevin siyasi cəsarətinin, müdrik uzaqgörənliyinin nəticəsi olan qalibiyyətli enerji strategiyası Azərbaycanın neft sənayesinin şöhrətini bütün dünyaya yaydı, ölkəmizdə neftçi peşəsinə hörmət və nüfuzu bir qədər də artırdı. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev 2021-ci il avqustun 16-da imzaladığı fərmanla “Əsrin müqaviləsi”nin imzalandığı 20 sentyabr tarixini Azərbaycanda "Neftçilər Günü" peşə bayramı kimi təsis etmişdir. Fərmanda qeyd olunur: “Azərbaycanın neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərli insanları– böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışlar”. Bu il ölkə ictimaiyyəti, qəhrəman neftçilərimiz yeni neft strategiyasının təntənəsi olan “Əsrin müqaviləsi”nin imzalanmasının 29-cu ildönümünü qeyd edirlər. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və hazırda dövlətimizin başçısı İlham Əliyevin uğurla həyata keçirdiyi yeni neft strategiyası isə hələ uzun illər Azərbaycanın iqtisadi qüdrətinin daha da artmasına, dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edəcək.

***Mirbağır YAQUBZADƏ,***
***Vaqif BAYRAMOV***
***XQ***



**Xoşbəxt YUSİFZADƏ,**
**SOCAR-ın birinci vitse prezidenti, akademik**



Son 20 il ərzində Azərbaycanın keçdiyi misilsiz inkişaf yolu, ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin əsas hərəkətverici qüvvəsi müstəqilliyin ilk illərində ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi yeni neft strategiyasıdır. Bu strategiyanın həyata keçirilməsi sayəsində Azərbaycan Qafqaz regionunun güclü və nüfuzlu dövlətinə, Avropanın enerji təhlükəsizliyində mühüm əhəmiyyət kəsb edən ölkəyə çevrilib.

Ulu öndərin müəllifi olduğu neft strategiyasının məntiqi nəticəsidir ki, bu gün Azərbaycan regionda reallaşdırılan qlobal enerji layihələrinin təşəbbüskarı və əsas iştirakçısıdır. Təkcə onu qeyd etmək kifayətdir ki, “Üç dənizin əfsanəsi” adlandırılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, eləcə də Azərbaycan qazının Avropaya çatdırılmasını təmin edən Cənub Qaz Dəhlizi və onun əsas seqmentləri olan Cənubi Qafqaz, Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərləri məhz ölkəmizin, onun rəhbərinin təşəbbüsü və qətiyyəti sayəsində real fəaliyyət sahəsinə çevrilmişdir.

Amma “Əsrin müqaviləsi”nin imzalanması heç də asan başa gəlmədi. Müstəqilliyimizin ilk illərində ölkədə siyasi vəziyyət qeyri-sabit idi, işsizliyin və yoxsulluğun səviyyəsi təşviş doğururdu. Belə bir mürəkkəb şəraitdə ölkə iqtisadiyyatını neft-qaz sənayesi xilas edə bilərdi. Amma o dövrdə neft və qaz sənayesinin özü də ağır böhran içində idi. “Müstəqilliyi, suverenliyi, dövlətçiliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir” söyləyən Ulu öndər yaxşı bilirdi ki, ağır vəziyyətdən çıxmaq üçün dünyanın nəhəng, qüdrətli şirkətlərini, onların maddi və texniki potensialını Azərbaycana cəlb etmək lazımdır. Amma bu olduqca çətin bir məsələ idi. Çünki Ermənistan tərəfindən zorla müharibəyə cəlb olunmuş və daxili çəkişmələrin tüğyan etdiyi, hakimiyyət böhranının yaşandığı bir ölkəyə gəlmək, burada iş görmək, sərmayə yatırmaq hər kəsin risk edəcəyi məsələ deyildi. Hətta bu niyyətdə olanlar da böyük təşviş içərisində idilər. Yəni ki, sabitliyin olmadığı bir məkanda hansısa uğurlu və gələcəyi olan bir işdən danışmaq olduqca mücərrəd və ümidsiz idi. O dövrün reallığı məhz belə idi.

O vaxt “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun karbohidrogen ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək lazım idi: ya ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin yaxşılaşması üçün 30-40 il gözləmək, ya da xarici neft şirkətlərini dəvət etmək. Ümummilli liderimizin uzaqgörən siyasəti sayəsində ikinci varianta üstünlük verildi. Buna görə də Azərbaycan Prezidenti bizi– neftçi mütəxəssisləri ətrafına toplayıb məsələnin aydınlaşdırılmasının zəruriliyini qeyd etdi, məsləhətləşdi və nəticədə, fikir belə oldu ki, xarici neft şirkətlərini ölkəmizə dəvət etmək lazımdır.

Beləliklə, 1994-cü ilin martında Bakıda başlanan danışıqlar sonra Türkiyənin İstanbul şəhərində davam etdirildi. Danışıqların həlledici mərhələsi isə Amerikanın Hyuston şəhərində baş tutdu. Hyustonda 45 gün ərzində aparılan danışıqlar çox gərgin keçdi. O vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Aparılan danışıqların uğurla başa çatmasında o zaman SOCAR-ın Birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin xüsusi rolu oldu.

Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirən cənab İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapmaq və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi. Nəhayət, tərəflərin birgə işləmək, Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarından ədalətlə bəhrələnmək istəyi üstün gəldi.

Nəhayət, 1994-cü il sentyabrın 20-də dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə razılıq əldə edildi. Azərbaycan xalqının ümummilli lideri Prezident Heydər Əliyevin rəhbərliyi və Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti İlham Əliyevin bilavasitə iştirakı ilə işlənib hazırlanmış və tarixə “Əsrin müqaviləsi” kimi düşmüş məşhur saziş imzalandı.

“Əsrin müqaviləsi”nin ölkəmiz üçün iqtisadi və siyasi əhəmiyyəti olduqca yüksəkdir. Bu tarixi saziş bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Müqavilənin iqtisadi əhəmiyyəti isə ondan ibarətdir ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən, 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdı. Azərbaycan və onun neft-qaz sənayesi “Əsrin müqaviləsi”nin imzalanmasından ötən 29 ildə uğurlu inkişaf youl keçib. Bu tərəqqi yolunda hələ çox qələbənin, yeni-yeni nailiyyətlərin şahidi olacağıq.

# Qarabağda antiterror tədbirlərinin əks-sədası xarici mediada

**Dünyanın müxtəlif ölkələrinin tanınmış KİV-ləri Azərbaycanın Qarabağ bölgəsində keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə bağlı xəbərlər yayımlayıb.**

Xarici medianın çıxışlarında Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərdə başladılan lokal xarakterli antiterror tədbirlərinin məqsədinin 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi olduğu bildirilib.




**"Daily Pakistan" nəşrində** dərc edilən xəbərdə Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirləri həyata keçirməyə başladığı qeyd olunub, Azərbaycanın dövlət qurumlarının, o cümlədən Müdafiə Nazirliyinin antiterror tədbirləri ilə bağlı məlumatları diqqətə çatdırılıb. Azərbaycan Müdafiə Nazirliyinin məlumatında lokal xarakterli antiterror tədbirləri çərçivəsində yalnız legitim hərbi obyektlərin və hərbi infrastrukturun yüksək dəqiqlikli silahlarla hədəfə alındığının və sıradan çıxarıldığının bildirildiyi vurğulanıb.

Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən atəş vasitələrinin yaşayış yerlərinin yaxınlığında yerləşdirilməsini nəzərə alaraq, ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa dair çağırış etdiyi də qeyd olunub.

**ABŞ-ın CNBC televiziyasının elektron versiyasında** yayımlanan məqalədə də Azərbaycanın Qarabağ bölgəsində konstitusiya quruluşunu bərpa etmək və Ermənistan silahlı qüvvələrinin birləşmələrini ərazidən çıxarmaq üçün antiterror tədbirlərinə başladığı qeyd olunub. Bildirilib ki, Azərbaycanın Müdafiə Nazirliyi yaydığı bəyanatda lokal xarakterli tədbirlərin məqsədinin Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi olduğu bildirilib. Qeyd edilib ki, Azərbaycan mülki şəxslərin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb.

**Almaniyanın "Süddeutsche Zeitung" qəzetində** verilən məqalədə bildirilir ki, Azərbaycan bölgədə konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirir. Antiterror tədbirlərinin məqsədi 2020-ci ildə baş vermiş sonuncu müharibədən sonra əldə edilmiş atəşkəs razılaşmasına əsasən, erməni hərbi birləşmələrinin bölgədən çıxarılmasını təmin etməkdir.

**Alman Radiosunun saytında** yerləşdirilən məqalədə isə qeyd edilib ki, antiterror tədbirlərinin məqsədi Ermənistan silahlı qüvvələrinin Qarabağdakı birləşmələrinin tərk-silah edilməsi, onların bölgədən tamamilə çıxarılmasıdır. Həmçinin Azərbaycan tərəfindən Qarabağın erməni əhalisinin təhlükəsiz əraziyə təxliyəsi üçün humanitar dəhlizlərin və məntəqələrin yaradıldığı qeyd olunub.

Məqalədə Azərbaycanın işğaldan azad edilən ərazilərdə mina partlayışı nəticəsində dörd polis əməkdaşının və iki mülki şəxsin həlak olmasına görə Ermənistan silahlı qüvvələrinin birləşmələrini və Qarabağdakı terrorçuları ittiham etdiyi bildirilib.

**Böyük Britaniyanın "The National News" nəşrində** yayımlanan xəbərdə Azərbaycan Müdafiə Nazirliyinin məlumatına istinad edilərək, antiterror tədbirlərinin əsas məqsədinin Ermənistan silahlı qüvvələrinin Qarabağdakı birləşmələrinin tərk-silah edilməsi, onların bölgədən tamamilə çıxarılması olduğu vurğulanıb.

**"Telegraph" qəzetində** bildirilib ki, Azərbaycan Müdafiə Nazirliyi yaydığı məlumatda mülki əhali və mülki infrastruktur obyektlərinin hədəfə alınmadığını, yüksək dəqiqlikli silahların tətbiqi ilə yalnız legitim hərbi hədəflərin sıradan çıxarıldığını bəyan edib. Xəbərdə, həmçinin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlamasına da yer verilib.

Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalinin nümayəndələri ilə Yevlax şəhərində görüşə hazır olduğu diqqətə çatdırılıb. Həmin açıqlamada "Antiterror tədbirlərinin dayandırılması üçün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır", - tələbi xüsusi vurğulanıb.

**Rusiyanın "Moskovski komsomolets" qəzetində** dərc olunan məqalədə bildirilib ki, Azərbaycan Müdafiə Nazirliyi lokal xarakterli tədbirlərin Qarabağda sülhün bərqərar olunması və Ermənistan silahlı qüvvələrinin qanunsuz birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması məqsədilə aparıldığını bəyan edib.

**"İzvestiya", "Forbes.ru" nəşrlərində** yerləşdirilən yazılarda isə Azərbaycan Ordusunun yalnız Ermənistan silahlı qüvvələrinin legitim hərbi hədəflərinə və hərbi obyektlərinə zərbələr endirdiyi, mülki əhalinin və obyektlərin hədəfə alınmadığı vurğulanıb.

**"Kommersant" və "RBK"nın yaydığı xəbərlərdə** Azərbaycanın antiterror tədbirlərinə başlamasının Ermənistan tərəfindən Azərbaycan ərazilərinin mütəmadi atəşə tutulması və ərazilərin yenidən minalanması ilə əlaqələndirildiyi qeyd olunub. Bildirilib ki, Azərbaycan Ermənistan ordusunun Qarabağdakı qanunsuz hərbi birləşmələrini tərk-silah etmək, azad edilmiş ərazilərə qayıtmış dinc əhalinin təhlükəsizliyini təmin etmək niyyətindədir.

**İspaniyanın "EFE", "Rtve", "Notimerica", "Infobae", İtaliyanın "Libero Quotidiano" portallarında** yerləşdirilən informasiyalarda Azərbaycan Müdafiə Nazirliyinin altı nəfərin, o cümlədən dörd polis əməkdaşının terror aktları nəticəsində həlak olmasından sonra antiterror tədbirləri həyata keçirdiyi qeyd edilib. Xəbərdə Azərbaycan Prezidenti Administrasiyasının erməni silahlı dəstələrinin ağ bayraq qaldırmayana, bütün silahları təhvil verməyənə və qanunsuz rejim özünü buraxmayana qədər antiterror tədbirlərinin davam etdiriləcəyi bildirilib. Yazılarda, həmçinin Azərbaycanın Qarabağın erməni əhalisi ilə danışıqlara hazır olduğu da qeyd edilib. Məqalələrdə Azərbaycan Müdafiə Nazirliyinin mülki əhalinin təxliyəsi üçün humanitar dəhlizlər yaratdığı da xüsusi vurğulanıb.

***XQ***

# Xocavənddə terror aktı ilə bağlı cinayət işləri başlanılıb

**19 sentyabr 2023-cü il tarixdə Əhmədbəyli-Füzuli-Şuşa yolunun 58-ci kilometrliyində mina partlayışı nəticəsində 2 nəfər mülki şəxsin ölməsi ilə bağlı daxil olmuş məlumat əsasında araşdırmalar başlanılıb. XQ xəbər verir ki, məlumatı Dövlət Təhlükəsizliyi Xidməti yayıb.**




Məlumatda bildirilib ki, ilkin araşdırmalar zamanı, həmin tarixdə saat 03:45 radələrində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının olduğu "Shacman Howo" markalı nəqliyyat vasitəsinin Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonunun ərazisindən keçən 58-ci kilometrliyində sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək partlaması, törədilmiş terror aktı nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 43 saylı idarəsinin əməkdaşları olan mülki şəxslər 02.05.1965-ci il təvəllüdlü Quliyev Fərhad Hüseynağa oğlu və 21.11.1970-ci təvəllüdlü Sadıxov Samir Sabiroviçin ölməsi müəyyən olunub.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1, 214.2.2, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən təkrar odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 120.2.1, 120.2.4, 120.2.7, 120.2.10, 120.2.11, 120.2.12 (mütəşəkkil dəstə tərəfindən, ümumi təhlükəli üsulla, təkrar, terrorçuluqla əlaqədar, milli ədavət və düşmənçilik niyyəti ilə iki və ya daha çox şəxsi öldürmə), 228.3 (mütəşəkkil dəstə tərəfindən təkrar qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə) və digər maddələri ilə cinayət işi başlanılıb. Cinayət işi üzrə kompleks istintaq-əməliyyat tədbirləri həyata keçirilir, gedişatı barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək.

***

19 sentyabr 2023-cü il tarixdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının olduğu "Kamaz" markalı nəqliyyat vasitəsi həmin gün Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən saat 04:30 radələrində Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlayıb, törədilmiş terror aktı nəticəsində DİN-in əməkdaşları olan 05.02.1994-cü il təvəllüdlü Camalzadə Asim Knyaz oğlu, 08.07.1987-ci təvəllüdlü Şirinov Ramil Arif oğlu, 12.07.1991-ci il təvəllüdlü Mahmudov Seymur Elsevər oğlu və 21.07.1998-ci il təvəllüdlü Zamanov Xəzər Azər oğlu hadisə yerində həlak olublar. XQ-nin xəbərinə görə, bu, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə məlumatında bildirilib.

Məlumatda o da bildirilib ki, faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1, 214.2.2, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən təkrar odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.10, 120.2.11, 120.2.12 (mütəşəkkil dəstə tərəfindən, ümumi təhlükəli üsulla, təkrar, zərər çəkmiş şəxsin xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar, milli ədavət və düşmənçilik niyyəti ilə iki və ya daha çox şəxsi terrorçuluqla əlaqədar öldürmə), 228.3 (mütəşəkkil dəstə tərəfindən təkrar qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə) və digər maddələri ilə cinayət işi başlanılıb. Cinayət işi üzrə birgə istintaq-əməliyyat tədbirləri həyata keçirilir, gedişatı barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək.

# Xarici KİV ermənilərin Azərbaycana qarşı mina terrorunu pisləyib

**Dünyanın bir çox nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycan ərazilərində ermənilərin mina terrorunun davam etməsi nəticəsində son günlər azərbaycanlı polislər və müli şəxslərin həlak olması barədə materiallar dərc edib.**

**Rusiyanın TASS agentliyi, "Arqumentı i faktı", "Moskovski komsomolets" qəzetləri və digər mətbuat orqanları** azərbaycanlı polis əməkdaşlarının Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonu ərazisindən keçən hissəsində qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək həlak olması haqqında Azərbaycan DİN, Baş Prokurorluq və DTX-nin birgə məlumatını yayıblar. Rusiya mediası vurğulayıb ki, Azərbaycanın hüquq-mühafizə orqanları baş vermiş insidenti terror aktı adlandırıb və Cinayət Məcəlləsinin bir neçə maddəsi, o cümlədən terrorizm maddəsi üzrə cinayət işi başlanılıb.



**Ərəb mediasının "Əl Ərəbiyə", "Əl Əhram", "Şuruk", "Əl Qüds"** və ərəb ölkələrinin **digər qəzet və portallarında** dərc edilən xəbərlərdə oxucuların diqqətinə çatdırılıb ki, rəsmi Bakı erməni sabotaj qruplarının Azərbaycan ərazilərində basdırdığı minaların altı azərbaycanlının, o cümlədən dörd polis əməkdaşının həlak olmasına səbəb olduğunu bəyan edib. Materiallarda qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev ermənilərin mina terrorunun azərbaycanlı məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasında başlıca əngəl olduğunu dəfələrlə bildirib. Xəbərlərdə vurğulanıb ki, Azərbaycanın hüquq-mühafizə orqanları bu hadisələri terror aktı kimi qiymətləndirib və müvafiq maddələrlə cinayət işi açılıb.

**Fransanın "Radio France Internationale"**, İtaliyanın **"Corriere della Sera", "Quotidiano dei contribuenti", Slovakiyanın "hn.24", "Teraz", "TvNoviny", "Dennikn", Britaniyanın "The Guardian", Portuqaliyanın "CNNportuqal", "Cignoticias" qəzet və portallarında** dərc olunmuş materiallarda bildirilir ki, içərisində Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşlarının olduğu nəqliyyat vasitəsi Xocavəndin Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlayıb. Baş vermiş partlayışlar nəticəsində 2 mülki şəxs və nazirliyin 4 əməkdaşı həlak olub. Xəbərlərdə diqqətə çatdırılır ki, Azərbaycan tərəfi ermənilərin bu terror aktlarının Ermənistanla sülh prosesinə ciddi zərbə vurduğunu bəyan edir, həmçinin İrəvandan qanunsuz hərbi birləşmələrini Qarabağdan dərhal çıxarmağı tələb edir.

**Almaniyanın DW telekanalının saytında** dərc olunmuş yazıda diqqətə çatdırılıb ki, qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən törədilən və altı azərbaycanlı, o cümlədən dörd polis əməkdaşı və iki mülki şəxsin həlak olması ilə nəticələnən mina terroru aktından sonra Azərbaycan tərəfi öz ərazisində antiterror tədbirləri görməyə məcbur olub. "Politico", "Firstpost" xəbər portalları da azərbaycanlı polislərin və mülki şəxslərin erməni təxribatı nəticəsində həlak olmasının gərginliyi artırdığını qeyd ediblər.

**ABŞ-ın "Barrons" internet nəşri də** Ermənistanın Azərbaycan ərazilərində mina terrorundan bəhs edib, o cümlədən son terror aktı nəticəsində azərbaycanlı polislərin və mülki şəxslərin həlak olduğunu bildirib. Yazıda qeyd olunub ki, sülh prosesinin davam etdiyi bir şəraitdə Azərbaycanla Ermənistan arasında gərginlik artır, eyni zamanda, Azərbaycanın Qarabağ bölgəsində qanunsuz erməni silahlı birləşmələri və separatçıların fəallaşdığı müşahidə olunur: "İki müharibənin baş verdiyi Qarabağ ərazisinin böyük hissəsi ermənilər tərəfindən minalanıb və Prezident İlham Əliyev bildirib ki, mina problemi səbəbindən məcburi köçkünlərin 2020-ci ildə işğaldan azad olunmuş bu ərazilərə köçürülməsi prosesi gecikir".

**Hindistanın "The Hindu" qəzetində** dərc edilən yazıda qeyd olunub ki, azərbaycanlı polis əməkdaşları və mülki şəxslərin həlak olması bölgədə vəziyyəti daha da gərginləşdirir, həmçinin Azərbaycanla Ermənistan arasında sülh prosesinə ciddi zərər verir.

**Ukraynanın nüfuzlu "Ukrinform" dövlət informasiya agentliyi, "Korespondent", "PolitDumka" və digər xəbər portallarında** yayılan məqalələrdə azərbaycanlı polis əməkdaşlarının Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonu ərazisindən keçən hissəsində qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək həlak olduğu diqqətə çatdırılır. Qeyd olunur ki, terror aktı ilə əlaqədar Azərbaycan təhlükəsizlik orqanları araşdırmaya başlayıb.

Bildirilir ki, İkinci Qarabağ müharibəsindən sonra basdırılan minaların partlaması nəticəsində həlak olanların ümumi sayı 61 nəfərə çatıb. Bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev işğal olunmuş ərazilərin minalardan təmizlənməsinin 30 ilə yaxın davam edəcəyini və 25 milyard dollara başa gələcəyini açıqlayıb.

***XQ***

# Azad edilmiş ərazilərdə mina terroru faciələri

**10 noyabr 2020–19 sentyabr 2023-cü il aralığında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində ümumilikdə, 314 nəfər mina terrorunun qurbanı olub. Onlardan 61 nəfəri həlak olub (mülki – 48, hərbçi – 13), 253 nəfər (mülki – 101, hərbçi – 152) isə xəsarət alıb.**

10 noyabr 2020–14 dekabr 2021-ci il aralığında 197 nəfər mina terrorundan əziyyət çəkib. 36 nəfər həlak olub (mülki – 29, hərbçi – 7), 161 nəfər (mülki – 52, hərbçi – 109) yaralanıb.

15 dekabr 2022–4 fevral 2022-ci il aralığında 7 nəfər mina terrorunun qurbanı olub. Bir mülki şəxs həlak olub, 6 nəfər (mülki – 4, hərbçi – 2) yaralanıb.

5 fevral 2022–6 aprel 2022-ci il aralığında 6 nəfər (mülki – 5, hərbçi – 1) mina partlayışı nəticəsində yaralanıb.

7 aprel 2022–18 may 2022-ci il aralığında 12 nəfər mina terrorunun qurbanı olub. 2 mülki şəxs həlak olub, 10 nəfər yaralanıb (mülki – 7, hərbçi – 3).

19 may 2022–18 avqust 2022-ci il aralığında 11 nəfər mina terrorundan əziyyət çəkib. 1 hərbçi həlak olub, 10 nəfər yaralanıb (mülki – 8, hərbçi – 2).

– 19 avqust 2022–23 sentyabr 2022-ci il aralığında 22 nəfər mina terrorunun qurbanı olub. 2 hərbçi həlak olub, 20 nəfər yaralanıb (mülki – 2, hərbçi – 18).

24 sentyabr 2022–3 oktyabr 2022-ci il aralığında 5 nəfər mina terrorunun qurbanı olub. 2 mülki şəxs həlak olub, 3 mülki şəxs yaralanıb.

4 oktyabr 2022–10 noyabr 2022-ci il aralığında 11 nəfər mina terrorundan əziyyət çəkib. 1 mülki şəxs həlak olub, 10 nəfər yaralanıb (mülki – 6, hərbçi – 4).

11 noyabr 2022–6 yanvar 2023-ci il aralığında 9 nəfər mina terrorunun qurbanı olub. 1 hərbçi həlak olub, 8 nəfər yaralanıb (mülki – 4, hərbçi – 4).

7 yanvar 2023–14 mart 2023-cü il aralığında 5 nəfər mina terrorunun qurbanı olub. 2 nəfər həlak olub (mülki – 1, hərbçi – 1), 3 nəfər yaralanıb (mülki – 1, hərbçi – 2).



15 mart 2023–12 iyun 2023-cü il aralığında 16 nəfər mina terrorunun qurbanı olub. 7 nəfər həlak olub (mülki – 6, hərbçi – 1), 9 nəfər yaralanıb (mülki – 6, hərbçi – 3).

13 iyun 2023–23 avqust 2023-cü il aralığında 2 nəfər mina partlayışından xəsarət alıb (mülki – 1, hərbiçi – 1).

24 avqust 2023–11 noyabr 2023-cü il aralığında 3 nəfər mina partlayışından xəsarət alıb (mülki – 2, hərbçi – 1).

12 sentyabr 2023–19 sentyabr 2023 –cü il aralığında 8 nəfər mina terrorunun qurbanı olub. 6 mülki şəxs həlak olub, 2 hərbçi yaralanıb.

Mina və digər partlayıcı qurğulardan təmizlənmiş ərazilər:

970 min 552 kvadratmetr, (97 min 55,2 hektar).

Aşkar edilmiş mina və digər partlayıcıların sayı: 94 min 244 ədəd.

Piyadalar əleyhinə minalar: 29 min 617 ədəd.

Tank əleyhinə minalar: 17min 48 ədəd.

Partlamamış hərbi sursatlar: 47 min 579 ədəd.

***XQ***

# Terror Ermənistanın dövlət siyasətidir

## *Bu qanlı əməllər hayların anti-türk məqsədlərinə uyğunlaşdırılıb*

**Ötən əsrin əvvəllərindən başlayaraq erməni terror bandaları Qafqazda türk-müsəlmanlar yaşayan ərazilərdə irimiqyaslı qırğınlar törədib. Ermənistanın əsrin sonunda Azərbaycana qarşı ərazi iddiaları ciddi müqavimətlə rastlaşandan sonra erməni terror təşkilatları xalqımızın inadını qırmaq üçün mülki əhalini hədəfə alıb. İctimai avtobusların, sərnişin və metro qatarlarının, gəmilərin partladılması da daxil olmaqla mülki azərbaycanlılara qarşı irimiqyaslı terror aktları bir-birini əvəz edib. Qarabağın dinc azərbaycanlı əhalisi, əsir və girovlar da amansız terrora məruz qalıblar.**

Bu terror əməllərində erməni diasporu və xüsusi təhlükəsizlik xidməti orqanlarının maliyyəsi və təchizatı ilə Livan, Suriya, İran, Rusiya, Ukrayna, Yunanıstan, Bolqarıstan, Fransa və ABŞ-da yaşayan 6 mindən çox erməni fəal iştirak edib və bir milyondan çox azərbaycanlı öz evlərindən didərgin salınıb, 4 minədək hərbi əsir və girov izsiz-soraqsız yoxa çıxıb.

Ermənistanın Azərbaycan xalqına qarşı törədilmiş terror aktlarının ən dəhşətlisi 26 fevral 1992-ci ildə bir gecədə 613 azərbaycanlı, o cümlədən 106 qadın və 63 uşağın vəhşicəsinə qətlə yetirildiyi Xocalı şəhərində baş verib. Memorial İnsan Hüquqları Mərkəzi və "Human Rights Watch" təşkilatı Xocalı soyqırımını mülki əhaliyə qarşı törədilən ən qəddar faciələrdən biri olduğunu bildirib. Xüsusi diqqəti cəlb edən məqam ondan ibarətdir ki, Ermənistanın sabiq prezidentləri Serj Sarqsyan və Robert Koçaryan Azərbaycan ərazilərinin işğalında iştirak edən, orada törədilən qətl və qəddarlıqlara bilavasitə rəhbərlik edən hərbi komandirlər olublar. S.Sarqsyanın britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində səsləndirdiyi aşağıdakı fikirlər erməni silahlılarının dinc əhaliyə qarşı zorakılıq tətbiq etdiyinə heç bir şübhə yeri qoymur: "Xocalıdan əvvəl azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Biz buna son qoymalı idik və biz bunu (stereotipi) sındırmağa müvəffəq olduq".

Bu onu göstərir ki, ifrat millətçilik əhval-ruhiyyəsindən doğan və "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni terrorizmi daim bu vəhşi toplumun dəyişən siyasi məqsədlərinə cavab verməyə uyğunlaşdırılıb. Ermənistanın azərbaycanlı mülki əhaliyə qarşı törətdiyi terror aktlarında əsasən qadınlara, uşaqlara və qocalara qarşı snayper hücumları və ya yaxınlıqdakı çaylara partlayıcı yerləşdirilmiş oyuncaqların atılması üsulları üstünlük təşkil edirdi. Cəbhə və dövlət sərhədi yaxınlığında törədilmiş erməni terror aktlarının qurbanları arasında Ağdamdan 5 yaşlı oğlan, Tovuzdan 13 yaşlı qız və Füzulidən 2 yaşlı qız uşaqlarını qeyd etmək olar. Sonuncu terror aktı isə dünən törədilib. Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlara və terror hücumlarına əl atıblar.

Eməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak olub və yaralanıblar.

Erməni millətçilik xəstəliyinin hər bir kəskinləşmə mərhələsində daim terror və zorakılıqdan istifadə olunduğunu nəzərə alaraq, bu etnik terror halının həm regional, həm də beynəlxalq səviyyədə sülh, təhlükəsizlik və sabitlik naminə aradan qaldırılması üçün vaxtında zəruri tədbirlər görülməlidir.

Ermənistan terroru pisləmək əvəzinə, bu qanlı əməllərə haqq qazandırmaqla məşğuldur. İrəvanda "Nemesis" terror əməliyyatına həsr olunmuş abidənin açılışı da bunun göstəricilərindən biridir. Bu cür məsuliyyətsiz addımlar beynəlxalq ictimaiyyət tərəfindən qəti şəkildə pislənilməlidir.

**Azərbaycana qarşı erməni terrorizminin son yarıməsrlik xronologiyası:**

**3 iyul 1967-ci il.** Ermənilər şərləyərək həbs etdirdikləri Qaradağlı kəndinin üç sakininin Xankəndidə keçirilən məhkəməsindən sonra polis maşınına hücum etmiş, azərbaycanlıları qətlə yetirdikdən sonra üstlərinə benzin tökərək yandırmışlar.

**7 iyun 1968-ci il.** Erməni terrorçular İrəvan şəhəri, Kiyevyan küçəsi ev 1, mənzil 15-də yaşayan "Sovet Ermənistanı" qəzetinin redaktoru, tarixçi-alim İsrafil Məmmədovun evinə bomba atmışlar. Xoşbəxtlikdən tələfat olmamışdır.

**24 aprel 1983-cü il.** Qondarma "erməni soyqırımı"nı bəhanə edərək bir qrup erməni terrorçusu Zəngibasar (Masis) rayonunun Uluxanlı qəsəbəsinə hücum etmiş, kənd sakinlərinə bədən xəsarətləri yetirmiş və qəbirləri dağıtmışlar.

**8 sentyabr 1984-cü il.** Bakı şəhərində 106 saylı marşrut avtobusu erməni terrorçusu Vartanov tərəfindən partladılmış, nəticədə 1 qadın həlak olmuş və 3 nəfər yaralanmışdır.

**12 dekabr 1988-ci il.** Zəlzələdən zərərçəkmiş ermənilərə yardım göstərmək məqsədilə Azərbaycandan göndərilmiş İL-76 təyyarəsi raketlə vurulmuşdur. Nəticədə, təyyarədə olan 77 azərbaycanlıdan cəmi 1 nəfər sağ qalmışdır. Həmin gün erməni terrorçuları Türkiyəyə məxsus olduğunu düşünərək Yuqoslaviyanın An-12 təyyarəsini də vurmuşlar.

**16 sentyabr 1989-cu il.** "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edən "İkarus" markalı sərnişin avtobusu Yevlax rayonu ərazisində partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər isə müxtəlif bədən xəsarəti almışdır.



**20 sentyabr 1989-cu il.** Ermənilər Zod mədəninin Kəlbəcər rayonu Söyüdlü yaylağında yerləşən sahəsinə partlayıcı qurğu qoyaraq partlatmış, nəticədə bir nəfər yaralanmış və həmin dövrdə dövlətə külli miqdarda ziyan vurulmuşdur.

**7 oktyabr 1989-cu il.** Xankəndi şəhərində azərbaycanlılar yaşayan Şuşa şəhərini Ağdam yolu ilə bağlayan Xəlfəliçay üzərindəki körpü partladılmışdır. Cinayəti törətmiş Amramyan Artur Artaşesoviç həbs olunmuş və 1992-ci il aprelin 29-da 15 il müddətinə azadlıqdan məhrum edilmişdir.

**19 yanvar 1990-cı il.** Ermənistanın Ararat rayonunun Yeraxs kəndi tərəfindən Naxçıvan MR-nın Şərur rayonunun Sədərək qəsəbəsi əvvəlcə toplardan atəşə tutulmuş, sonra isə silahlı basqın edilmişdir. Nəticədə qəsəbədəki şərab zavodu, məhsul dolu iki çən partladılmış, obyektlər yandırılmış, 5 yaşayış evi dağıdılmış, 6 nəfər dinc azərbaycanlı öldürülmüş, 23 nəfər isə yaralanmışdır.

**13 fevral 1990-cı il.** Yevlax–Laçın yolunun 105-ci km-də "Şuşa–Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır.

**24 mart 1990-cı il.** "Noraşen-Bakı" yolunun 364-ci km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür.

**11 iyul 1990-cı il.** Ağdərə rayonunun "Tərtər–Kəlbəcər" sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə 8 nəfər qətlə yetirilmiş, 23 nəfər yaralanmışdır.

**10 avqust 1990-cı il.** "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayətin təşkilatçıları A.Avanesyan və M.Tatevosyan cinayət məsuliyyətinə cəlb olunmuşlar.

**10 avqust 1990-cı il.** "Şəmkir-Gəncə" avtomobil yolunda Xanlar (indiki Göygöl) rayonunun Nadel kəndi yaxınlığında "LAZ" markalı 43-80 AQF dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 17 nəfər həlak olmuş, 16 nəfər yaralanmışdır.

**15 sentyabr 1990-cı il.** Xankəndi şəhərində Dağlıq Qarabağ Muxtar Vilayətinin radio-televiziya mərkəzi partladılmış, 2 nəfər yaralanmışdır. Terror aksiyasını törədən şəxslər müəyyən edilməmişdir.

**30 noyabr 1990-cı il.** Əsgəran rayonundakı Ağa körpü adlanan ərazidə DİN əməkdaşlarını Şuşadan Xankəndi aeroportuna aparan avtobus partladılmış, nəticədə 2 milis işçisi yaralanmışdır.

**4 yanvar 1991-ci il.** Sarkisyan Qraçik Qriqoryeviçin başçılıq etdiyi terrorçu qrup Əsgəran–Ağdam yolunda körpünü partlatmışdır. Həmin qrup 1991-ci il aprelin 18-də Xocavənd rayonunda Amaras kilsəsi yaxınlığında 3 nəfər azərbaycanlı polis əməkdaşını qətlə yetirmişdir. Cinayətkarı həbs etmək mümkün olmamışdır.

**9 yanvar 1991-ci il.** "Molodyoj Azerbaycana" qəzetinin müxbiri Salatın Əsgərova və 3 hərbi qulluqçunun olduğu avtomobilə qarşı terror aktı nəticəsində 4 nəfər qətlə yetirilmişdir. Terrorçu qrupun üzvləri A.Mkrtçyan, Q.Petrosyan, A. Manqasaryan və Q.Arustamyan cinayət məsuliyyətinə cəlb olunmuşlar.

**12 yanvar 1991-ci il.** "Yevlax–Laçın" avtomobil yolunun 13-cü kilometrliyində 547 saylı hərbi hissəyə məxsus "UAZ" markalı avtomaşına silahlı basqın edilmiş, SSRİ DİN polkovniki V.Qriqoryev həlak olmuş, əsgər O.Konovalov yaralanmışdır.

**14 mart 1991-ci il.** "Ağdam–Şuşa" marşrutu üzrə hərəkət edən avtobus partladılmış, 3 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**28 aprel 1991-ci il.** Şuşa şəhərində 2 beşmərtəbəli bina dağıdılmış, nəticədə 3 nəfər ağır yaralanmışdır.

**30 may 1991-ci il.** Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında "Moskva–Bakı" sərnişin qatarı partladılmış, nəticədə 11 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır.

**19 iyun 1991-ci il.** "Yevlax–Laçın" avtomobil yolunun 106-cı kilometrliyində 5459 saylı hərbi hissəyə məxsus "UAZ-469" markalı avtomaşın partladılmış, 1 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

**30 iyun 1991-ci il.** Dağıstan Respublikasının Temirtau stansiyasının yaxınlığında Moskva–Bakı sərnişin qatarı partladılmış, 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

**2 avqust 1991-ci il.** Hadrut rayonunun Dolanlar kəndində "QAZ-53" markalı avtomaşın partladılmış, nəticədə 3 nəfər ölmüş, 5 nəfər ağır yaralanmışdır.

**21 avqust 1991-ci il.** Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında "KamAZ" markalı 70-30 AQO dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 1 nəfər həlak olmuş, 5 nəfər ağır bədən xəsarəti almışdır.

**8 sentyabr 1991-ci il.** "Ağdam–Xocavənd" avtobusunun atəşə tutulması nəticəsində 4 nəfər qətlə yetirilmiş, 17 nəfər müxtəlif dərəcəli xəsarət almışdır.

**8 sentyabr 1991-ci il.** "Ağdam–Qaradağlı" marşrutu ilə işləyən avtobusun partladılması nəticəsində 6 nəfər həlak olmuş, 36 nəfər yaralanmışdır.

**26 sentyabr 1991-ci il.** "Yevlax–Laçın" yolunda "VAZ-2106" markalı D 72–07 AQ nömrə nişanlı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

**11 oktyabr 1991-ci il.** Şuşa rayonunun Nəbilər kəndi yaxınlığında Şuşa şəhərini içməli su ilə təchiz edən kəmər partladılmışdır.

**19 oktyabr 1991-ci il.** Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında "UAZ-469" markalı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

**20 noyabr 1991-ci il.** Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" vertolyotunun atəşə tutulması nəticəsində vertolyot heyəti və sərnişinlər – Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər – 22 nəfər həlak olmuşdur.

**26 dekabr 1991-ci il.** Şuşa-Laçın yolunun 4-cü kilometrliyində "ZİL-130" və "Moskviç" maşınları partladılmış, 5 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**8 yanvar 1992-ci il.** Türkmənistandan "Krasnovodsk–Bakı" marşrutu ilə hərəkət edən dəniz bərəsində törədilən terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

**28 yanvar 1992-ci il.** "Ağdam–Şuşa" marşrutu ilə uçan Mİ-8 mülki vertolyotu Şuşa şəhəri yaxınlığında erməni terrorçuları tərəfindən vurulmuşdur. Nəticədə çoxu qadın və uşaq olan 44 nəfər həlak olmuşdur.

**15 yanvar 1992-ci il.** Kərkicahan qəsəbəsinə hücum nəticəsində 80 nəfər mülki şəxs qətlə yetirilmişdir.

**17 fevral 1992-ci il.** 56 nəfər, onlardan 12 nəfəri uşaq olan Qaradağlı kənd sakinlərini güllələmişlər.

**26 fevral 1992-ci il.** Erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etmişlər. 613 nəfər dinc sakin həlak olmuş, 487 nəfəri yaralanmış, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür.

**22 mart 1992-ci il.** Qazax rayonu, Cəfərli kəndi ərazisində "UAZ 469" markalı 60-25 AZU dövlət nişanlı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**28 mart 1992-ci il.** Cəbrayıl rayonu, Dolanlar kəndi ərazisində "Kamaz-5410" markalı 40-53 AQŞ dövlət nişanlı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

**18 aprel 1992-ci il.** "Qazax–Cəfərli" yolunun 10-cu kilometrliyində "VAZ" markalı maşın silahlı basqına məruz qalmış, nəticədə 1 nəfər ölümcül yaralanmışdır.

**20 may 1992-ci il.** Zəngilan rayonunun Qazançı kəndi yaxınlığında "UAZ-469" markalı 80-33 AQD dövlət nömrə nişanlı avtomaşın silahlı basqına məruz qalmış, nəticədə 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

**28 fevral 1993-cü il.** Rusiyanın Şimali Qafqaz ərazisində Qudermes stansiyası yaxınlığında "Kislovodsk-Bakı" sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

**2 iyun 1993-cü il.** Bakı Dəmir Yolu Vağzalında sərnişin qatarının vaqonu partladılmışdır. Partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatkovski Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsi kəşfiyyat şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etmişdir. Cinayəti törətmiş Xatkovski İqor Anatolyeviç 1994-cü il iyunun 22-də AR Hərbi Məhkəməsinin hökmü ilə 8 il azadlıqdan məhrum edilmişdir.

**22 iyul 1993-cü il.** Tərtər rayonunda törədilmiş partlayış nəticəsində 4 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır. Həmin gün Qazax rayonunun mərkəzində törədilmiş partlayış nəticəsində 5 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

**30 avqust 1993-cü il.** Hadrut rayonu ərazisində "ZİL" markalı maşın partladılmış, nəticədə 2 nəfər həlak olmuşdur. Həmin hadisədən bir neçə gün sonra içərisində 12 nəfər kənd sakini olan "QAZ-66" markalı sərnişin avtobusu rayondan çıxarkən partladılmış, nəticədə 4 nəfər həlak olmuş, 8 nəfər ağır dərəcədə yaralanmışdır.

**1 fevral 1994-cü il.** Bakı Dəmir Yolu Vağzalında "Kislovodsk–Bakı" sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

**9 fevral 1994-cü il.** Xudat stansiyası yaxınlığında ehtiyat yolda dayanan yük vaqonu partladılmışdır.

**18 mart 1994-cü il.** Xankəndi şəhəri yaxınlığında İran Hərbi Hava Qüvvələrinə məxsus "Herkules" tipli təyyarə vurulmuş, 34 diplomat və ailə üzvləri həlak olmuşlar.

**19 mart 1994-cü il.** Bakı metropoliteninin "20 Yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. Məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı "Sadval" təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir.

**13 aprel 1994-cü il.** Dağıstan Respublikasının "Daqestanskiye Oqni" stansiyası yaxınlığında "Moskva–Bakı" sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**3 iyul 1994-cü il.** Bakı metropoliteninin "28 May" və "Gənclik" stansiyaları arasında elektrik qatarındakı partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

**7 iyul 1994-cü il.** Türkiyə Respublikasının Yunanıstandakı səfirliyinin müşaviri Haluk Sipahiogluna qarşı sui-qəsd, Afina. ASALA məsuliyyəti öz üzərinə götürüb.

**27 oktyabr 1999-cu il.** Ermənistan Respublikasının Milli Məclisində terror aktı nəticəsində spiker Karen Dəmirçyan, baş nazir Vazgen Sarkisyan, vitse-spikerlər Ruben Miroyan və Yuri Baxşyan, operativ məsələlər üzrə nazir Leonard Petrosyan, həmçinin deputatlar Armenak Armenakyan, Henrik Abramyan və Mikael Kotanyanın həlak olması, Yerevan. ARFD məsuliyyəti öz üzərinə götürüb.

**8 mart 2011-ci il.** Azərbaycanın Ağdam rayonuna atəş açılması nəticəsində 9 yaşlı azərbaycanlı uşağın həlak olması.

**14 iyul 2011-ci il.** Ermənistandan Azərbaycana axan çaya partlayıcı daşıyan oyuncağın atılması nəticəsində 13 yaşlı azərbaycanlı qızın həlak olması və onun 32 yaşlı anasının ağır yaralanması, Tovuz rayonu.

**4 iyul 2017-ci il.** Dinc sakinlərin atəşə tutulması nəticəsində 2 yaşlı azərbaycanlı qızın həlak olması və onun 51 yaşlı nənəsi və digər bir 52 yaşlı qadının yaralanması, Füzuli rayonu.

II Qarabağ müharibəsindən sonra minaya düşüb həlak olanlar da az deyil. 2020-ci ilin 10 noyabr razılaşması ilə döyüş əməliyyatları dayandırılandan bu günə qədər Ermənistan silahlı qüvvələrinin basdırdıqları minaların partlaması nəticəsində hərbi qulluqçu və mülki şəxs olmaqla, ümumilikdə, 314 nəfər minaya düşüb, onlardan 61-i həlak olub.

***XQ***

# Litva mətbuatı Ermənistan baş nazirinin çaşbaşlığından yazıb

## Nikol Paşinyan: Rusiya Cənubi Qafqazdan gedir

**İşğalçı ölkənin baş nazirinin özünü apara bilməməsi, müxtəlif beynəlxalq tədbirlərdə gülüş ünvanına çevrilməsi, xüsusən, hərdəmxəyallığı – dediyi heç bir sözün üstündə dura bilməməsi təkcə öz ölkəsində və ya Cənubi Qafqazda deyil, ümumiyyətlə, postsovet məkanında tez-tez yada düşür. Onun xarakteri böyük bir məkanda "siyasətçi karikaturası" kimi gündəlikdə qalır. Bu yaxınlarda onun İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibə də çoxsaylı replika və ironiyalara mövzu oldu.**

Litvanın "Delfi.lt" xəbər portalı da Nikol Paşinyanın həmin müsahibəsinə özünəməxsus münasibət bildirib. Belə ki, müəllif Rusiyanın bütün sərhədləri boyunca yeni torpaqlar ələ keçirmək üçün variantlar axtardığı bir zamanda Cənubi Qafqazdan gedəcəyinə inanmaq istəməsə də, məhz "Paşinyanın xətrinə" bu yazını qələmə alıb.

Ermənistan baş naziri deyib: "Rusiya sülhməramlıları Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi üçün heç bir fəaliyyət göstərmədiyinə görə Rusiya dövləti artıq Cənubi Qafqazdan gedir!? Rusiyalı tərəfdaşlarımız Qərb ölkələrini ittiham edirlər ki, guya onlar Ermənistanda rusların sıxışdırılmasını tələb edirlər. Əksinə, biz görürük ki, Rusiya özü bu regiondan getmək istəyir. Bəs nə üçün bu, baş verir? Biz bilmirik. Biz bu faktları müşahidə edirik, ancaq mən əsas səbəbi göstərən hansısa faktı təsdiq edə bilmərəm".

Paşinyan əlavə edir: "Cənubi Qafqazda gedən proseslər belə deməyə əsas verir ki, biz bir gün oyanıb görəcəyik ki, Rusiya regionda yoxdur. Bu proseslərə Rusiya sülhməramlılarının Laçın yolu bağlananda heç nə edə bilməməsi də daxildir. Onlar Qarabağ ermənilərinin hüquqlarını qoruya bilmədilər. Nə üçün? İki səbəb ola bilər. Ya Rusiya sülhməramlıları bunu bacarmadılar, ya da bunu etmək istəmədilər. Hər iki variant bizim üçün problem yaratdı".

Ermənistanın dövlət təhlükəsizliyinin Rusiyadan asılı olmasına gəlincə isə baş nazir xatırladıb ki, bizim bu sahədə tam olaraq Moskvadan asılı olmağımız strateji səhvdir: "Ermənistanın təhlükəsizlik arxitekturası 99, 999 faiz Rusiyaya bağlıdır. Elə silah və sursat əldə etməyimizdə də eyni vəziyyətdir. Bu gün – Rusiyanın özünün silah-sursata ehtiyacı olduğu zaman isə vəziyyət başqadır. Hətta, Rusiya Federasiyası istəsə belə, Ermənistanın təhlükəsizliyini təmin etmək iqtidarında deyil. Ermənistan öz təhlükəsizliyini konkret olaraq bir ünvana etibar etmək kimi strateji səhvin acı nəticələrini "daddıqdan sonra" biz güvənc yerimizi şaxələndirmək barədə düşünməyə başlamışıq."



İndi necə başa düşək? Əvvəl deyir ki, Rusiya özü getmək istəyir, sonra da öz dediyini inkar edir ki, biz təhlükəsizliyimizi bir neçə mərkəzə etibar etmək istəyirik.

Hətta, "hərdəmxəyal" deyimi də bu adamın fərdi keyfiyyətlərini tam ifadə etmir.

***İ.QAÇAYEV***
***XQ***

TƏQVİM YADA SALIR

# Görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsi anılıb

**Sentyabrın 19-da AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi İkinci Fəxri xiyabanda görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoyublar.**



Anım mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan şərqşünaslığında ərəbşünaslıq sahəsinin çox inkişaf etdiyini bildirərək, onun ədəbiyyat istiqamətinin fundamentinin görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın elmi əsərləri ilə qoyulduğunu, Aida xanımın bu istiqamətin inkişafında əvəzsiz xidmətlərinin olduğunu qeyd edib. Professor Aida İmanquliyevanın Azərbaycan ərəbşünaslığında bir məktəb yaratdığını deyən akademik İsa Həbibbəyli ərəb məhcər ədəbiyyatının tədqiqi ilə ərəbşünaslıqda yeni bir səhifə açan alimin fundamental tədqiqatlarının Azərbaycan və dünya şərqşünaslığını zənginləşdirdiyini vurğulayıb.

AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva 31 il öncə dünyasını dəyişmiş böyük alimin keçdiyi həyat yolundan danışıb, Aida xanımın həm bir alim kimi dünya şərqşünaslıq elminə böyük töhfələr verdiyini, həm də bir qadın, ana, həyat yoldaşı kimi Azərbaycan qadınına örnək bir ömür yaşadığını qeyd edib.

Aida xanımın elmi fəaliyyətinin hər bir dövrünü xatırladan Gövhər Baxşəliyeva, onun müasir ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə açdığını, Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alim olduğunu söyləyib. Böyük alimin qoyduğu zəngin elmi irslə yanaşı, elmi kadrların hazırlanmasında göstərdiyi xidmətlərdən söz açan Gövhər Baxşəliyeva onun Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı bir təşkilatçı kimi özünü göstərdiyini vurğulayıb.

Daha sonra Şərqşünaslıq İnstitutunun əməkdaşlarından filologiya üzrə fəlsəfə doktoru Bəşarət Bəşirova və Orxan Nəcəfov çıxış edərək Aida İmanquliyevanın Azərbaycan ərəbşünaslığına böyük töhfələr verdiyini söyləyib, görkəmli alimin itkisinin tək şərqşünaslığın deyil, bütövlükdə Azərbaycan elminin böyük itkisi olduğunu qeyd ediblər.

***XQ***

# Ombudsmandan: Ermənistanın mina terroru hərbi cinayətdir

**İşğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən basdırılmış minalar hərbi qulluqçularımızın və mülki şəxslərin həyatına son qoymaqda davam edir. XQ xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın bəyanatında qeyd edilib.**

Bəyanatda bildirilib ki, Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən törədilən mina terroru azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri ilə məşğul olan mülki şəxslərin həyat və sağlamlıqlarına təsir etməklə yanaşı, nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsinə və keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı prosesinə ciddi maneə yaradır.

Azərbaycan tərəfi işğaldan azad edilmiş ərazilərimizdə basdırılmış minaların düzgün xəritələrini dəfələrlə tələb etməsinə baxmayaraq, Ermənistanın bu xəritələri təhvil verməkdən imtina etməsi bu ölkənin günahsız insanların qətlində maraqlı olduğunu, beynəlxalq humanitar hüququn normalarına etinasız münasibətini bir daha sübut edir.



"Ombudsman olaraq, mülki şəxslərin həyatını itirməsinə səbəb olan, regionda sülh quruculuğu prosesinə xələl gətirən bu təxribatı şiddətlə pisləyir, beynəlxalq ictimaiyyəti dəqiq mina xəritələrinin ölkəmizə təqdim edilməsi üçün Ermənistana təzyiq göstərməyə və bu ölkənin törətdiyi mina terroruna reaksiya verməyə çağırıram", - deyə Səbinə Əliyeva vurğulayıb.

# Qərbi Azərbaycan İcması: mina terroruna son, xunta rejiminə ölüm!

**XQ Qərbi Azərbaycan İcmasının dünən yaydığı məlumatları təqdim edir:**

**İcma Avropa İttifaqının ali nümayəndəsi Cozef Borelin qərəzli açıqlamasını qətiyyətlə rədd edir. C.Borel xüsusilə törədilmiş mina terrorunu pisləməli, Ermənistan silahlı qüvvələrinin qalıqlarının Azərbaycanın suveren ərazilərindən çıxarılmasına, qanunsuz erməni silahlı dəstələrinin tərksilah olunmasına, oyuncaq xunta rejiminin ləğvinə çağırmalı idi. Ancaq o, belə mövqe ilə Avropa İttifaqını Azərbaycan cəmiyyətində gözdən salır.**

Qərbi Azərbaycan İcması Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Annalena Berbokun qərəzli açıqlamasını qətiyyətlə rədd edir.

Almaniya Xarici İşlər naziri bu gün törədilmiş mina terrorunu pisləməli, Ermənistan silahlı qüvvələrinin qalıqlarının Azərbaycanın suveren ərazilərindən çıxarılmasına, qanunsuz erməni silahlı dəstələrinin tərksilah olunmasına, oyuncaq xunta rejiminin ləğv edilməsinə çağırmalı idi: "Bundan əlavə, xatırladırıq ki, Almaniya Ermənistandan azərbaycanlıların total etnik təmizləməyə məruz qalmasına və Ermənistan hökumətinin onların geri qayıtmasına imkan verməməsinə hələ də münasibət bildirməyib. Nazir Berbokun məsələlərə dini və etnik təəssübkeşlik prizmasından baxması yanlışdır, davamlı sülhün və insan hüquqlarına hörmətin bərqərar edilməsinə əngəl törədir".

***

**Qərbi Azərbaycan İcması qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən Xocavənddə yerləşdirilən minanın partlaması ilə törədilən terror aktını kəskin şəkildə pisləyib:** "Hesab edirik ki, terror aktlarının törədilməsi üçün azad edilmiş ərazilərimizdə çəkilən yolların seçilməsi heç də təsadüfi deyildir. Bu, əvvəlcədən planlaşdırılmış, azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin, keçmiş məcburi köçkünlərin qayıdışının qarşısının alınmasına, qorxu və ruh düşkünlüyünün yaradılmasına hesablanmış xain bir addımdır. Görünən odur ki, Ermənistan son aylar Azərbaycana qarşı başlatdığı diplomatik və informasiya müharibəsini artıq hərbi müstəviyə keçirir. Ermənistan nəinki bizim öz dədə-baba yurdlarımıza qayıdışımızla əlaqədar Qərbi Azərbaycan İcması ilə dialoq aparmaq niyyətindədir, əksinə Azərbaycana qarşı ərazi iddiasını "Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi məqsədilə beynəlxalq mexanizmin təsis olunması" adı altında davam etdirir".

Qeyd olunub ki, terror aktlarının dünya liderlərinin iştirakı ilə BMT Baş Assambleyasının ümumi müzakirələrinin başlandığı gün törədilməsi Ermənistanın və onun Azərbaycanın suveren ərazilərində yaratdığı oyuncaq xunta rejiminin azğınlaşmasını, reallıq hissini tam itirdiyini göstərir: "Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti bölgəni qana çalxalamaq niyyəti güdən bu təhlükəli siyasətdən çəkinmək üçün Ermənistana təzyiq göstərməyə çağırır".

***

**Ermənistan hökuməti beynəlxalq hüquqa və öhdəliklərinə əməl etməli, öz ordusunun qalıqlarını Azərbaycanın suveren ərazisindən çıxarmalı, qanunsuz erməni silahlı dəstələri tərksilah edilməli və xunta rejimi ləğv olunmalıdır. Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.**

Sənəddə qeyd olunub ki, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qanunsuz şəkildə qalmaqda olan Ermənistan silahlı qüvvələri 2023-cü il sentyabrın 19-da erkən saatlarda Xocavənd rayonunda minalardan istifadə etməklə törətdiyi diversiya hücumları nəticəsində dördü polis, ikisi mülki şəxs olmaqla, altı nəfər azərbaycanlını qətlə yetirib. Erməni hərbi birləşmələrinin bundan əlavə, Azərbaycan Ordusunun mövqelərini atəşə tutması nəticəsində iki hərbi qulluqçu yaralanıb. Bütün bunlar Ermənistanın Azərbaycan ərazilərindən qoşunlarını tam çıxarmaq öhdəliyini yerinə yetirməkdən imtina etməsi, separatizmi dəstəkləməsi, Azərbaycanın reinteqrasiya səylərini sabotaj etməsi və Azərbaycana qarşı beynəlxalq miqyasda kütləvi qarayaxma kampaniyası aparması kontekstində baş verir.

"Biz beynəlxalq ictimaiyyəti Ermənistanın mono-etnik dövlətçilik və ərazi ekspansiyası ideologiyasından əl çəkməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı qəsdini dayandırması və Ermənistandan qovulmuş azərbaycanlıların ləyaqətlə və təhlükəsiz şəkildə öz evlərinə qayıtmasına şərait yaratması üçün bu dövlətə təzyiq etməyə çağırırıq", - deyə İcmanın bəyanatında vurğulanıb.

# MSK seçki dairələri ilə bağlı qərar qəbul edib

**Dünən Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən XQ-yə bildirilib ki, əvvəlcə Komissiyanın bu il mayın 26-da keçirilmiş iclasının protokolu təsdiq edilib. Sonra seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsi ilə bağlı məsələyə baxılıb.**



Diqqətə çatdırılıb ki, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki dairələri üzrə seçicilərin sayının orta təmsilçilik normasına uyğunlaşdırılmasını təmin edir, bu məqsədlə ardıcıl və sistemli tədbirlər görür, mütəmadi olaraq seçki dairələrinin sxemi və onun qrafik təsvirini nəzərdən keçirir, qanunvericiliyin tələblərini rəhbər tutaraq lazımi addımlar atır.

Seçicilərin sayının artım dinamikasının təhlilinə əsasən hazırda seçki dairələrində orta təmsilçilik normasının Seçki Məcəlləsinin müvafiq maddələrinə uyğun tənzimlənməsinə zərurət yarandığından, seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq olunması üçün hüquqi əsaslar yaranıb. İclasda bununla bağlı qərar qəbul olunub.

# Rusiyanın İrəvandakı səfirliyi Ermənistan XİN-ə nota göndərib

**Rusiyanın İrəvandakı səfirliyi Ermənistan XİN-ə nota göndərib. XQ xəbər verir ki, bu barədə səfirlikdən TASS agentliyinə məlumat verilib.**

İrəvanda etirazçılar Rusiya səfirliyini tamamilə mühasirəyə alıblar. Bununla əlaqədar səfirlik fəaliyyətini davam etdirə bilmir və tədbir görülməsi üçün Ermənistan XİN-ə nota göndərib.

# "Ağıllı kənd" yeni həyat tərzidir

## Buradakı rahatlıq doğma yurda qayıdanlara 30 illik əzabları unutdurur

***Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq 2026-cı ilin sonuna qədər 34 min 600 ailənin köçürülməsi nəzərdə tutulur. Bu istiqamətdə bərpa ediləcək şəhər, kənd və qəsəbələrin konkret siyahısı təsbit olunub. Layihə çərçivəsində ən önəmli komponentlərdən biri də "ağıllı kənd" və "ağıllı şəhər"lərin tikintisidir. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri kimi mühüm prinsiplər üzərində qurulacaq. Bu isə məskunlaşmanın özünəməxsus yeni modelini təşkil edəcək.***

Artıq məlumdur ki, ilk belə kənd Zəngilan rayonunun Ağalı kəndində salınıb, sakinlərin istifadəsinə verilib və orada 133 ailə (649 nəfər) yaşayır. Növbəti belə bir kənd Azərbaycan dövlətinin öz maliyyəsi hesabına Füzuli rayonunun Dövlətyarlı kəndində tikiləcək. Kənddə bir ay ərzində torpaq işlərinə başlanılacaq.

**Bu barədə Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Leyla Sarabi XQ-ya müsahibəsində bildirdi:**

– İşğaldan azad edilmiş Füzuli rayonunun Dövlətyarlı kəndi yenidən qurulacaq. Kənddə layihələndirmə işləri yekunlaşmaq mərhələsindədir. Bir ay ərzində torpaq işlərinə başlanılacaq. Dövlət satınalmaları proseduru artıq işə başlayıb. Kənd ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpa olunacaq. Onun ərazisi əhalinin perspektiv inkişafı nəzərə alınmaqla yalnız mövcud olan Dövlətyarlı kəndinin əvvəlki ərazisində deyil, bir qədər şimala doğru genişləndirilib. Ümumilikdə, "Ağıllı kənd"in ərazisi 323 hektar sahəni əhatə edir. Birinci növbədə 450 evin yerləşdiyi ərazinin layihələşdirilməsi nəzərdə tutulub. Bu ərazi isə 137,1 hektar təşkil edir.



Həmin ərazidə ilkin olaraq xeyli sayda istismara yararsız müxtəlif təyinatlı dağılmış tikililərin sökülərək yerində müasir tələblərə cavab verən, izolyasiyalı müasir tikinti materiallarından istifadə olunmaqla 1 və 2 mərtəbəli fərdi yaşayış evləri, 1 və 2 mərtəbəli sosial-məişət və digər xidmət müəssisələrinin yerləşdirilməsi üçün qeyri-yaşayış binalarının, uşaq bağçalarının və məktəb binalarının tikinisi nəzərdə tutulub.

**– Yuxarıda qeyd edildiyi kimi, ilkin olaraq köçürüləcək ailələrin mənzillə təmin edilməsi üçün 450 fərdi yaşayış evlərinin tikintisi nəzərdə tutulur. Sonrakı mərhələdə neçə ev tikiləcək? Həyətyanı torpaq sahəsi nəzərdə tutulurmu?**

– Kəndə ilkin olaraq köçürüləcək ailələrin mənzillə təmin edilməsi üçün 150 ədəd 2 otaqlı, 150 ədəd 3 otaqlı, 100 ədəd 4 otaqlı, 50 ədəd 5 otaqlı olmaqla 450 ədəd fərdi yaşayış evləri tikiləcək. Bu evlərin hər biri üçün sahəsi 0,12 hektar olan həyətyanı torpaq sahəsi nəzərdə tutulub. Bundan başqa, ev quşlarının və təsərrüfat alətlərinin saxlanılması üçün hər evin həyətində sahəsi 16 kv.metr olan təsərrüfat tikilisi (anbar və hin) sakinlərin ixtiyarına veriləcək.

Birinci mərhələ başa çatdıqdan sonra əlavə 300 ev tikiləcək. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaq. Bu evlərdə yaşayanlar yüksəksürətli internetdən istifadə edəcəklər. "Ağıllı kənd"də İKT geniş istifadə olunduğundan məlumatların təhlükəsizliyi və gizliliyinə xüsusi diqqət yetiriləcək, sakinlərə İKT avadanlıqlarından istifadə mütəmadi olaraq öyrədiləcək. Onlar kəndin idarəedilməsində də yaxından iştirak edəcəklər.

**– Tikiləcək digər binalar barədə də məlumat verərdiniz?**

– Ərazidə əhaliyə sosial-məişət və digər xidmət müəssisələrinin yerləşdirilməsi üçün 16 ədəd 1 mərtəbəli, 4 ədəd 2 mərtəbəli qeyri-yaşayış (ictimai) binası tikiləcək. Bu binaların 1-ci mərtəbəsində ərzaq və qeyri-ərzaq məhsullarının satışı üçün sahələr, çayxana, poçt, sahə inspektoru, elektron və sosial xidmətlər üçün sahələr, aptek, idman-sağlamlıq mərkəzi, 2-ci mərtəbəsində isə müxtəlif özəl və dövlət qurumlarının xidmət göstərməsi üçün otaqlar olacaq. Yol və meydançalar asfaltla, səkilər isə tavalarla örtüləcək. Kəndin yaşıllaşdırılması da nəzərdə tutulub.

Ümumtəhsil müəssisəsinə olan tələbatı ödəmək məqsədilə 360 şagird yerlik orta məktəb, məktəbəqədər təhsil müəssisələrinə olan tələbatı ödəmək üçün isə 120 yerlik uşaq bağçası tikilərək istifadəyə veriləcək. Yeni köçürülmüş əhali üçün bütün infrastruktur şərait: – dövlət xidmətləri mərkəzi, məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri və sair imkanlar mövcud olacaq.

**– Kənd sakinlərinin məşğulluğu necə təmin olunacaq?**

– Kəndin ətrafında "Ağıllı kənd" təsərrüfatı sahəsi yaradılacaq. Təsərrüfatda müasir informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə olunacaq. Bu, fermerlərin daha düzgün qərarlar qəbul etməsinə, dəqiq idarəçilik, resursların qənaətli istifadəsinə imkan verəcək.

Qeyd edim ki, bu gün bütün dünyada kənd təsərrüfatında artıq əl əməyindən istifadə minimuma enib, aqrar sektorda daha çox yeni texnologiyalardan istifadə olunur. Sahələrin dərmanlanması dronlar vasitəsilə həyata keçirilir, məhsul yığımı kompüterləşdirilmiş texnikalar vasitəsilə aparılır, su resurslarından qənaətlə istifadə üçün müasir suvarma sistemlərindən istifadə olunur. Təsərrüfat sahələrinin bütün kritik nöqtələrində quraşdırılmış sensorlar torpaq şəraiti, hava və s. haqqında məlumat toplayır və ötürür. Toplanan məlumatlar sistem tərəfindən təhlil edilir və izlənilən obyektin və ya prosesin vəziyyəti barədə nəticələr çıxarılır. Ən əsası bütün bu proseslər bir mərkəzdən idarə edilir. Dövlətyarlıda da belə olacaq.

Texnoloji yeniliklər əsasında "Ağıllı kənd təsərrüfatı" konsepsiyasının reallaşdırılması isə mövcud əkinçilik sistemlərinin struktur zəifliklərini aradan qaldırmağa, məhsuldarlığı artırmağa, xərcləri optimallaşdırmağa, rəqabətçi və davamlı nəticələr əldə etməyə imkan verəcək. Bu da gələcəkdə ölkəmizdə ərzaq təhlükəsizliyinin inkişafına böyük töhfədir.

Ümumiyyətlə, "Ağıllı kənd" layihəsi kəndə qayıdacaq insanların həyat şəraitinin yaxşılaşmasına xidmət edəcək. Sakinlər üçün kifayət qədər iş yerləri olacaq. Sakinlərin bir hissəsi kənddəki özəl və dövlət qurumlarında çalışacaq.



Kəndin yerləşmə coğrafiyası və təbii üstünlükləri nəzərə alınmaqla bir neçə sektor üzrə müəssisələrin yaradılması da nəzərdə tutulub. Belə ki, kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır. Bu müəssisələrdə 40 daimi, 300-dək mövsümi iş yeri yaradılacaq. Eyni zamanda, Köndələnçay su anbarı əsasında ağıllı akvakultura sistemlərinin tətbiqi hesabına balıqçılıq təsərrüfatının qurulması da nəzərdə tutulub. İstehsal olunacaq balıq məhsullarının ixrac ediləcəyi gözlənilir. Kənddə quşçuluq təsərrüfatı da yaradılacaq, ilkin mərhələdə 85 daimi iş yeri olacaq.

Kəndin iqlimi və relyef üstünlükləri nəzərə alınaraq turizm infrastrukturunun formalaşdırılması və otel infrastrukturunun yaradılması nəzərdə tutulub.

**– Enerji təminatı hansı mənbələr hesabına ödəniləcək**

– Kənddə xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə günəş paneli tarlası salınacaq. İnvestisiya layihəsinin gücü 50 meqavat olacaq. Burada 20 daimi iş yeri yaradılacaq. Bütün yaşayış evlərinin, sosial obyektlərin, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesinin alternativ enerji mənbələri ilə təmin ediləcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Türk birliyinin iqtisadi qüdrəti yüksəlir

**Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) fəaliyyətindən danışarkən Azərbaycanın bu qurumun bütün fəaliyyəti dövründə fəal olduğunu vurğulayıb. Dövlət başçısı, eyni zamanda geniş coğrafiyaya, zəngin təbii sərvətlərə, o cümlədən enerji ehtiyatlarına, bəzi ölkələrin, hətta güclü hərbi imkanlara malik olmaları isə yaxın gələcəkdə TDT-yə üzv dövlətlər arasında siyasi-iqtisadi əməkdaşlığın daha da möhkəmlənəcəyi əminliyi yaratdığını bildirib.**

Azərbaycan lideri çıxışlarında ortaq köklərə, dilə, dinə, ortaq maraqlara əsaslanan TDT-nin hər zaman möhkəmlənməyə zəruri ehtiyacı olduğunu xatırladaraq bu istiqamətdə ölkəmiz tərəfindən bir çox tədbirlər görüldüyünü qeyd edib, hazırda da bu istiqamətdə daha önəmli addımlar atıldığını diqqətə çatdırıb. Ölkə rəhbəri bu əminliyinin təsadüfi olmadığını vurğulayaraq deyib: “Bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və bu birliyi həm tarix, həm də mədəniyyət, adət-ənənələr diktə edir...”.

Təşkilatda təmsil olunan ölkələr arasında ötən müddətdə həm çoxtərəfli, həm də ikitərəfli formatlarda əməkdaşlıq əlaqələri qurulub. İndiyədək vaxtaşırı iqtisadi münasibətlər çərçivəsində bu birliyə üzv dövlətlərin müvafiq qurumlarının yüksək səviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes forum gerçəkləşdirilib. Həmin tədbirlərdə quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələri təqdim olunub. O cümlədən investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlıq üzrə işçi qruplarının yaradılması haqqında qəbul edilən qərarlar müsbət nəticələrlə diqqət çəkib.



Bütün bunlar statistik göstəricilərdə də öz ifadəsini tapıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “Türk iqtisadi icmalı”nın 2023-cü ilin ilk sayına əsasən, 2021-ci il üzrə türk dövlətlərində ÜDM 1 trilyon 383 milyard dollar, ticarət dövriyyəsi isə 8 milyard 56 milyon dollar təşkil edib. Cari ilin ilk rübündə Özbəkistan iqtisadiyyatı 5,5 faiz, Qazaxıstan iqtisadiyyatı 4,9 faiz, Qırğızıstan iqtisadiyyatı 4,6 faiz, Türkiyə iqtisadiyyatı 4 faiz, Azərbaycan iqtisadiyyatı isə 0,4 faiz böyüyüb.

2022-ci ildə dövlət büdcəsinin gəlirlərinin artımı baxımından isə ən yaxşı göstərici 100,6 faizlə Türkiyədə qeydə alınıb. Qardaş ölkənin dövlət büdcəsinin gəlirləri 147 milyard 122 milyard 2 milyon ABŞ dolları olub. Türkiyə bu ilin yanvar-mart aylarında da dövlət büdcəsinin gəlirlərinin artımında fərqlənib, 75,1 faiz təşkil edən 53 milyard 812 milyon dollar məbləğində gəlirlə liderlik mövqeyini saxlayıb.

Xarici ticarətdə ən yüksək saldoya Qazaxıstan (ticarət balansı 4 milyard 758 milyon dollar) və Azərbaycan (ticarət balansı 4 milyard 209 milyon dollar) malik olub. Bu dövr ərzində TDT-nin üzv ölkələrinin hər birində əsas kapitala yönələn vəsaitlərdə də artım müşahidə edilib.

“Türk iqtisadi icmalı”nın sözügedən sayında ilk dəfə olaraq türk dünyasından keçən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri də göstərilib. Həmin dəhlizlərin arteriyalar üzrə şaxələndirilməsi isə Avrasiya regionunda nəqliyyat daşımalarında türk dünyasının mövcud potensialını göstərib.

Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Rəsmi Bakı türk dövlətlərinin inteqrasiyası üçün fəal siyasi təşəbbüslərlə çıxış edir, iqtisadi maraqların uzlaşdırılması məqsədilə koordinasiyanın formalaşmasını gerçəkləşdirir. Bu, respublikamızın türk dövlətləri ilə iqtisadi münasibətlərində özünü aydın nəzərə çarpdırır. Məsələn, 2022-ci ildə Azərbaycanın Qazaxıstanla ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 4,4 dəfə artaraq 135 milyon 799 min dollardan 598 milyon 486 min dollaradək yüksəlməsi, Türkmənistanla dövriyyədə 5,1 dəfə artım qeydə alınması bunun bariz nümunəsidir.

Yeri gəlmişkən, ölkəmizin Türkmənistanla qarşılıqlı ticarətinin həcmi 2021-ci ildəki 105 milyon 23 min dollardan 2022-ci ildə 535 milyon 397 min dollara çatıb. Özbəkistanla ticarətdəki 64 faizlik artım birgə dövriyyəni 111 milyon 903 min dollardan 2022-ci ildə 183 milyon 307 min dolaradək artırıb.

Bu dövrdə Mərkəzi Asiyanın digər türk dövləti olan Qırğızıstanla da ticarət dövriyyəmizdə artım qeydə alınıb. Azərbaycanla bu ölkə arasındakı dövriyyə ötən il 17 faiz artaraq 9 milyon 18 min dollardan 2022-ci ildə 10 milyon 809 min dollaradək yüksəlib. Qardaş Türkiyə ilə ticarət dövriyyəmiz ötən il 6 milyard dollara yaxınlaşıb: 2021-ci ildə 4 milyard 661 milyon dollar olan ticarət dövriyyəsi 2022-ci ildə 5 milyard 842 milyon dolaradək yüksəlib.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi

**Ayhan SATICI,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmaları Mərkəzinin rəhbəri**



Sözügedən quruma üzv ölkələrin ticarət əməkdaşlığında Türk Dövlətləri Təşkilatı (TDT) hökumətlərinin gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti haqqında məlumat mübadiləsini asanlaşdırmaq məqsədilə təsdiq olunan “Türk Dövlətləri Təşkilatı hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında” və “Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında” sazişlər xüsusi önəm daşıyır. Ümumiyyətlə, bu sənədlər türk dövlətləri arasında ticarət əlaqələrinin inkişafı istiqamətində irəliyə atılan əhəmiyyətli addımlardan biridir. Bunun sayəsində TDT hökumətləri arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatların elektron şəkildə mübadiləsi nəzərdə tutulur.

Adları çəkilən sazişlərin təsdiqlənməsi ilə gömrük dəhlizinin reallaşdırılması Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu olan Orta Dəhlizin də fəaliyyətinə müsbət təsir göstərib. Regionda baş verən yeni geosiyasi və geoiqtisadi reallıqlar çərçivəsində, 2020-2021-ci illərdə Orta Dəhliz üzrə yük daşımaları 350 min tondan 530 min tona qədər artıb. Gömrük dəhlizinin yaradılması isə TDT ölkələri arasında sürətli yük daşımalarını, o cümlədən bu sahədə əldə olunan göstəricilərin daha da yüksəlməsini şərtləndirib.

TDT hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımalarının icra edilməsi regionda nəqliyyat əməliyyatlarını asanlaşdırmaq üçün mühüm addımdır. Bu, həm də TDT ölkələri arasında yük daşımaları prosedurlarının asanlaşdırılması ilə yanaşı, Orta Dəhliz boyunca əməkdaşlığın inkişafına, nəqliyyat, sərhəd və gömrük prosedurlarının rəqəmsallaşdırılmasına əlverişli şərait yaradır. Belə bir şərait isə TDT ölkələri arasında, həmçinin marşrut boyunca tranzit potensialının artmasını və bu prosesdə iştirak edən ölkələrin regional və beynəlxalq nəqliyyat sistemlərinə inteqrasiyanı sürətləndirir.

Azərbaycanın bu proseslərdə fəal şəkildə iştirak etməsini yalnız qəbul edilən qanun layihələri ilə deyil, Zəngəzur Dəhlizi boyunca sürətlə aparılan işlərlə də müşahidə etmək mümkündür. Çünki Zəngəzur Dəhlizi də Orta Dəhliz üzrə Cənubi Qafqazdan keçən marşrutun diversifikasiyasına və türk dövlətləri arasında coğrafi baxımdan bağlantısına xidmət edir.



# Qarabağ tikinti-quruculuq prosesinin ön cəbhəsidir

*8 ayda bu məqsədlə ayrılan 3,2 milyard manatın 60 faizi istifadə olunub*

**Azərbaycan iqtisadiyyatına son 20 ildə ayrılan əsaslı vəsait qoyuluşunun həcmi 100 milyard manatdan çox olub. Nəticə etibarilə ölkə iqtisadiyyatının quruluşunda əhəmiyyətli dəyişikliklər əldə edilib, geniş miqyasda sosial-mədəni obyektlər istifadəyə verilib, irimiqyaslı infrastruktur layihələri həyata keçirilib. Naxçıvan Muxtar Respublikasında, həmçinin Sumqayıt, Gəncə, Mingəçevir, Neftçala, Masallı və digər şəhər və rayonlarda sənaye məhəllələri, texnoparklar yaradılıb, iri kimya, maşınqayırma, yüngül sənaye obyektlərinin istifadəyə verilməsi ilə bağlı intensiv işlər görülüb, innovasiya xarakterli texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilib.**

Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, hesabat dövründə tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilən inşaat işlərinin 80,3 faizini tikinti, yenidənqurma və genişləndirmə, 6,4 faizini əsaslı təmir, 8,1 faizini cari təmir, 5,2 faizini isə digər layihə işləri təşkil edib.

Xarici ölkələr və beynəlxalq təşkilatların əsas kapitala yönəldilən vəsaitinin 2 milyard 285 milyon manatı (90,4 faizi) Birləşmiş Krallıq, Türkiyə, ABŞ, Fransa, Yaponiya, Rusiya, İsveçrə və Norveç sərmayədarlarına məxsus olub. Ümumi inşaat işlərinin 88,8 faizi isə qeyri-dövlət tikinti müəssisələri tərəfindən yerinə yetirilib. Cari ilin yanvar–avqust aylarında İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və Kənd Təsərrüfatı Nazirliyinin yeni inzibati binaları, “Bakı KOB evi”, “STEAM İnnovasiya Mərkəzi”, “Diamed” dərman istehsalı zavodu istifadəyə verilib.

Bütün bunlarla bərabər, sözügedən dövrdə Samux Rayon Mərkəzi Xəstəxanasının, Cəlilabadda Peşə Təhsili mərkəzlərinin yeni binasının, Bərdədə Qarabağ Regional DOST və Qarabağ Regional Peşə Hazırlığı müəssisələrinin tikintisi başa çatdırılıb.

Respublikada tikinti layihələrinin uğurlu icrasından bəhs edərkən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa-quruculuq tədbirlərinin davamlı şəkildə genişmiqyaslı xarakter almasını deyə bilərik. Bununla əlaqədar son iki il ərzində işğaldan azad olunan ərazilərdə təkcə yol infrastrukturunun qurulması ilə bağlı görülən işləri xatırlatmaq istərdik.

Əvvəla onu bildirək ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrasına dair Tədbirlər Planına əsasən, 2026-cı ilədək ümumi uzunluğu 2264,5 kilometr təşkil edən 20 avtomobil yolu layihəsinin və Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar qazma və torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub. Bu layihələrdən uzunluğu 28,5 kilometr olan Tərtər–Çaylı–Suqovuşan–Talış avtomobil yolu 2020-ci ildə, uzunluğu 101,5 kilometr təşkil edən “Zəfər yolu” 2021-ci ildə inşa edilib. 2022-ci ildə Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun (uzunluğu 22 kilometr, 2-3 hərəkət zolaqlı) tikintisi başa çatdırılıb.

Düşməndən təmizlənən yaşayış sahələrində ən müasir infrastrukturun yaradılması və mədəni-tarixi abidələrin bərpası ilə bağlı genişmiqyaslı tədbirlər bu ilin ötən aylarında da uğurla reallaşdırılıb. Bunu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa və yenidənqurulmasına dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artırılması da aydın göstərir. Belə ki, əgər 2021-ci ildə 2,2 milyard manat, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılmışdısa, cari ilin büdcəsindən bu məqsədlə daha 5 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulur. Artıq həmin vəsaitin 60 faizinin istifadə olunması isə işğaldan azad edilən ərazilərimizin bərpa və yenidənqurulması layihələrinin sürətlə aparılmasından xəbər verir.

Qarabağ və Şərqi Zəngəzurun bərpasından söz düşmüşkən, xatırladaq ki, cari il büdcədən Böyük Qayıdışın təmin edilməsi üçün zəruri infrastruktur layihələrinin icrasına 2 milyard 986 milyon manat yönəldilib. Hesabat dövründə bu bölgənin energetika sisteminin gücləndirilməsi diqqətdə saxlanılıb. Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan Reabilitasiya Proqramı çərçivəsində sözügedən sahə əsaslı şəkildə müasirləşdirilib, “itirilmiş” generasiya gücləri bərpa edilib. Buna misal olaraq cari ilin yanvar–avqust aylarında “Cəbrayıl”, “Hadrut”, “Qorçu”, “Laçın” yarımstansiyaları, “Qamışlı”, “Meydan”, “Çıraq-1”, “Çıraq-2”, “Soyuqbulaq”, “Mişni” və “Alxaslı” kiçik su elektrik stansiyaları istismara verilib.

Bu gün düşməndən təmizlənən ərazilərimizdə 14 avtomobil yolu tikilir ki, onlardan 8-inin çəkilişinin cari ildə yekunlaşacağı nəzərdə tutulur. İnşaat işləri davam edən Füzuli–Hadrut, Hadrut-Tuğ-Azıx mağarası, Bərdə-Ağdam, Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan, Kəlbəcər və Laçın rayonları ərazisində reallaşdırılan layihələrin isə son mərhələsi həyata keçirilir.

İnşa edilməkdə olan Xudafərin–Qubadlı–Laçın, Şükürbəyli–Cəbrayıl–Hadrut, Ağdam–Füzuli, Əhmədbəyli–Füzuli–Şuşa, Əhmədbəyli–Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd, Kəlbəcər–Laçın və Toğanalı–Kəlbəcər–İstisu yol layihələrinin isə növbəti illərdə yekunlaşdırılacağı bildirilir.

Hazırda düşməndən təmizlənən yaşayış sahələrində mədəni-tarixi abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlər sürətlə gerçəkləşdirilir. Təkcə Şuşa şəhərindəki Yuxarı Gövhər Ağa məscidi, Saatlı məscidi, Milli Xalça Muzeyinin Şuşa filialı, Mehmandarovların malikanə kompleksi kimi tarixi abidələrin cari ilin 8 ayı ərzində əvvəlki görkəminə qaytarılması Qarabağın sülh və əməkdaşlıq bölgəsinə çevrilməsini, həmçinin iqtisadi inkişafını şərtləndirir.

Bütün bunlar bir daha onu göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı Azərbaycan dövləti üçün ən prioritet məsələdir. Prezident İlham Əliyev çıxışlarının birində bu məsələdən bəhs edərkən deyib: “Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik”.

Dövlətimizin başçısının bu sözləri deməyə əsas verir ki, ölkəmizin zəngin potensial imkanları düşməndən təmizlənən ərazilərin bərpası və yenidən qurulması istiqamətində səfərbər edilib.

***Mirbağır QULİYEV***
***XQ***

# İlin əvvəlindən benzin istehsalı 21,3 faiz çoxalıb

**2023-cü il yanvar–avqust aylarında ölkəmizdə avtomobil benzini istehsalı 951min tona çatıb ki, bu da illik hesablamada 21,3 faiz mühüm artım deməkdir.**

Dövlət Statistika Komitəsinin məlumatında, həmçinin bildirilir ki, neft məhsulları istehsalının ümumi həcmi dəyər ifadəsində təqribən 3 milyard manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13 faiz artım deməkdir. Xüsusən sürtgü yağlarının istehsalı 70,9 faiz, neft koksunun istehsalı 37,8 faiz, qazoyl (dizel yanacağı) istehsalı 22,4 faiz, neft bitumu istehsalı 33,4 faiz, mazut istehsalı isə 92,3 faiz artıb.




Qeyd edək ki, 2023-cü ilin yanvar–avqust aylarında Azərbaycanda kondensatla birlikdə 20,2 milyon ton xam neft hasil olunub ki, bunun təqribən 20,1 milyon tonu əmtəə neftinin payına düşüb. Bununla Azərbaycan kondensatla birlikdə xam neft hasilatını illik hesablamada 7,5 faiz azalıb. Həmçinin əmtəə neftinin hasilatı il ərzində 7,6 faiz azalıb.

Azərbaycanda neft hasilatının 65 faizdən çoxu “Azəri–Çıraq–Günəşli” yataqlar blokunun payına düşür.

***XQ***




# “Wabtec” şirkəti Transxəzər marşrutunu dəstəkləyir

*Dünya nəhəngi Qazaxıstanda nəqliyyat sektoruna 1 milyard dollar sərmayə qoyub*

**Amerikanın tanınmış “Wabtec” şirkəti Qazaxıstanın nəqliyyat sənayesinə təxminən 1 milyard dollar investisiya yatırmaq niyyətini bildirib. Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev isə bu sərmayənin ölkəsinin nəqliyyat və logistika sisteminin, eyni zamanda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) inkişafına mühüm töhfə verəcəyini vurğulayıb.**

Bununla əlaqədar Nyu-Yorkda şirkətin rəhbəri Rafael Santana ilə görüşündən sonra Qasım-Jomart Tokayevin mətbuat xidməti məlumat yayıb: “R.Santana dövlətimizin başçısına Qazaxıstanda hidrogen texnologiyalarından istifadə edən lokomotivlərin və onların komponentlərinin istehsalının işə salınması, mühəndislik mərkəzinin yaradılması və texnologiya transferi üzrə hazırlanmaqda olan investisiya layihələri barədə məlumat verib. Qazaxıstan lideri şirkətin nəqliyyat və logistika sənayesinə təxminən 1 milyard dollar sərmayə yatırmaq planını alqışlayıb və bunun TBNM-nin inkişafına töhfə verəcəyini və digər infrastruktur layihələrinin icrasında mühüm rol oynayacağını qeyd edib”.

Bundan əlavə, Qazaxıstan liderinin ABŞ-a səfəri çərçivəsində “Qazaxıstan Dəmir Yolları” şirkəti ilə nəqliyyat və logistika sahəsində dünya liderlərindən biri olan “Wabtec” şirkəti arasında strateji əməkdaşlıq haqqında çərçivə sazişi imzalanıb.

***XQ***

# Pambıq ipliyin ixracı artıb

**Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin 8 ayında 46 min ton pambıq lifi, 7 min 443 ton pambıq ipliyi ixrac edilib. İxrac edilən pambıq lifinin dəyəri 84 milyon dollar, pambıq ipliyinin dəyəri isə 22 milyon dollar olub.**

Xatırladaq ki, 2022-ci ilin eyni dövründə dəyəri 145,2 milyon dollar olmaqla 62 min ton pambıq lifi, məbləği 26,3 milyon dollar olmaqla isə 6min 346 ton pambıq ipliyi ixrac edilib.



***XQ***

BEYNƏLXALQ HƏYAT

# Hindistan və Kanada arasında diplomatik savaş

**Hindistan və Kanada arasında ciddi diplomatik qalmaqal yaşanır. Belə ki, Kanadanın baş naziri Castin Trüdo bildirib ki, bu ilin iyun ayında Hindistan agentləri Britaniya Kolumbiyasında siqh icmasının liderini öldürüblər. Hindistan ittihamı "absurd" adlandırır. Vəziyyət o həddə çatıb ki, hər iki ölkə diplomatlarını qarşılıqlı şəkildə ölkədən çıxarıblar.**





Kanadanın baş naziri Castin Trüdo bazar ertəsi bildirib ki, Hindistan hökumətinin agentləri iyun ayında Britaniya Kolumbiyası ştatında yaşayan siqh icmasının liderini öldürüblər. Mütəxəssislərin fikrincə, bu, iki ölkə arasında münasibətləri daha da gərginləşdirəcək ciddi ittihamdır. İcmalar Palatasında danışan Trüdo bu ayın əvvəlində G20 sammitində siqh lideri Hardip Sinqh Nijjarın qətlə yetirilməsində Hindistanın iştirakı məsələsini birbaşa baş nazir Narendra Modi ilə görüşdə qaldırdığını söyləyib. O, ittihamların Kanada hökuməti tərəfindən toplanmış kəşfiyyat məlumatlarına əsaslandığını bildirib: "Kanada torpağında Kanada vətəndaşının qətlində xarici hökumətin hər hansı iştirakı suverenliyimizin qəbuledilməz pozulmasıdır". Kanadanın xarici işlər naziri Melani Joli isə açıqlayıb ki, rəsmi Ottova yüksək ranqlı hindli diplomatı ölkədən çıxarıb. Məlumat verilir ki, bu diplomat ölkədəki "Hindistan kəşfiyyat fəaliyyətlərinə şəxsən nəzarət edə bilərdi.

Kanadanın ittihamlarını "absurd" və siyasi motivli adlandıran Hindistanın Xarici İşlər Nazirliyi bildirib ki, Ottova Hindistanın təhlükəsizliyini təhdid edən "xalistanlı terrorçular və ekstremistlər" üçün sığınacağa çevrilib. Hindistan Xarici İşlər Nazirliyi cavab addım kimi, Kanadanın baş diplomatının beş gün ərzində ölkəni tərk etməli olduğunu açıqlayıb. XİN bildirib ki, Hindistan hökuməti "Kanada diplomatlarının ölkənin daxili işlərinə qarışması və onların Hindistan əleyhinə fəaliyyətlərdə iştirakı" ilə bağlı artan narahatlıq keçirir. Qeyd edək ki, Xalistan "Siqh dövlətinin" keçmiş adıdır.

Mütəxəssislər əmindirlər ki, Hindistan hökumətinin Kanadada siyasi sui-qəsddə əli olması ilə bağlı iddia iki ölkə arasında münasibətləri daha da pisləşdirəcək. Bu ayın əvvəlində Kanada Hindistanla bu il imzalanmalı olan ticarət müqaviləsi ilə bağlı danışıqları dayandırıb. Maraqlıdır ki, G20 sammiti zamanı Hindistanın baş naziri Narendra Modi baş nazir Trüdonu rəsmi ikitərəfli görüşlər keçirdiyi liderlər siyahısından çıxarıb.

Castin Trüdo bildirib ki, hind əsilli bir çox kanadalılar, - onlar əhalinin, təxminən, 4 faizini təşkil edirlər, – qətldən qəzəbləniblər və bəzi hallarda şəxsi təhlükəsizliklərindən narahatdırlar. Kanadada təxminən 1,4 milyon hind mənşəli vətəndaş var, onların əksəriyyəti siqhlərdir. Ölkədə müxalif Yeni Demokrat Partiyasının lideri Jaqmit Siqhdir. Qeyd edək ki, siqh Pəncabda geniş yayılmış soyaddır.

Məlumat verilir ki, 45 yaşlı Nijjar Britaniya Kolumbiyası ştatının Surrey şəhərindəki siqh məbədi qarşısında güllələnərək öldürülüb. İyun ayında keçirilən mətbuat konfransında Kanada Kral Atlı Polisinin müstəntiqləri onun maskalı şəxslər tərəfindən pusquya salındığını bildirsələr də, hücumun siyasi motivli olub-olmadığını açıqlamamışdılar. Nijjar Hindistanın Pəncab əyalətinin bəzi hissələrini əhatə edəcək "müstəqil Siqh Xalistan" əyalətinin yaradılmasını müdafiə etməklə tanınırdı və Hindistan onu axtarışda olan terrorçu elan etmişdi.

Xatırladaq ki, sayı 25 milyon olan siqhlər kiçik dini qrupdur, əksəriyyəti Hindistanda yaşayır. 1980-ci illərdə Hindistanda baş verən şiddətli siqh üsyanı bir sıra hökumət rəsmilərinin ölümü ilə nəticələnmişdi. İnsan haqları qruplarına görə, hökumət üsyana işgəncə və məhkəməsiz qətllər də daxil olmaqla, geniş insan hüquqları pozuntuları ilə cavab vermişdi. 1984-cü ildə Baş nazir İndira Qandi hərbçiləri Sıqhin ən müqəddəs yeri olan Amritsardakı Qızıl Məbədə basqın etmək üçün göndərmişdi. Hökumət qarşıdurmalarda yüzlərlə insanın öldüyünü bildirsə də, digərləri ölənlərin sayının minlərlə olduğunu düşünür. Cavab olaraq, Baş nazir İndira Qandini iki siqh mühafizəçisi öldürmüş və minlərlə siqhin öldürüldüyü iğtişaşlara səbəb olmuşdu.

1985-ci ildə Air India aviaşirkətinin Toronto-London reysi ilə uçan təyyarənin partladılması nəticəsində təyyarədə olan 329 nəfərin hamısı həlak olmuşdu. Bu, Kanadanın tarixində ən ölümcül terror hücumu və kütləvi qətliam olaraq qalır. Uzun sürən araşdırma və məhkəmədən sonra Britaniya Kolumbiyasından olan iki siqh separatçısı təyyarə partladılması ilə bağlı ittihamlara, eləcə də Yaponiyada iki nəfərin ölümünə səbəb olan ikinci partlayışa görə bəraət almışdı.

***S.ELAY***
***XQ***

# COVID – 19 pandemiyası bitib, koronavirus isə bizimlə qalıb

## Yeni dalğa təhlükədirmi?

**Müdhiş pandemiya bitdi. Mütəxəssislər isə bildirirlər ki,onun yadigarı koronavirus bizimlə daimi qalacaq, yeni mutasiyaları ilə növbəti yoluxmalara səbəb olacaq. Beləliklə, ümumi narahatlıq davam edəcək.**

Payızın gəlməsi, havaların dəyişməsi ilə insanlar arasında yeni əlamətlərlə özünü biruzə verən xəstəliklər müşahidə edilir. COVID-19-un yeni variantlarının yayılması bir çox ölkədə koronavirus narahatlığını yenidən gündəmə gətirib. Omikronun mutasiyaya uğramış ştamları səbəbindən yeni yoluxma halları artmaqdadır. Yeni ştamlar sürətlə yayılması və yoluxuculuğunun digər ştamlara nisbətən artıq olması səbəbindən Ümumdünya Səhiyyə Təşkilatını (ÜST) ciddi narahat edir. Hazırki vəziyyətlə bağlı təşkilat bütün dünya dövlətlərini erkən və ciddi tədbirlər görməyə çağırıb.



**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov koronavirusun yeni ştamları və ölkəmizdə son həftələrdə müşahidə edilən yoluxmaları barədə qəzetimizə müsahibəsində bildirdi:**

– Koronavirusun "EG.5" ("Eris") variantına yoluxma faktının təsdiqlənməsindən sonra Ümumdünya Səhiyyə Təşkilatı bu barədə geniş açıqlama verib və ölkələri bu məsələni nəzarətdə saxlamağa və lazımı tədbirlər görməyə çağırıb. Mütəxəssis kimi deyə bilərəm ki, digər variantlarla müqayisədə xəstəliyin ötürülmə yolları, klinik əlamətləri və yaxud müalicəyə tabe olmağında heç bir fərq müşahidə olunmur. Lakin digər variantlarla müqayisədə daha yüksək mutasiya qabiliyyətinə malik olduğuna görə yoluxduruculuq qabiliyyəti çoxdur.



Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən "EQ.5" variantı qlobal ictimai səhiyyə qarşısında aşağı riskli olaraq dəyərləndirilib. Buna baxmayaraq, yüksək risk qrupuna daxil olanlar üçün bu bəyanat qorunma tədbirlərini azaltmaq və diqqətsiz davranmağa əsas olmamalıdır. Hospitalizasiya riski yüksək olanlar hər zaman müvafiq tədbirlərlə özlərini virusa yoluxmaqdan qorumağa davam etməlidirlər.

ÜST tərəfindən COVID-19 virusunun yeni ştamı (EG.5) "nəzarətdə saxlanılan variantlar" siyahısından çıxarılaraq "diqqət tələb edən"lər sırasına daxil edilib. Təşkilatın məlumatına görə hazırda virus surətlə yayılmaqda davam edir və iki yeni "Eris" (EG.5) və BA.2.86 ştamları aşkarlanaraq təsdiq edilib.

ÜST, xüsusilə, ABŞ başda olmaqla, Avropa və Asiya ölkələrində geniş yayılan "Eris" ştammı ilə bağlı yeni hesabat dərc edib. Hesabatda bildirilir ki, EG.5 ("Eris") və BA.2.86 COVID-19-un omikron variantının alt növləridir və bütün dünyada yayılan digər variantlarla sıx bağlıdır.

**– Yayılan məlumatlar yenidən həyəcan doğurur: yoluxma, hətta ölüm sayı virus aşkarlanan ölkələrdə artmaqdadır.**

– Doğrudur, ÜST-nın məlumatına görə, son ayda dünya üzrə yoluxanların sayı 38 faiz artıb. Statistikaya görə, Avropada yoluxma sayında artım 39 faiz, Sakit okeanın qərbində 52 faiz, Aralıq dənizinin şərqində isə 113 faiz təşkil edir. Koreya, İtaliya, Böyük Britaniya, Avstraliya və Sinqapurda yoluxma sayında kəskin artım qeydə alınıb. Hazırda ABŞ-da COVID-19-a yoluxma 2020-ci ilin ilk pandemiyasının statistikasına yaxınlaşır. ABŞ-da gündə 650 mindən artıq amerikalıda koronavirus aşkarlanır və yaxın aylarda ölkə əhalisinin 10 faizə yaxının virusa yoluxacağı proqnozlaşdırılır. Ölüm halları avqustla müqayisədə 5 faiz artıb.

Bundan başqa, son həftə ərzində ABŞ-da COVID-19-a görə xəstəxanaya yerləşdirilənlərin sayı 8,7 faiz, ölüm halları isə 4,5 faiz artıb. ABŞ Federal Səhiyyə Təşkilatı amerikalıları COVID-19-a qarşı vaksin olunmağı tövsiyə edib. Eyni zamanda Latviyada yayda test nəticələrinin 5–10 faizi pozitiv olduğu halda, hazırda bu rəqəm artıq 25 faizə yaxınlaşır. Ölkə əhalisinə bir həftə evdə qalmaq və digər şəxslərlə kontakt qurmamaq, küçəyə çıxan zaman isə respiratorlardan istifadə tövsiyə olunub. Rusiyanın Altay vilayətində koronavirusa yoluxma artdığına görə 49 məktəbdə karantin məhdudiyyətləri tətbiq olunub, 6 məktəb isə ümumiyyətlə karantinə bağlanıb. "Surqutneftqaz"da yenidən maska rejiminə keçid müzakirə olunur. Bir sözlə, adını çəkdiyimiz ölkələrdə vəziyyət insanlar arasında gərginlik yaradıb.

**– Bəs Azərbaycanda vəziyyət necədir? Yeni mutasiyanın ölkəmizə gəlmə təhlükəsi varmı? Səhiyyəmiz "çağırılmamış qonağın" gəlişinə hazırdırmı?**

– Koronvirusun yeni ştamları immunitetdən yayındığı üçün təhlükəli sayılır. Qonşu ölkələrdə – Rusiya, Türkiyə və Ermənistanda "Omicron" ştamının alt variantlarına yoluxma halları təsdiqlənib. Hazırda həmin ölkələrdə EG.5-lə yanaşı başqa daha bir təhlükəli variant da BA. 2.86 müşahidə edilməkdədir. Amma yoluxma halları artsa da, xəstəxanalara müraciətlərin sayı hələ ki, təhlükəli həddə deyil. Bu növlərin Azərbaycanda olması ilə bağlı hələlik rəsmi məlumat yoxdur. Amma qonşu ölkələrdə yoluxma varsa, gələcəkdə ölkəmizdə də aşkarlanma ehtimalı istisna deyil.

**– Yeni ştamları ağırdırmı?**

– Belə deyil. Yeni variantların yaranması təbii prosesdir və virusun təkamülünün bir mərhələsidir. Təcrübə göstərir ki, ən yeni ştam əvvəlkini yoluxdurma qabiliyyətinə və bununla bağlı yayılma sürətinə görə üstələsə də, ağır xəstəlik törətməsi qabiliyyəti xeyli zəifləyir. COVID-19-dan ölüm halları da azalmaqda davam edir. Beləliklə, yeni ştamın daha ağır xəstəliyə səbəb olmasının heç bir sübutu yoxdur. Daha geniş miqyaslı tədqiqatlarda EG.5 ştamının klinik nəticələrə təsirini öyrənmək tələb olunur.

ÜST tərəfindən tövsiyə olunur ki, dövlətlər bu məsələdə sayıqlığı əldən verməməli, infeksiyanın artımları olan ərazilərdə əhalinin sıxlığı müşahidə edilən qapalı məkanlarda insanların maskadan istifadə etməsi, risk qrupuna daxil olan şəxslərin isə dördüncü buster doza ilə vaksin olunması məqsədəuyğundur. Lakin sərt karantin tədbirlərinin tətbiqinə ehtiyac yoxdur. Azərbaycanda bu məsələ Səhiyyə Nazirliyi və digər aidiyyəti dövlət qurumlarının daim diqqət mərkəzindədir.

**– Narahatlığı aradan qaldırmaq üçün neyləyək?**

– Hazırda ölkədə epidemioloji durum yoluxma hallarında cüzi, əhəmiyyətsiz artımın olmasına baxmayaraq sabitdir. Koronavirusun bütün növlərindən, o cümlədən sonuncu mutant altnövlərdən qorunmaq tədbirləri eynidir. Yəni pandemiya dönəmində əhalinin riayət etdiyi qaydalara yoluxma halları əhəmiyyətli dərəcədə artdıqca əməl olunmalıdır. Hər kəs, xüsusilə, immun sistemi zəif insanlar sağlamlıqlarına daha ciddi yanaşmalıdırlar. 65-dən yuxarı yaşı olanlar həmişəki kimi risk qrupuna daxildir.

Verilən məlumatlara görə, xarici ölkələrdə həmin ştama yoluxanlar arasında 65 yaşdan yuxarı olanların sayı daha çoxdur. Bu da immun sisteminin zəif olması ilə bağlıdır. Risk qrupuna daxil olan insanların yoluxma ilə bağlı növbəti profilaktikası, həm aşkarlanması, həm də müalicəsi üçün bütün imkanlar vardır və qeyd etdiyim kimi müvafiq qurumlar epidemioloji prosesləri diqqətlə izləməkdədirlər. Hələlik isə müraciətlərin müayinə nəticələrinə əsasən deyə bilərik ki, yeni variantlara yoluxma ilə bağlı rəsmi məlumat yoxdur.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Rusiya–Ukrayna müharibəsi: tərəflər ciddi dönüşə nail ola bilmir

**Bir neçə gündən sonra, daha dəqiq desək, sentyabrın 24-də Rusiya-Ukrayna müharibəsinin başlanmasının 19 ayı tamam olacaq. Bu rəqəmi bəlkə də dildə demək asandır, amma bu vaxt ərzində hər iki ölkə ağır dağıntılara və heç vaxt əvəz olunmayacaq on minlərlə insan itkilərinə məruz qalıb.**



Müharibə Ukraynada çox sayda ailələrə acı kədər və məyusluq gətirib. Buna baxmayaraq, Ukrayna dövləti və xalqı əl-ələ verib öz suverenliyi uğrunda özündən qat-qat güclü olan rəqibi ilə ağır mübarizə aparır. Döyüşlər isə gündən-günə daha ağır və qəddar şəkildə davam edir.

UNİAN agentliyi yazır ki, Rusiya silahlı birləşmələri ötən gecə Ukraynaya 30 kamikadze dronu və 1 İskəndər-M ballistik raketi ilə hücum edib. Ukraynanın Hava Hücumundan Müdafiə Qüvvələri (HHMQ) tərəfindən ölkənin cənub-şərqi istiqamətindən atılmış "Şahed" - 136/131 tipli 27 dron və bir əməliyyat-taktiki səviyyəli kəşfiyyat PUA-sı zərərsizləşdirilib. "İskəndər-M" raketinin isə Krım ərazisindən Krivoy Roq istiqamətinə atıldığı qeyd olunub.

Bu da danılmaz həqiqətdir ki, Ukrayna heç də Rusiya təcavüzü qarşısında tək deyildir. ABŞ başda olmaqla Qərb Ukraynaya hər cür dəstək verir. Dünən məlum olub ki, Avropa İttifaqı (Aİ) 12-ci anti-Rusiya sanksiyalar paketi üzrə müzakirələrə başlamağa hazırlaşır. "Bloomberg" agentliyinin məlumatına görə, Rusiyaya qarşı sanksiyalar paketi oktyabrın birinci yarısında təqdim oluna bilər.

Xəbərdə həmçinin qeyd olunur ki, bir qrup Aİ ölkəsi yeni paket çərçivəsində Rusiyanın nüvə sektoruna qarşı sanksiyaları, həmçinin almaz idxalına qadağa qoymağı təşviq etməyi planlaşdırır. Agentliyin məlumatına görə, Aİ rəhbərliyi Rusiyada istehsal olunan mayeləşdirilmiş təbii qaza (LNG) məhdudiyyətlər qoymağa, eləcə də bu ölkənin informasiya texnologiyaları sektoruna qarşı əlavə sanksiyalar tətbiq etməyə çalışır.

Müharibənin əsas ağırlığı, əlbəttə, əsgər və zabitlərin üzərinə düşür. Hazırda nəyin bahasına olursa-olsun öz torpaqlarını düşməndən azad etməyə çalışan Ukrayna Ordusu daha motivasiyalı görünür. Son günlər ukrayanlıların cəbhənin bir çox istiqamətlərində uğurlu hücum əməliyyatları həyata keçirdikləri barədə xəbərlər dolaşır. Bununla dərabər, gözlənilən ciddi dönüş hələlik mümkün olmayıb.

Yeri gəlmişkən, bu günlərdə Ukrayna Ordusunda ciddi kadr dəyişiklikləri baş verir. Belə ki, bazar ertəsi Ukrayna hökuməti müdafiə nazirinin altı müavinini işdən azad edib.

Bu ayın əvvəlindən, iki həftədən az bir müddət əvvəl bu vəzifədə Aleksey Reznikovu əvəz edən Rüstəm Umerov ölkənin müdafiə nazirliyinin yeni rəhbəri təyin edilib. Vəzifəsindən kənarlaşdırılanlar arasında hərbi əməliyyatların gedişi ilə bağlı ictimaiyyətə açıqlamalar verən Anna Malyar da var.

***Məsaim ABDULLAYEV***
***XQ***



## 1 milyon suriyalı da vətəninə dönəcək

**"İndiyədək 600 minə yaxın suriyalı qaçqın ölkəsinə geri qaytarılıb, bu siyahıya daha bir milyon insan əlavə ediləcək"."Anadolu" agentliyi xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda ABŞ telekanalına açıqlamasında deyib.**

**Bildirilib ki, bu proses Suriyada hazırda tikilməkdə olan daimi yaşayış evlərinin başa çatdırılması ilə icra olunacaq. Türkiyə Prezidenti ölkəsinin dünyada ən çox qaçqına evsahibliyi etməsinə də diqqət çəkib: "Dünyada ən çox qaçqına evsahibliyi edən ölkə olaraq suriyalı qaçqınların təhlükəsiz, ləyaqətli və könüllü şəkildə geri qayıtmalarını təşviq etmişik. Orada tikilməkdə olan daimi yaşayış yerlərinin başa çatdırılması ilə geri qaytarılan qaçqınların sayına daha 1 milyon insan əlavə olunacaq. Lakin biz görürük ki, ölkələrin bu sahələrdə fərdi səyləri yetərli deyil və beynəlxalq həmrəyliyin artırılmasına ehtiyac var".**

**Ərdoğan qlobal güc rəqabətinin beynəlxalq sistemə vurduğu zərərdən narahatlıq duyduqlarını da söyləyib: "Qaydalara əsaslanan, ədalətli beynəlxalq nizamı müdafiə edirik. Bu kontekstdə hesab edirik ki, Təhlükəsizlik Şurası başda olmaqla Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatlarda bu günün tələblərinə cavab verəcək şəkildə islahat aparılmalıdır.**

**XQ**

İLK TAMAŞA

# “Məhəbbət əfsanəsi” Bakıya qayıtdı

## *Dünyanı dolaşan balet “Heydər Əliyev ili”nə sənət töhfəsidir*

**Sentyabrın 18-i və 19-da Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycanın Xalq artisti Arif Məlikovun “Məhəbbət əfsanəsi” baletinin uzun fasilədən sonra Heydər Əliyev Sarayında təqdimatı keçirildi.**



Əslində buna premyera da demək olar. Müstəqillik dövründə ilk dəfədir ki, bu sənət əsəri Azərbaycan Opera və Balet Teatrı solistlərinin ifasında təqdim edilir. 1961-ci ildə o vaxtkı Leninqrad Dövlət Opera və Balet Teatrında (hazırkı Sankt-Peterburq Mariinski Teatrı) gənc baletmeyster Yuri Qriqoroviç tərəfindən səhnələşdirilmiş “Məhəbbət əfsanəsi” baleti həmin dövrdə xoreoqrafiya sənətində yeni səhifə açıb. 1962-ci ildə isə əsər ilk dəfə Bakıda oynanılıb. Son dəfə 10 il əvvəl Sank-Peterburq Mariin Teatrı qastrol səfəri zamanı baleti Bakıda oynayıb. Heydər Əliyev Sarayının foyesində “Məhəbbət əfsanəsi” baletinin indiyədək yayımlanan afişaları və Arif Məlikovun yaradıcılığına dair foto və məlumatlardan ibarət sərgi də açılıb. Qonaqlar sərgi ilə maraqla tanış olurdular. Sarayda sənət bayramı əhvalı duyulurdu. İnsanların üzündə də bir sevinc, təntənə sezilirdi. Tamaşaçı, sanki, “Məhəbbət əfsanəsi” baleti kimi şedevr sənət əsəri kimi Üzeyir Hacıbəyli Beynəlxalq Festivalı çərçivəsində təqdimatını ikiqat intizarla gözləyirdi.

Baletin təqdimatını izləmək üçün xarici ölkələrdən qonaqlar da gəlmişdilər. Məsələn, İtaliyanın ən böyük konsert salonu “Arena di Verona”nın bədii rəhbəri Stefano Trespidi, dünyaca məşhur FAZIOLI royallarını istehsal edən fabrikin yaradıcısı Paolo Fazioli, Rusiyanın məşhur balet artisti, “Məhəbbət əfsanəsi”ndə Fərhad rolunun ifaçılarından biri olmuş Nikolay Tsiskaridze də qonaqlar arasında idi.

Gecəni Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli açaraq Arif Məlikovun məşhur əsərinin Azərbaycanda səhnələşdirilməsini çoxdan arzuladığını dedi: “1962-ci ildə Bakıda ilk dəfə “Məhəbbət əfsanəsi” baleti səhnəyə qoyulanda mənim 16 yaşım var idi. O zaman bütün məşqlərdə iştirak etmişdim. Bu balet böyük uğur qazandı və demək olar bütün ölkələrdə nümayiş olundu. Heydər Əliyev Fonduna və Mədəniyyət Nazirliyinə çox minnətdaram ki, illər sonra bu tamaşa yenidən Bakıda oynanılır”.

Sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru, Xalq artisti Yusif Eyvazov qonaqları ingilis dilində salamladı, tamaşaçıları böyük sənət bayramı münasibəti ilə təbrik etdi. Ardınca pərdələr açıldı və çoxdan gözlənilən “Məhəbbət əfsanəsi” baletinin nümayişi başlandı.

Xatırladaq ki, Nazim Hikmətin ölümsüz “Fərhad və Şirin” əsəri əsasında 3 pərdə, 7 şəkildən ibarət “Məhəbbət əfsanəsi” baletini Arif Məlikov 1958-ci ildə yazmağa başlayıb və onu 2 ilə bitirib. Nazim Hikmət isə bu əsəri Azərbaycan şairi Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasından ilhamlanaraq qələmə alıb.

Artıq klassikaya çevrilmiş tamaşada əsas rolu - şahzadə Məhmənəbanunu Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solisti, balet artistlərinin beynəlxalq müsabiqələrinin laureatı, Prezident mükafatçısı Ayan Eyvazova, Fərhadı Rusiyanın məşhur Böyük Teatrının premyeri, beynəlxalq müsabiqələr laureatı Denis Rodkin, Şirini isə Böyük Teatrın aparıcı solisti, beynəlxalq müsabiqələr laureatı Mariya Vinoqradova ifa edirdilər.

Baletin quruluşçu rejissoru Yuri Qriqoroviçdir. Bakı premyerası isə Qriqoroviçin köməkçiləri baletmeyster-rejissor Oksana Şvetnitskayanın və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş baletmeysteri, Rusiyanın Əməkdar artisti Ruslan Proninin quruluşunda təqdim edilir. Əsər ilk dəfə səhnəyə qoyulanda dirijoru maestro Niyazi olub. Heydər Əliyev Sarayında isə “Məhəbbət əfsanəsi” Azərbaycanın Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında təqdim edildi.

Arif Məlikovun şah əsəri olan “Məhəbbət əfsanəsi”nin “Heydər Əliyev İli”ndə təqdim olunması təsadüfi deyil. 2023-cü il Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü, görkəmli bəstəkar Arif Məlikovun isə 90 illik yubileyidir. Ümummilli lider Heydər Əliyev görkəmli bəstəkar Arif Məlikovu bir sənətkar və insan kimi yüksək dəyərləndirirdi.

Əsərin uğuru onun ifaçıları üçün məsuliyyəti daha da artırır. Haqlı olaraq Xalq artisti Yalçın Adıgözəlov dedi: “Bu gün burda əsər üzərində böyük bir heyət – 500-ə yaxın sənətkar çalışdı. Bizim fəxr edəcək bir çox əsərlərimiz var, amma “Məhəbbət əfsanəsi” bütün dünyanı fəth edib. Bu gün hamı üçün həyəcanlı, məsuliyyətli bir gün, eyni zamanda, böyük bir bayram oldu”.

Nisgilli eşq hekayəsi Azərbaycan və Rusiya Opera və Balet teatrlarının solistlərinin möcüzəli ifasında nağıl təsiri bağışlayırdı. Səhnədə Şirinlə Fərhadın sevgisi, Məhmənəbanunun kədəri ecazkar musiqinin sədaları altında insanın qəlbinə süzülürdü. Tamaşa beləcə başa çatdı. Sonu Vətən sevgisi və insanlığın təntənəsi ilə bitən “Məhəbbət əfsanəsi”nin ömrü isə tükənməzdir.

***R.QURBANLI***
***XQ***

ÜZEYİR HACIBƏYLİ – 138

**Böyük bəstəkar, maarifçi, jurnalist, elm və mədəniyyətimizdə bir çox ilklərə imza atmış Üzeyir bəy Hacıbəylinin doğum gününə həsr olunan tədbirlər davam edir. Ənənəvi Musiqi Günü, Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı, ayrı-ayrı ölkələrdə və Azərbaycanın müxtəlif guşələrində keçirilən çeşidli tədbirlər bu qəbildəndir.**

# Ölməz sənətkara ümumxalq sevgisi

**Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən “Bəşər mədəniyyətinin incisi – Azərbaycan musiqisi” adlı tədbir, sözün əsl mənasında ürəkləri oxşayıb.**

İştirakçılar mərkəzin foyesində təşkil edilmiş “Qafqazın konservatoriyası – azad Şuşa” və Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan foto və nəşrlərdən ibarət sərgi ilə tanış olublar. Musiqi bayramında Ümummilli liderin Üzeyir Hacıbəylinin milli mədəniyyətimizə verdiyi töhfələrə dair fikirləri, dahi bəstəkarın yaradıcılığı və Prezident İlham Əliyevin iştirakı ilə Şuşada keçirilən tədbirlər, “Xarıbülbül” festivalına dair videomaterial nümayiş etdirilib. Qeyd olunub ki, Azərbaycan musiqisi sərhədləri aşaraq dünyada tanınır, sevilərək ifa olunur.



***

**Bakı Dövlət Universitetinin Mədəniyyət–Yaradıcılıq Mərkəzi Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Musiqi Günü münasibətilə maraqlı ədəbi-bədii kompozisiya hazırlayıb.**

Kompozisiyada bəstəkarın “Aşıq Cünun” havası, “Arşın mal alan” operasından “Aşiq oldum” ariyası, “Leyli və Məcnun” operasından görüş səhnəsi, “Qaragöz” musiqisi, “Koroğlu” uvertürası təqdim olunub.

***

**Bakı metropoliteni ənənəyə sadiq qalaraq, sərnişinlərinə xoş ovqat bəxş edəcək konsert proqramı təşkil edib.**

Rəngarəng musiqi çələngi “İçərişəhər” stansiyasında başlanıb. Proqrama milli muğam üçlüyü və simli kvartetin ifasında Azərbaycan və dünya bəstəkarlarının əsərləri, folklor nümunələri daxil edilib. Daha sonra konsert “Sahil”, “28 May” və “Elmlər Akademiyası” stansiyalarında davam etdirilib.

***

**Quzanlı qəsəbəsindəki Muğam Mərkəzində Ağdam Musiqi Kollecinin təşkilatçılığı ilə konsert proqramı təşkil olunub.**

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov və kollecin direktoru, Əməkdar artist Fehruz Səxavət dahi bəstəkarın zəngin həyat və yaradıcılığından bəhs edib, milli Azərbaycan musiqisinin inkişafında Üzeyir Hacıbəyli məktəbinin rolunu xüsusilə vurğulayıblar.

Tədbir Ağdam Musiqi Kollecinin “Qarabağ” instrumental ansamblının müşayiəti ilə kollecin müəllim və tələbələrinin ifasında konsert proqramı ilə davam edib. Təqdim olunan rəngarəng musiqi nümunələri maraqla qarşılanıb.

***

**Qəbələ regional “ASAN xidmət” mərkəzinin təşkilatçılığı, Qəbələ Rayon Uşaq İncəsənət Məktəbinin və rayon Mədəniyyət Mərkəzinin birgə əməkdaşlığı ilə konsert təşkil olunub.**



Tədbirdə Üzeyir Hacıbəylinin Azərbaycan milli musiqisinin inkişafındakı xidmətlərindən bəhs edilib. Sonra könüllülərin ifasında milli rəqslər ifa olunub, eyni zamanda Üzeyir Hacıbəylinin və digər bəstəkarların əsərlərindən ibarət klassik Azərbaycan musiqiləri səsləndirilib.

***

**Şərqi Zəngəzur Regional Mədəniyyət İdarəsinə tabeli Cəbrayıl şəhər Uşaq Musiqi Məktəbində Milli Musiqi Gününə həsr olunan tədbir də yaddaqalan olub.**

Məktəbin direktoru Vüsal Zamanov dövlətimizin milli mədəniyyətə, xüsusilə musiqiyə göstərdiyi qayğıdan danışıb. Həmçinin dahi bəstəkar Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından, Azərbaycan musiqi mədəniyyətinə bəxş etdiyi əvəzolunmaz işlərdən bəhs olunub.

Tədbirin bədii hissəsində Heydər Əliyev Mərkəzi, Elm və Təhsil, Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən I Uşaq İncəsənət Festivalının finalçıları və beynəlxalq müsabiqə laureatlarının ifasında musiqi nömrələri səslənib.

***Ə.DOSTƏLİ***
***XQ***

# Özü-özünü yetişdirmiş bəstəkar

## Üzeyir Hacıbəylinin acılı-şirinli həyat hekayəsi

**Azərbaycanın müasir peşəkar musiqi sənətinin banisi, Dövlət Himninin müəllifi, Şərq dünyasında ilk operanın müəllifi, dahi azərbaycanlı Üzeyir Hacıbəyli 1885-ci ilin 18 sentyabrında kənd mirzəsi ailəsində dünyaya gəlib. Bundan 110 il sonra professional musiqimizin banisinin dünyaya gəldiyi gün müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevin sərəncamı ilə milli bayram kimi qeyd edilən Üzeyir Musiqi Günü kimi şərəfləndi.**

Balaca Üzeyir ilk təhsilini Şuşadakı ikisinifli rus-türk məktəbində alıb. Özünün də qeyd etdiyi kimi, ilk musiqi savadını isə xanəndə və sazəndələrdən gör-götür eləyib. Şuşada göstərilən bir səhnəcik də gələcəyin bəstəkarını musiqi aləminə ilhamlandırıb. Onda Üzeyirin 13 yaşı olarmış. Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü, dirijorluğu ilə və Cabbar Qaryağdıoğlunun ifasında Şuşada “Məcnun Leylinin məzarı başında” adlı bir səhnəcik göstərilmişdi. Üzeyir də qardaşları ilə birgə orda xorda oxumuşdu. Bundan 8 il sonra həmin səhnəcikdən təsirlənən Qori Seminariyası məzunu böyük Füzulinin poeması əsasında Azərbaycanda, eləcə də Şərqdə operanın özülünü qoyur – “Leyli və Məcnun”u yazır. 1908-ci il yanvarın 12-də əsərin ilk nümayişinin dirijoru da Əbdürrəhim bəy Haqverdiyev olur. Skripka partiyasını isə Üzeyir bəy özü ifa edir.

“Çöl qala” deyilən yerdə Üzeyirgilin evləri olub. Şuşa işğal olununa qədər ora Üzeyir bəyin ev muzeyi kimi fəaliyyət göstərib. Uşaqlıq illərində burada bir hadisə baş verir. Bir gün uşaqlarla birgə qonşuda xan qızı Natəvanın bağına meyvə oğurluğuna gedir. Bu vaxt xan qızı həyətə düşür. Uşaqlar onu görüb qaçırlar, Üzeyir isə tutulub qalır. Qopartdığı iki almanı papağının altında gizlədən gələcək bəstəkar Banu ona yaxınlaşanda baş əyib salam verir. Buxara papağı yerə düşür, almalar görünür. Şairə bunu görüb soruşur:

– Siz burda nə edirsiniz?

– Alma yığırdıq.

–Bəs, məni tanıyırsınız?

– Siz xan qızı Natəvansınız, həm də şairəsiniz.

Bu qısa söhbətdən sonra Üzeyir Natəvanın bir neçə qəzəlini əzbərdən deyir. Bu da təbii ki, Natəvanın xoşuna gəlir və onun başını sığallayıb deyir:

– Sən qoçaq, ağıllı oğlansan, gələcəyin parlaq olacaq.

13 yaşında Üzeyir hekayələr yazmağa başlayır və onları “Kitabi-məzhəkə” adı altında toplayır. Sonra kitaba illüstrasiyalar çəkir, onu özü cildləyir. O kitabları 15 qəpikdən satan Üzeyir həmin pulla ailəsinə köməklik edir. İllər keçdikdən sonra Üzeyir bəyin xanımı tərəfdən qohumu, sonralar onun ev muzeyinin direktoru olmuş Ramazan Xəlilov həmin kitabdan birini Şuşadan tapdırıb Üzeyir bəyə doğum günü hədiyyəsi kimi verir. Əhvalat belə olur. Ramazan Xəlilov “Üzeyir bəyi hansı hədiyyə ilə təəccübləndirmək olar?” - deyə çox düşünür və tapır. Şuşaya gedib orda qocaman zərgər Yemiş əmini tapır və ondan həmin kitabı tapmağı xahiş edir. Kitabın nüsxəsi tapılır. Ramazan müəllim onu Üzeyir bəyin iş otağındakı stolun siyirməsinə qoyur.

Ramazan Xəlilov xatirələrində yazır ki, Üzeyir bəyin bir adəti var idi: “Hər səhər əl-üzünü yuyub iş otağına keçərdi, yarım stəkan çaydan və bir neçə qullab siqaretdən sonra işləyərdi. Yalnız ondan sonra səhər yeməyi üçün qonaq otağına keçərdi. Siqaretini götürmək üçün siyirtməni açanda “Kitabi-məzhəkə”ni görür. “Bunu ancaq Ramazan edər” - xanımı Məleykəyə söyləyir və gözləri dolur. O hədiyyə, həqiqətən, Üzeyir bəy üçün qiymətli idi”.

Ramazan Xəlilov Tiflisdə yaşadığı vaxtlarda Bakıda Üzeyir bəyin ev muzeyi yaradılır və Heydər Əliyev onu Bakıya gətirdib – “Səni bu muzeyə ömürlük direktor təyin edirəm”, - deyib. Ramazan Xəlilov da ömrünün sonuna qədər Üzeyir bəyin ev muzeyinə rəhbərlik edib. Onun şəxsi arxivi Üzeyir bəyin ev muzeyi qədər zəngin olub. Muzey darısqal olduğundan onları muzeyə daşımayıb. Arxivin bir hissəsi ölümündən sonra muzeyə verilib.

14 yaşında Üzeyir Qori müəllimlər seminariyasına oxumağa gedir. 1899–1904-cü burada təhsil alır. Avropa musiqi klassiklərinin əsərlərini mənimsəyir, skripka, violonçel və baritonda çalmağı öyrənir. Eyni zamanda, xalq mahnı nümunələrini nota köçürür. 1904-cü ildə seminariyanı bitirdikdən sonra Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin edilir.

Üzeyir bəy Qori müəllimlər seminariyasında oxuduğu illərdə gələcək tale yolu da rastına çıxır. Həyat yoldaşı, ilk və yeganə sevgisi, tatar qızı Məleykə xanımla da Tiflisdə tanış olur. Məleykə xanımın qardaşı Əli Terequlov (əslində, Tanrıqulov–red) Üzeyir bəylə bir sinifdə oxuyurdu. Bazar günləri Əli Üzeyiri evlərinə aparar, teatrlara, Tiflisin gəzməli-görməli yerlərinə gedərdilər. Üzeyir bəy gələcək həyat yoldaşını da elə ordaca görüb sevmişdi.



Sonrakı illərdə evlənirlər, Bakıda kirayədə yaşayırlar. Hazırda ev muzey kimi fəaliyyət göstərən mənzilə 1915-ci ildə köçürlər və 1942-ci ilə qədər burada yaşayırlar.

İlk operanın və operettaların uğurundan sonra Üzeyir Hacıbəylinin istedadı, artıq dünyaya yayılmış şöhrəti ona qarşı qısqanclıqları, düşmənçiliyi günü-gündən artırır. Xeyirxahları onu bir neçə dəfə ölümün pəncəsindən xilas edirlər. İlk belə hadisə Hadrutda dərs dediyi vaxtlar erməni-müsəlman davasının vüsət aldığı 1905-ci ilə təsadüf edir. Kəndin ağsaqqalları ermənilərin Üzeyir bəyə qəsd hazırladığını görüb onu gizlincə Yevlaxa yola salırlar. Gənc müəllim ordan da Bakıya gəlir.

1918-ci ilin mart qırğını zamanı da ermənilər Üzeyir bəyin evini gülləbaran ediblər. O zamanlar Üzeyir bəy artıq kifayət qədər tanınırdı. Ermənilər onu öldürmək istəyirdilər. Ancaq xoşbəxtlikdən, bu istəklərini həyata keçirə bilmirlər. Ölüm bəstəkardan uzaq düşür. Hadisələr baş verməmişdən əvvəl Nəriman Nərimanov bəstəkarı yanına çağırır və ona teatr truppası ilə birgə İrana qastrol səfərinə getməyi tapşırır. Əvvəl Üzeyir bəy razılaşmır, “mən Azərbaycanı qoyub heç yerə getməyəcəm”, - deyir. Ancaq Nərimanovun təkidindən, “Siz bizə gələcəkdə lazımsız” sözündən sonra Üzeyir və Zülfüqar Hacıbəyov qardaşlarının teatr truppası İrana yola düşür. Onlar bir neçə ay İranda qalır, müxtəlif şəhərlərdə tamaşalar göstərirlər. Oktyabrda isə vətənə qayıdırlar. O zaman bütün qəzetlər Üzeyir bəyin qayıdışına görə, xalqa gözaydınlığı verirdi. Nəriman Nərimanov 1920-ci ilin qırmızı terror zamanı da Üzeyir bəyi ölümdən xilas edir. 1975-ci ildə Üzeyir bəyin ev muzeyi əsaslı təmir olunan zaman divarlardakı həmin güllə yerlərini Ramazan müəllim öz xatirələrində qeyd edib.

Sovet rəhbəri Stalin 1937-ci ildə repressiyalara rəvac versə də, Üzeyir bəyə rəğbəti bəstəkarı xilas edir. Stalin Mircəfər Bağırovdan Üzeyir bəyə salam göndərərmiş. O, “Koroğlu”, “Arşın mal alan” operalarına yüksək qiymət verib. Özü bu barədə Üzeyir bəyə deyib ki, hər iki operanızı çox sevirəm və əzbərdən bilirəm.

“Arşın mal alan” filminin 45-ci ildə, müharibənin qızğın vaxtı ekranlara çıxmasının səbəbi də məşhur erməni oğurluğu olub. Amerikada yaşayan erməni rejissoru bir film çəkir. Ssenari bütünlüklə “Arşın mal alan”ın süjeti olub, amma Üzeyir bəyin imzası yox imiş. Rejissor filmin şərq motivləri ilə çəkildiyinin yazıbmış. Bunu əvvəlcə Azərbaycan rəhbərliyi, onun vasitəsi ilə sovet rəhbərliyi bilir. SSRİ müəllif hüquqları ilə bağlı beynəlxalq konvensiyaya üzv olmadığından Üzeyir bəyin hüquqlarını qoruya bilmirlər. Stalin deyir ki, bunun bir yolu var, təcili “Arşın mal alan” film çəkilib bütün dünyaya yayılsın. Belə də olur.

1938-ci ildə Moskvada Azərbaycan incəsənəti günlərində “Koroğlu” operasına Stalin özü şəxsən tamaşa edir. Ondan sonra Üzeyir SSRİ bəstəkarları içərisində ilk olaraq xalq artisti adına layiq görülür. Belə bir dostluq şarjı da çəkilir: başqa bəstəkarlar bir sıradadır, Üzeyir bəy isə öndədir, onları arxasınca aparır. O günlərdə Azərbaycan nümayəndə heyətinə şəxsən ziyafət verən Stalin Üzeyir bəyi öz yanında əyləşdirir. Oradaca Stalin Üzeyir bəyin şərəfinə Əsgərin ariyasından bir parça oxuyur. Qardaşı Ceyhun barədə Üzeyir bəyə sual verən Stalin onun xaricdə yaşadığını bildiyini söyləyir. Sonra “Ona yazın gəlsin vətənə, işlə, evlə təmin edərik”, - deyir. “Koroğlu” operası barədə Üzeyir bəyə müsbət rəy deyən Stalin onu da qeyd edir ki, sizin gördüyünüz iş bütün sovet bəstəkarlarına örnək olmalıdır, Şərq musiqisi ilə Qərb musiqisinin sintezi bir örnəkdir.

1937-ci ilin qanlı repressiyaları vaxtı yenidən millətçi damğası vurulacağını düşünən Üzeyir bəy həyəcandan şəkərə tutulur. Pəhrizinə riayət olunsa da, səhhətinə ciddi nəzarət edilsə də, xəstəlik özünü göstərməyə başlayır. Və 1947-ci ildə Üzeyir bəyin vəziyyəti ağırlaşır. Dərhal xəstəxanaya yerləşdirirlər. “Leçkomissiya”da Osipyan soyadlı bir erməni bilərəkdən bəstəkara çox kəskin pəhriz yazır, eyni zamanda insulin vurur. İnsulin vurulanda isə pəhriz olmaz. Üzeyir bəy bir ayda 18 kiloqram arıqlayır. Bu isə ürəyinə təsir göstərir və ürək tutmaları başlayır. Üzeyir bəyi Stalinin göstərişilə Moskvaya, Kreml xəstəxanasına göndərirlər. Burada həkimlər müayinə zamanı Bakıda düzgün müalicə aparılmadığını bildirirlər. Onun 3 ay yaşayacağını deyirlər. Üzeyir bəy Mərdəkana – hökumət bağına gətirilir. Mircəfər Bağırovun Səhiyyə Nazirliyinə verdiyi göstərişə əsasən, konsilium keçirilir. Tapşırılır ki, Üzeyir bəyə ciddi nəzarət olunsun. 1948-ci ilin sentyabrında ağır vəziyyətdə olan bəstəkarı öz evinə gətirirlər.

Üzeyir Hacıbəyli noyabrın 23-də gecə saat 2-də 63 yaşında “Monolit” deyilən binadakı mənzilində vəfat edir.

Şərqdə ilk operanın, ümumiyyətlə peşəkar musiqi sənətinin banisinin dəfninə demək olar ki, bütün Azərbaycan yığılır. Mircəfər Bağırov onun tabutunun altına çiynini verməyi özünə şərəf bilir. Böyük Məmməd Əmin Rəsulzadə isə Türkiyədə yazdığı nekroloqda bildirmişdi ki, özü özünü bəstəkar kimi yetişdirmiş Hacıbəylinin çiynini Stalin ovuşdurmuş, yerli Kommunist rəhbərlər isə cənazəsi yanında fəxri qarovulda dayanmışlar.

***R.QURBANLI***
***XQ***




XALQ TV-NİN MÜSAHİBİ

# Qərbi Azərbaycan harayı dünyada da səslənməlidir



**Xalq TV-nin növbəti müsahibi ilə söhbətin mövzusu soydaşlarımızın Qərbi Azərbaycan torpaqlarından zaman-zaman qovulması, onların soyqırımı və deportasiyalara məruz qalmasıdır.**

Qonağımız bizimlə görüşə kitabları ilə gəlmişdi. Onları vərəqlədik. Bir anlıq gözlərimiz qarşısında qan yaddaşımızın səhifələri açıldı. Nə yaxşı ki, Vətənimizin döyüşkən oğulları kimi, hər qarışından, tarixindən, mənəvi dəyərlərindən kitablar yazan ziyalılar nəsli də var.

Beləliklə, müsahibimiz Qərbi Azərbaycanın Dərələyəz mahalının Qabaxlı kəndindən 1988-ci ildə deportasiya olunmuş Akif Şahbazovdur.

**İxtisasca iqtisadçı olan Akif müəllim söhbətə Vətənli günlərindən başladı:**

– Ömrümün 18 ili Dərələyəz mahalının Qabaxlı kəndində keçib. 1976-cı ildə kəndimizdə orta məktəbə getmişəm. 1986-cı ildə orta təhsilimi əla qiymətlərlə başa vursam da, erməni müəllimləri mənə qızıl medal vermədilər. İndi mən bunu deməklə sizə zədələnmiş bir ömrün yaşantılarından bəhs edirəm. On illik zəhmətimin bəhrəsini – “qızıl medal”ımı həsrətlə gözləsəm də, azərbaycanlıların uğurlarına min cür fitnə-fəsadla sədd çəkən daşnak nəvələri yüzlərlə qızıl medala layiq olan azərbaycanlı kimi məni də bu sevincdən məhrum etdilər. Onlar bu siyasətləri ilə bizim kimi gəncləri mənəvi cəhətdən sındırmaq istəyirdilər.

**– Bu, xain qonşumun xisləti idi, düşmənçilikdən irəli gəlirdi.**

– Əlbəttə, tək Dərələyəz mahalında deyil, Qərbi Azərbaycan orta məktəblərinin hamısında azərbaycanlılara qarşı xainlik hökm sürürdü.

Həmin illərdən anladım ki, harada erməni varsa, bizim uğurlarımıza sipər çəkir. Çox şeydən isə xəbərsiz idik... Nə biləydik ki, dədə-babalarımızın bizə əmanət qoyduğu yurd yerlərimizdən didərgin düşəcəyik, əliyalın vəziyyətdə dağa-daşa pənah aparacağıq…

1987-ci ildə Sovet Ordusuna hərbi xidmətə çağırıldım. Moskva vilayətinin Serkov şəhərində hərbi xidmətdə idim. Doğulduğum kənddən, yaşadığım mahaldan, valideynlərimin ağrı-acısından, erməni faşistlərinin qanlı ssenarilərindən xəbər tutduqca odlanırdım. 1988-ci ildə əsgəri xidmətimi başa vuranda isə Dərələyəz mahalından elim-obam, valideynlərim sürgün olunaraq Sumqayıt şəhərinə pənah gətirdi.

Əsgəri xidmətimin son günlərində Vətənimə qarşı erməni daşnaklarının soyqırımı siyasəti haqqında eşitsəm də, aldığım acı xəbərlərə inana bilmirdim. Düşündüm ki, mən Sovet Ordusunda xidmət edirəm, bəs bu ordu niyə azərbaycanlıları qorumur?

Yüz illər boyu İrəvan mahalında yaşayan Azərbaycan türkləri öz torpaqlarında nəyə görə vəhşicəsinə qətlə yetirilməli idi? Mən hazırlaşırdım ki, elimə-obama gedim, amma qaçqınlıq alın yazım oldu. Torpaq itirməkdən böyük dərd varmı dünyada? Bu ağrı-acı 35 ildir ki, ürəyimizdə sağalmaz yaradır.

**– Çox təəssüf ki, 70 il milyonlarla Azərbaycan gəncinin qulluq etdiyi sovet ordusu nəinki onları qorumadı, hətta ermənilərə hərbi dəstək verdi. Belə bir vəziyyətdə bizə xalqlar dostluğu barədə nəğmə oxutdururdular. Azərbaycan türklərinin başına gətirilən müsibətlər zaman-zaman yaşanıb və unutdurulub.**

– Bəli, Qərbi Azərbaycanın yerli əhalisinin – azərbaycanlıların 1988-ci ilə qədər qarşılaşdığı faciələrin tarixi xalqımızdan gizlədilib. Daha doğrusu, böyük siyasətlərin nəticəsində gerçək tariximizi öyrənə bilməmişik. Bu gün ziyalılarımız, tarixçilərimiz əllərindəki qələmi bir an belə yerə qoymamalıdırlar. Bunu bizdən zaman, tarixi şərait tələb edir. Gördüyünüz bu kitablara diqqət edin. Xalqımız erməni faşistlərinin tarixən törətdiyi qırğınlar haqqında mükəmməl biliyə malik olmalı və gələcək nəsillər üçün kitab küliyyatı hazırlamağı qarşılarına məqsəd qoymalıdırlar. Hər kəs doğulduğu yurd yerinin xəritəsini, dialekt və şivələrini, toponimlərini öyrənməyi özünə Vətən borcu bilməlidir. Həmin torpaqlar bizimdir! Yolumuzu gözləyir.

Qərbi Azərbaycanın görkəmli ziyalılarından biri, filologiya elmləri doktoru, professor, mərhum millət vəkili Həsən Mirzəyevin ürək yanğısı ilə yazdığı kitablar külliyyat halında Dərələyəz camaatının hər birinin evində masalarının üstündə olmalıdır. Haylar olmayan tarix uydurub bütün dünyanı gəzdirirlər. Biz isə tarixi həqiqətlərimizi yazıb, bütün bəşəriyyətə səs salmaqda gecikmişik. Qan yaddaşımıza laqeydliyimiz bizə baha başa gəldi. Hər bir əli qələm tutan ziyalı doğulduğu yurd yeri haqqında yazmalı, həmin tarixi torpaqların xəritəsini bugünkü və gələcək nəsillərə öyrətməlidirlər. Vətən naminə vətəndaşlıq missiyasını hər birimiz öz üzərimizə götürməliyik.

**– Sizcə, daha nələri etməliyik?**

– Əlbəttə, 1905 –1907, 1918 –1920, 1948–1953 və 1988-ci illərdə xalqımıza qarşı xüsusi hazırlanmış qanlı ssenarilər, bu faciələrin başvermə səbəbləri orta məktəb dərsliklərinin proqramına salınmalı, uşaqlarımıza, yeniyetmə nəslə hərtərəfli öyrədilməlidir. Qərbi Azərəbaycana daxil olan bütün ərazilərin xəritəsi, toponimikası orta və ali təhsil ocaqlarının dərs vəsaitində öz əksini tapmalıdır. Ermənilərin törətdiyi müharibənin dəhşətlərini dünyaya çatdırmalıyıq.

Tarixi gerçəkliyi öyrənməsək, düşmən siyasətinin davam etməsini dayandıra bilmərik.

1813 və 1828-ci illərin bədnam Gülüstan və Türkmənçay müqavilələri, Azərbaycan torpaqlarının parçalanması, hayların Qarabağ və İrəvan torpaqlarına köçürülməsi və nəticədə “Erməni vilayəti” adlı inzibati bölgünün yaranması düşmənlərin bizə qarşı ən böyük ədalətsizliyidir. Amma biz bu haqsızlıq qarşısında susmamalıyıq. Zaman bizə çox şey öyrətdi.

Qərbi Azərbaycanda qalmış yurd yerlərimizlə bağlı yazılan kitabların nəşr olunması, geniş ictimaiyyətə çatdırılması üçün bundan sonra da maddi və mənəvi cəhətdən əlimdən gələni etməyə hazıram.

**– Sizə və Qərbi Azərbaycan İcmasının hər bir üzvünə bu missiyanı uğurla başa çatdırmağınızı arzu edirik.**

*Söhbəti apardı:*
***Kəmalə ABDİNOVA***

# “ASELSAN” kəşfiyyat-müşahidə və hədəfləmə sistemini təqdim etdi




**Türkiyənin Suriyada terror dəhlizinin yaranmasının qarşısını almaq üçün 2019-cu ildə başladığı “Sülh pınarı əməliyyatı”ndan narahat olan Kanada, Azərbaycan Ordusunun ermənilərə qarşı türk PUA-larından istifadə etməsi səbəbindən 2020-ci ildə yenidən Türkiyəyə embarqo tətbiq edib. Qarabağdakı silahlı dəstələr “Wescam”ın PUA-larda istifadə etdiyi elektro-optik və infraqırmızı kamera sistemlərinin satışını dayandırdı. Bu vəziyyət Türkiyə ilə Azərbaycan arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın və müstəqilliyin daha da möhkəmlənməsinə imkan yaratdı.**

Bu embarqodan sonra Türkiyə “ASELSAN” tərəfindən hazırlanmış “CATS Elektro-Optik” kəşfiyyat, müşahidə və hədəf təyinetmə sistemi üzərində işləri sürətləndirdi. “CATS” layihəsi Türkiyənin milli müdafiə sənayesi irəlilədikcə diqqətçəkən bir layihəyə çevrildi, dizayn və inkişaf işləri sürətlə davam etdi. 2020-ci ildə başlayan fədakar mühəndislik tədqiqatları qısa müddətdə “CATS” sistemi ilə mükəmməl şəkildə prosesdə göstərilən qətiyyət və orijinal həllərlə uğurla tamamlandı və 2021-ci ildən etibarən “CATS” sisteminin kütləvi istehsalına başlanıldı.

“CATS”ın kütləvi istehsalı Türkiyənin təhlükəsizliyi üçün çox vacib idi. Siyasi səbəblərdən Türkiyəyə tətbiq edilən embarqolarla başlayan bu proses Türkiyənin texnoloji infrastrukturunu gücləndirən və müdafiə sənayesində yerli istedadları artıran mühüm mərhələ oldu. Türkiyənin müdafiə sənayesinin inkişaf etməsi dost ölkələrin də müdafiə sənayesinə təkan verdi. Bu əməkdaşlıq sayəsində “ASELSAN” yerli və unikal müdafiə texnologiyalarını inkişaf etdirməyə və qlobal miqyasda digər şirkətlərlə də rəqabətə başladı. “CATS” layihəsi ilə başlayan bu proses “ASELSAN”ın dünya bazarında lider olacaq məhsulların inkişaf fəaliyyətlərinin başlanğıcı oldu.

“ASELSAN”, “CATS” sistemi vasitəsilə əldə edilən təcrübə və texnoloji imkanları nəzərə alaraq, qlobal bazarda lider olacaq üstün performansa sahib “ASELFLIR” 500-ü inkişaf etdirməyi hədəfləyir. “ASELFLIR” 500 kəşfiyyat, müşahidə və hədəfləmə sistemi PUA-lardan döyüş təyyarələrinə qədər müxtəlif hava platformalarına quraşdırıla bilər. Yüksək performanslı kamerası ilə istifadəçiyə lazımi müşahidələrin və kəşfiyyat işlərinin aparılmasında üstün bacarıqlar verir. Çəkisi 57 kq olan “ASELFLIR” 500 25 kilometrə qədər mənzildə lazerlə məsafə ölçmək imkanı və 360 dərəcə bucaq altında fırlanma qabiliyyəti təmin edir.

İnkişaf işlərinə 2021-ci ildə başlayan “ASELFLIR” 500 qısa müddətdə mühüm irəliləyiş əldə edərək, 2023-cü ilin mart ayında ilk uçuşunu uğurla həyata keçirib. “ASELFLIR” 500-ün sürətli və uğurlu inkişaf prosesi ötən həftələrdə platforma istehsalçısının obyektlərində eyni yüksəklik və hava şəraitində eyni vaxtda iki təyyarədə rəqibləri ilə həyata keçirilən sınaqlarda böyük uğur qazandı. Bu sınaqlarda “ASELFLIR” 500-ün platforma istehsalçısı tərəfindən bildirildiyi kimi, rəqib sistemlərlə müqayisədə üstün performans nümayiş etdirdiyi aydın şəkildə göründü. Yüksək ayırdetmə qabiliyyətinə malik sensorlar, geniş ümumi diyafraqm və yüksək dəqiqlikli stabilizasiya xüsusiyyətləri sayəsində Termal və SWIR görüntü kanallarında əldə edilən təsvirlərin aydınlığı və keyfiyyəti rəqiblərini üstələyib.

Bu nailiyyətlər Türkiyə və Azərbaycanın müdafiə sahəsində müstəqilliyinin artırılması və təhlükəsizlik maraqlarının qorunması istiqamətində mühüm addım kimi qiymətləndirilir. Texnoloji inkişaflar hər iki ölkəyə regional təhlükəsizlik məsələlərində daha səmərəli və müstəqil fəaliyyət göstərməyə imkan verəcək. “ASELFLIR” 500 iki qardaş ölkənin, Türkiyə və Azərbaycanın beynəlxalq aləmdə möhkəm mövqe tutmasına və regional təhlükəsizliyin təmin edilməsinə yönəlib. Onu da qeyd edək ki, “ASELSAN” texnologiyasından 2020-ci ildə Vətən müharibəsində istifadə olunub və düşmənə sarsıdıcı zərbələr endirilib.

# Rusiya avtomobillərinə, smartfonlara, noutbuklara... qadağa

**Avropa İttifaqı (Aİ) ruslara şəxsi avtomobillərdə girişi qadağan edib. Bu barədə “RBC-Ukraina” yazıb. Qəzetə müsahibə verən hüquqşünaslar əlavə ediblər ki, bu qadağaya həmçinin smartfonlar, noutbuklar, çamadanlar, kosmetika və s. daxildir. Rusiya dövlət nömrə nişanlı avtomobillərin idxalına qoyulan qadağa yeni deyil. İndiyədək Rusiya avtomobillərinin müsadirə edilməsi ilə bağlı bir neçə hadisə məlum olub - bunların hamısı birbaşa Rusiya ilə həmsərhəd olmayan Almaniyada baş verib.**



Rusiya dövlət nömrə nişanlı avtomobillərin Aİ-yə idxalına qadağanın müzakirəsi iyun ayında - Almaniyada yaşayan rusların avtomobillərinin müsadirə edilməsi xəbərindən sonra başlayıb. Avtomobili bu şəkildə müsadirə edilənlərdən biri də Hamburqda yaşayan moskvalı İvan Koval olub. İyunun əvvəlində o bildirib ki, gömrükçülər onun avtomobilini birbaşa evindən aparıblar, baxmayaraq ki, Koval ölkəyə gələndə maşını rəsmiləşdirib. Almaniyaya bərə ilə gələn digər ruslar da alman gömrüyünün Rusiya nömrəli avtomobilləri müsadirə etməsindən danışıblar.

Rusiyanın Almaniyadakı səfirliyi vətəndaşlara vəziyyət aydınlaşana qədər Rusiya qeydiyyat nömrəli nəqliyyat vasitələrini Almaniya Federativ Respublikasının ərazisinə gətirməkdən çəkinməyi tövsiyə edib.

Alman gömrükçüləri avtomobilləri müsadirə edərkən Aİ Şurasının 31 iyul 2014-cü il tarixli 833/2014 saylı Qaydasına - yəni Krımın ilhaqından sonra Rusiyaya qarşı tətbiq edilən sanksiyaların prosedurunu təsvir edən sənədə istinad ediblər. Rusiyanın Ukraynaya müdaxiləsindən sonra Avropa Birliyinin hər yeni sanksiyalar paketi ilə bu qaydalarda dəyişikliklər meydana çıxıb. 2022-ci ilin oktyabrında, səkkizinci sanksiyalar paketindən sonra Rusiyadan gələn və ya ixrac edilən malların, o cümlədən avtomobillərin idxalına qadağa qoyulub.

Sentyabrın 8-də isə Avropa Komissiyası öz saytında anti-Rusiya sanksiyalarının tətbiqi ilə bağlı tez-tez verilən sualların yer aldığı sənədi dəqiqləşdirmək məqsədi ilə yeniləyərək dərc edib. Məhz alman gömrüyünün ruslardan maşınları müsadirə edən hərəkətlərinə cavab olaraq, Avropa Komissiyasının sentyabrın 8-də öz açıqlamasını dərc etməsinə Avropa Parlamentinin üzvü Rasa Juknevičiene münasibətini bildirib. O qeyd edib ki, bu qadağada yeni heç nə yoxdur. Bununla belə, bu dəqiqləşdirmələrin digər ölkələrin sərhədlərində necə tətbiq ediləcəyini bilmir.

RBC-nin əlaqə saxladığı Avropa Komissiyasının nümayəndəsi aydınlaşdırıb ki, hər bir Aİ ölkəsi sanksiyaların necə həyata keçiriləcəyinə özü qərar verir - yəni Avropa Komissiyasının 8 sentyabr tarixli izahatı hüquqi cəhətdən məcburi deyil.

***Leyla QURBANOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 203 (30319) 20 sentyabr 2023-cü il, çərşənbə

Sosial şəbəkələrdən seçmələr

# Adil İsgəndərov: "Azərbaycanfilm" "Aremenfilm" deyil

**Dünən "Facebook"da dostluğumda olan Salman Musayev adlı bir şəxs maraqlı paylaşım edib. Orada yazılıb:**



"Bir erməni Moskva Kinemotoqrafiya İnstitutunu rejissor ixtisası ilə bitirir və təyinatını verirlər Bakıya. O, Cəfər Cabbarlı adına Azərbaycan Kinostudiyasının direktoru Adil İsgəndərovun yanına gəlib sənədlərini xüsusi bir əda ilə təqdim edir:

– Mən Moskavada təhsil almışam...

Adil müəllim bunun təyinat vərəqəsinə və sənədlərinə baxıb deyir:

– Qadam, pəncərədən görürsən, bax, orda 90 nömrəli avtobus dayanır, minirsən ona, gedib "Baksovet"də düşürsən, girirsən metroya, "28 Aprel" stansiyasında çıxırsan, orada dəmiryol vağzalı var.

Erməni çaşqın halda Adil müəllimin məsləhətini dinləməkdə davam edir. Kinostudiyanın direktoru fikrini axıra çatdıraraq deyir:

– Orada minirsən Bakı–İrəvan qatarına, İrəvanda düşürsən, oradan isə "Armenfilm"ə hansı avtobus gedir, bilmirəm, pulun varsa bir manat verib taksiyə gedirsən "Armenfilm"ə.

A.İsgəndərov son sözlərini xüsusi bir vurğu ilə deyir:

– Bura Azərbaycanfilmdi, başa düşdün!?

*Təqdim etdi:*
***M.HACIXANLI***
**XQ**

İdman xəbərləri

## Dünya çempionatında daha bir gümüş medal

**Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedov (97 kq) Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatının finalında mübarizə aparıb.**



Güləşçimiz həlledici mərhələdə Bəhreyn təmsilçisi Axmad Tajudinova "tuş"la məğlub olaraq gümüş medalla kifayətlənib.

Qeyd edək ki, Azərbaycan təmsilçisi finala yüksəlməklə, həm də Paris Olimpiadasına lisenziya əldə edib.

Bundan əvvəl komandamızın digər üzvü Osman Nurmaqomedov (92 kq) da dünya çempionatının gümüş medalını qazanıb.

Mundial sentyabrın 24-də başa çatacaq.

## Superfinalda millimizin ilk qələbəsi



**Çimərlik futbolu üzrə Azərbaycan millisi İtaliyanın Alqero şəhərində təşkil olunan Avropa Superfinalında ilk qələbəsini qazanıb.**

Superfinalın birinci oyununda yığmamızın Türkiyə millisi ilə qarşılaşmasının əsas vaxtı 5:5 hesabı ilə başa çatıb. Penaltilər seriyasında millimiz rəqibi 3:1 hesabı ilə məğlub edib.

Qeyd edək ki, yığmamız ikinci turda, bu gün Rumıniya millisi ilə mübarizə aparacaq.

## Avrasiya çempionatında mütləq qalib

**Atçılığın dresaj növü üzrə Moskvada keçirilən cavan atların Avrasiya çempionatında Azərbaycan idmançısı Aydın Əlibəyov qızıl medal əldə edib.**

Təmsilçimiz turnirdə 6 yaşlı "Reverie" və 7 yaşlı "So Classi CG" adlı atlarla yarışıb. Bütün rəqiblərini üstələyən A.Əlibəyov mütləq qalib adına sahib olub.

***Leyla SABİRQIZI***
**XQ**



Maraq dünyamız

## Məşhur ensiklopediyalar

**Ensiklopediyalar oxuculara mümkün qədər çox məlumat vermək üçün nəzərdə tutulub. İlk belə məlumat kitabları qədim Misirdə və Çində yazılmışdır.**

Əziz oxucu, sizə bəşər tarixində ən böyük ensiklopediyaları təqdim edirik:

1.Avropada ilk ən böyük əsər sevilyalı Müqəddəs İsidorun "Etimologiya" (VI əsr) ensiklopediyası olub, burada qrammatikadan zoologiyaya qədər müxtəlif sahələr üzrə məlumatlar toplanıb. Bütün məlumatları ehtiva etmək üçün müəllif 20 cild hazırlayıb.

2. "Yunle Ensiklopediyası" (Çin) əvvəlkini dəfələrlə üstələyib. Bu gün o, ən böyük qeyri-elektron ensiklopediyadır. 1403-1408-ci illərdə Çin imperatoru Yunlenin əmri ilə yaradılmışdır. Onun üzərində minlərlə alim çalışmışdır. Bütün fakt məlumatlar təxminən 510 min səhifəyə sığışdırılmışdır. Təəssüf ki, bu işin yalnız bir hissəsi bizə gəlib çatmışdır.

3. İngilis dilində ən qədim ensiklopediya Endryu Bell və Kolin MacFarquhar tərəfindən 1760-cı illərdə nəşr olunan "Britaniya Ensiklopediyası"dır.

3 cilddən ibarət bu ensiklopediya hazırda 15 cildə qədər genişləndirilib. Sonuncu nüsxəsi 1985-ci ildə nəşr olunub.



4. Ən böyük elektron ensiklopediya "Vikipediya" adlanır. Burada 2015-ci ilə qədər 100 müxtəlif dildə məlumatlar olub. İngilis dilində 5 milyondan çox məqalə var (lakin o, insan biliklərinin yalnız 5 faizini əhatə edir). Rusdilli bölmədə həyatın bütün sahələrinə aid 1,3 milyondan çox məqalə yerləşdirilib.

Bu ensiklopediyanın populyarlığı hər bir şəxsin orada müəllif ola bilməsi ilə izah olunur. Bununla belə, məlumatlar idarəçilər tərəfindən yoxlanılır və xətalar aşkar edildikdə düzəldilir.

***P.ƏFƏNDİ***
**XQ**



## Ən qədim otel

**Dünyanın ən qədim oteli "Nishiyama Onsen Keiunkan"nın 1310 ildən çox yaşı var.**

Otel 705-ci ildə Fujivara Mahito tərəfindən Yaponiyanın Honşu adasında şəfalı bulağın axdığı yerdə tikilib. Bütün bu müddət ərzində otel hələ də Fujivara Mahitonun əcdadlarına məxsusdur. Obyektin hazırkı sahibi ailənin 52-ci nəslinə aiddir.

2001-ci ildə otel Ginnesin Rekordlar Kitabına daxil edilmiş və tarixən ən qədim otel kimi sertifikatlaşdırılmışdır.

## Pitonla sörfinq oyunbazlığı

**Avstraliyalı sörfçü boynuna piton dolayaraq dalğalara baş vurub. Lakin bu hərəkəti Avstraliya sakinləri arasında böyük səs-küyə səbəb olub. İnsanlar buna görə polisə müraciət ediblər.**



Hökumətin səlahiyyətli nümayəndəsi bu məsələyə münasibət bildirərək deyib:

– Təhlükəli heyvanları ictimai yerə çıxarmaq və ya nümayiş etdirmək üçün ayrıca icazə tələb olunmalıdır. Həmin şəxsin bu hərəkəti yolverilməzdir. Buna görə lazımi cəza tədbirləri görüləcək.

Qeyd edək ki, ilanlar soyuqqanlı heyvanlardır və üzə bilsələr də, çox vaxt sudan qaçırlar. Xalça pitonları isə okeanda olan yeganə dəniz ilanlarıdır.

Düzdür, xalça pitonları zəhərsiz ilanlardır. Onların uzunluğu 3 metrə qədərdir. Amma çox təhlükəlidirlər, belə ki, ovladıqları canlıların bədənlərinə sarılaraq boğulana qədər sıxırlar.

***S.FİDAN***
**XQ**

Sağlamlıq

## Çətənə yağı da məlhəm imiş

**Çətənə yağı çox faydalıdır və artıq qida əlavəsi kimi xarici ölkələrdə apteklərdə satılır. Rusiyalı həkim Mariya Muxina, xüsusən yaşlı adamlara çətənə yağından istifadənin çox faydalı olduğunu bildirib.**

Həkim bununla bağlı açıqlamasında deyib ki, çətənə yağında olan doymamış turşular beyin neyronlarının sintezi, hormonal balans və qan damarları üçün vacibdir. Bu turşular zərərli xolesterini azaldır.

Çətənədə xlorofil var ki, o da xərçəng əleyhinə təsir edir.

Çətənə yağı daxilə qəbul edildiyi kimi, xaricə də istifadə edilir. O, saç, dəri, dırnaqları möhkəmlədir, psoriaz və neyrodermit kimi müalicəsi olmayan dəri xəstəliklərində faydalıdır.

Bu yağın yalnız soyuq sıxımı istifadə edilir. Yağı qızdırmaq, onunla yemək bişirmək olmaz.



Çətənə yağı hər gün qəbul edildikdə sinir sistemini tənzimləyir, immuniteti möhkəmlədir, damarları təmizləyir.

Həkim bildirib ki, daha çox 50 yaşdan yuxarı insanlar üçün belə tərkibdə yağlar vacibdir.

***Z.HÜSEYNLİ***
**XQ**

## "Hava qara buludlu..."



**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sentyabrın 20-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 16-18° isti, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 mm civə sütunu olacaq. Nisbi rütubət 55-65 fazi olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 14-17° isti, gündüz 22-27° isti, dağlarda gecə 3-8° isti, gündüz 8-13° isti olacaq.

***Q.QƏZƏNFƏR***
**XQ**

Hadisə

## Təyyarə məcburi eniş edib



**Türk Hava Yollarına məxsus təyyarə uşaq ölümü səbəbindən Qazaxıstan aeroportlarının birində məcburi eniş edib.**

Belə ki, Kazan–Antalya reysi ilə uçan təyyarədə uçuş zamanı qəfildən 17 yaşlı əlil qızın halı pisləşib. Ürəyi dayanan qıza ürək masajı və süni tənəffüs verilib, lakin onun həyatını xilas etmək mümkün olmayıb.

**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5021
SİFARİŞ 2398
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00